RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 28 (10048) 13 fevral 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Prezident Azərbaycanın yeni inkişaf istiqamətini bəyan etdi

Rəqəmsallaşma ani baş verən dəyişim deyil, mərhələlərlə irəliləyən bir inkişaf yoludur. Bu gün Azərbaycan dünyanın artıq keçdiyi həmin yolu addım-addım qət edir. İlk mərhələ kağız üzərindəki sənəd və arxivlərin rəqəmsal mühitə ötürülməsidir. Bu, rəqəmsal dönüşümün təməlini təşkil edən vacib başlanğıcdır. Növbəti mərhələ isə xidmət və proseslərin rəqəmsallaşdırılmasıdır. Artıq bu istiqamətdə həm dövlət qurumları, həm də özəl sektor ciddi irəliləyişlər əldə edib. Onlayn xidmətlər, elektron müraciətlər, avtomatlaşdırılmış sistemlər gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu dəyişimlər vətəndaşlara vaxta qənaət etməyə, daha şəffaf və rahat xidmətlərdən istifadəyə imkan yaradır.

Lakin rəqəmsallaşmanın son və ən mühüm hədəfi bununla məhdudlaşmır. Qarşıda duran əsas məqsəd "ağıllı" və proaktiv xidmətlərin formalaşdırılmasıdır. Bu, dövlət xidmətlərinin vətəndaş müraciət etmədən, ehtiyac yaranan anda avtomatik təqdim edilməsidir. Bu gün ökədə rəqəmsal inkişafın əsas dayaqlarından olan infrastrukturun genişləndirilməsi istiqamətində də mühüm nəticələr əldə edilib. "Onlayn Azərbaycan" layihəsi uğurla başa çatdırılıb və ölkə üzrə genişzolaqlı internet şəbəkəsi əhəmiyyətli dərəcədə gücləndirilib. Bir müddət əvvələ qədər ölkədə internetin orta sürəti təxminən 12 Mbit/s idisə, hazırda bu göstərici 90 Mbit/s-ə yüksəlib. Dövlətə məxsus şirkətlərdə isə internetin sürəti artıq 150 Mbit/s səviyyəsinə çatıb. İlin sonunadək bu göstəricinin 200 Mbit/s-ə yüksələcəyi nəzərdə tutulur. Ən mühüm məqamlardan biri isə odur ki, hazırda Azərbaycanın, demək olar, bütün yaşayış məntəqələri genişzolaqlı internetlə təmin edilib və ölkənin heç bir ucqar nöqtəsi rəqəmsal şəbəkədən kənarda qalmayıb.

Rəqəmsallaşmadan danışarkən data mərkəzindən, yəni "dövlət cloudu"ndan yan keçmək olmaz. Xatırladaq ki, "cloudu" sözü bulud deməkdir. "Dövlət buludu" rəqəmsal idarəetmənin əsas sütunlarından biri kimi çıxış edir. Bu model dövlət qurumlarının informasiya sistemlərinin və məlumat bazalarının vahid, təhlükəsiz və mərkəzləşdirilmiş platformada yerləşdirilməsini nəzərdə tutur. Nəticədə məlumatların saxlanması, emalı və mühafizəsi daha etibarlı həyata keçirilir və resurslardan səmərəli istifadə təmin olunur. "Dövlət buludu" infrastrukturu qurumlar arasında məlumat mübadiləsini sürətləndirir, texniki xərcləri azaldır və kibertəhlükəsizlik səviyyəsini gücləndirir.

6

## Etibarlı tərəfdaş



Azərbaycanın Avropanın və daha geniş coğrafiyanın enerji təhlükəsizliyində oynadığı strateji rol onun etibarlı tərəfdaş imicini gücləndirir. Şaxələndirilmiş enerji marşrutları, uzunmüddətli müqavilələr və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modeli ölkəmizi qlobal enerji xəritəsində mühüm aktora çevirib. Bununla yanaşı, ölkəmizin beynəlxalq humanitar təşəbbüsləri, təbii fəlakətlər və böhranlar zamanı göstərdiyi yardımlar Azərbaycanın məsuliyyətli və etibarlı dövlət olduğuna bariz nümunələrdir. Həmçinin tolerantlığın unikal ünvanı olan ölkəmizin multikultural dəyərlərin təşviqi və sivilizasiyalararası dialoqa verdiyi töhfələr də bu qəbildəndir. Xüsusilə beynəlxalq sülh missiyalarında fəal iştirakı qlobal səviyyədə Azərbaycana olan etimadı daha da möhkəmləndirib.

Cari il fevralın 10-da Prezident İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey.Di.Vens mətbuata bəyanatlarla çıxış ediblər. Həmin zaman bəyanatında Cey.Di.Vens də Azərbaycanın dünyada örnək olacaq etibarlı tərəfdaşlığına xüsusi vurğu edib: "Fikrimcə, bir çox amerikalı bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-nin hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar".

5

## Prezident İlham Əliyevin qətiyyəti ilə dəyişən reallıqlar

### Sorosçuları artıq investorlar əvəzləyib



Ötən il avqustun 8-də Prezident İlham Əliyevin Trampın dəvəti ilə Vaşinqtona səfəri çərçivəsində iki ölkə arasında əldə olunan razılaşma və imzalanan Bəyanat uzunmüddətli boşluqdan və dövlət başçımızın təbirincə desək, sıfırlanan münasibətdən intensiv inkişaf edən səviyyəyə qədəm qoydu. Vaşinqton təmasları çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlıqla bağlı niyyətin ifadə olunması, aidiyyəti sənədin mətninin və konseptual istiqamətlərin hazırlanması üçün işçi qrupunun yaradılması, əslində, yeni dövrdə ABŞ-Azərbaycan münasibətlərinin yol xəritəsinin müəyyənləşməsi üçün önəmli niyyət ifadəsi oldu. ABŞ vitse-prezidentinin Bakıya səfəri və Prezident İlham Əliyevlə məhdud və geniş tərkibli görüşlərdə, həmçinin mətbuat üçün bəyanatda ifadə etdiyi mövqeyi, əslində, ötən ilin avqustundan Bakı və Vaşinqton arasında başlanan marafonun məntiqi sonu və münasibətlər üçün yeni dövrün başlaması hesab edilə bilər.

Səfər çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması, tərəflərin münasibətlərin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərin toxunulmazlığını dəstəklədiklərini bir daha bəyan etməsi, əməkdaşlığın yalnız və yalnız qarşılıqlı hörmət, maraq və ortaq fayda doğuran sahələrdə davam etdirilməsinin zərurətinə istinad olunması münasibətlərin bütün dövründə Bakının öz arqumentlərində nə qədər haqlı olduğunu bir daha ortaya çıxardı.

5

## Azərbaycanın təcrübəsi yeni və real yanaşma kimi dəyərləndirilir



Beynəlxalq hüququn formalaşdırdığı mexanizmlərdən və mövcud təcrübədən yararlanmaqla 1987-ci ilin sonlarından başlayaraq 2023-cü ilə qədər davam etmiş Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində törədilmiş müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərin əsas təşkilatçıları və icraçıları hüquqi məsuliyyətə cəlb edilmişdir. Bu proses sistemli və ardıcıl hüquq siyasətinin nəticəsidir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2020-ci il Vətən müharibəsindən əvvəl dəfələrlə bəyan etmişdir ki, Xocalı soyqırımı da daxil olmaqla, Azərbaycan xalqına qarşı törədilmiş ağır cinayətlərin icraçıları və təşkilatçıları mütləq şəkildə ədalət mühakiməsinə cəlb olunacaq, günahsız qurbanların qanı yerdə qalmayacaqdır. Bu qətiyyətli mövqe dövlət siyasətinin əsas prioritetlərindən biri olmuş və bu gün praktiki nəticəsini tapmışdır.

Azərbaycan Respublikası ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi vasitələrlə təmin etdikdən, sülhə xidmət edən yeni reallıqların beynəlxalq diplomatik müstəvidə təsdiqinə nail olduqdan sonra hüquqi müstəvidə - məhkəmə çərçivəsində ədalətin bərpası istiqamətində mühüm addımlar atmışdır. Belə ki, xalqımıza qarşı insanlıq əleyhinə və müharibə cinayətləri törətməkdə ittiham olunan şəxslərin ədalət mühakiməsi qarşısına çıxarılmasını təmin etmişdir. Bu, dövlətimizin ədalətin bərpası istiqamətində ardıcıl və prinsipial siyasətinin real nəticəsidir.

9

## Xəyanətkar şəbəkənin siması ifşa olundu

Şəbəkənin ifşası göstərir ki, Azərbaycanda "fərqli qütblər" kimi görünən qüvvələr, yəni Ramiz Mehdiyev, dağıdıcı müxalifət və xaricdəki söyüş qrupları, əslində, vahid bir mərkəzdən xarici diktə ilə idarə olunublar. Hər biri öz sahəsində dövlətin müstəqilliyinə zərbə vurmaq üçün koordinasiyalı çalışıblar. Xain şəbəkənin ifşası Azərbaycanın dövlət təhlükəsizlik orqanlarının peşəkarlığı sayəsində mümkün olub. Bu şəxslər hazırda həm hüquq qarşısında, həm də xalqın mənəvi mühakiməsi qarşısında cavab verirlər. Onların xəyanətkar siması Azərbaycanın müstəqillik tarixində dövlətə qarşı qurulmuş ən təhlükəli sui-qəsd cəhdlərindən biri kimi həkk olunacaq.

3



## *Yeniyetmə zorakılığı:* görünən hadisə, görünməyən səbəblər

Bir çoxu baş verən zorakılıq hallarını müasir filmlər və kompüter oyunları ilə əlaqələndirir. Halbuki döyüş və zorakılıq səhnələri əvvəllər də kino sənayesində geniş yer alırdı. Fərq ondadır ki, bu gün reallıqla virtual dünya arasındakı sərhəd əvvəlki kimi aydın deyil. Sanki pərdə aradan qalxıb və insan özünü hadisənin birbaşa iştirakçısı kimi hiss edir. Sual yaranır ki, problem oyunlara həddindən artıq məruz qalmaqdır, yoxsa "nə etsəm də, qarşımdakı zərər görməyəcək" düşüncəsinin formalaşmasıdır.

9



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

"Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə Sizə dərin hörmət və ehtiramla ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam. Bu nüfuzlu mükafat Sizin müdrik rəhbərliyinizin və qarşıdurma əvəzinə sülh yolunu seçmək qətiyyətinizin bariz göstəricisidir. Tez-tez ciddi gərginliklərlə səciyyələnən bir dövrdə keçmişdə yaşanmışları deyil, gələcəklə bağlı məsələləri ön plana çəkərək bu istiqamətdə göstərdiyiniz səylər mühüm mənəvi və siyasi əhəmiyyət daşıyır.

2013-cü ildə İsveçrə Konfederasiyasının Kantonlar Şurasının sədri qismində rəsmi səfərim zamanı Bakıda Sizinlə keçirdiyimiz görüşü böyük məmnuniyyətlə və maraqla xatırlayıram. Həmin görüşdə apardığımız dərinməzmunlu fikir mübadiləsi mənim üçün əhəmiyyətli bir xatirə olaraq qalır. O vaxt müzakirə etdiyimiz dialoq prinsiplərini bu gün də Sizin regional və beynəlxalq fəaliyyətinizdə istiqamət olaraq görmək sevindiricidir.

Azərbaycan ilə Ermənistan arasında Sülh Sazişi ilə bağlı əldə olunan tarixi irəliləyiş göstərir ki, əsl güc diplomatiya və barışıqda təcəssüm olunur. Sizin bu istiqamətdə nümayiş etdirdiyiniz qətiyyət beynəlxalq ictimaiyyətə daha sabit və proqnozlaşdırıla bilən gələcəyin mümkün olduğuna ümid verir.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edir, Azərbaycan Respublikasına davamlı rifah arzularımı bildirirəm.

*Hörmətlə,*

***Filippo LOMBARDİ,***
***İsveçrə Konfederasiyası Federal Parlamenti Kantonlar Şurasının (Senatının) sabiq sədri***

❖ ❖ ❖

Zati-aliləri!

"Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə Sizə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan böyük şərəf və məmnunluq duyuram.

Mərhum Şeyx Zayedin adını daşıyan bu xüsusi mükafat həyatını tolerantlıq və dinc yanaşı yaşamaq dəyərlərinə həsr etmiş bir liderə layiqli ehtiramdır. Bu şərəfə layiq görülməyiniz cəsarətli liderliyinizin və Cənubi Qafqaz üçün yeni bir sülh fəsli yaratmaq məramına sarsılmaz sadiqliyinizin bariz sübutudur.

Biz Azərbaycan və Ermənistan arasında tarixi sülh təşəbbüsünü böyük ümidlə izlədik. Zatialinizin də qeyd etdiyi kimi, 2025-ci il avqustun 8-də Vaşinqtonda Birgə Bəyannamənin imzalanmasından sonrakı aylarda hər iki ölkə cəmiyyətinin ikitərəfli ticarət və tranzit sahəsində ümidverici addımlar da daxil olmaqla, sülhün real faydalar gətirməsinin şahidi olduğunu görmək çox ruhlandırıcıdır. Dialoqdan əməkdaşlığa doğru bu əhəmiyyətli irəliləyiş həqiqətən təqdirəlayiqdir.

ICESCO yekun və hərtərəfli Sülh Sazişinə doğru bu həyati əhəmiyyətli irəliləyişi qətiyyətlə dəstəkləyir. Əminik ki, bu gün qoyulan təməllər regionun gələcək nəsilləri üçün davamlı sabitliyi, təhlükəsizliyi və rifahı təmin edəcəkdir. Təşkilatımız qarşılıqlı anlaşma və həmrəylik körpüləri qurmağı hədəfləyən təhsil, elm və mədəniyyət proqramları vasitəsilə bu səyləri dəstəkləməyə hazırdır.

Azərbaycan xalqı üçün daha firavan və dinc gələcək qurmağa sadiqliyiniz hər dəfə məndə dərin təəssürat yaradır. Bu mükafat Sizin siyasətinizin hazırda regionda harmoniyaya yol açdığını bir daha təsdiqləyir.

Zati-aliləri, bu beynəlxalq mükafata layiq görülməyiniz münasibətilə bir daha səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm. Azərbaycan Respublikasını sarsılmaz sülh və qardaşlıqla müəyyən edilmiş gələcəyə doğru istiqamətləndirmək yolunda Sizə davamlı uğurlar arzulayırıq.

İcazə verin, bu fürsətdən istifadə edərək zati-alinizə ən yüksək ehtiramımı bildirim.

*Hörmətlə,*

***Səlim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun baş direktoru***

# Bakıda Küveytin Milli Günü qeyd edilib



Bakıda Küveyt Dövlətinin 65-ci Milli Günü və 35-ci Qurtuluş Günü münasibətilə rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Tədbirdə çıxış edən Küveytin Azərbaycandakı səfiri Məhəmməd Feysal əl-Mutairi iki ölkə arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə mövcud olan yüksəksəviyyəli əlaqələrdən məmnunluğunu ifadə edib. O bildirib ki, Küveyt və Azərbaycan beynəlxalq arenada, o cümlədən BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində sıx əməkdaşlıq və koordinasiya həyata keçirir, qarşılıqlı namizədlikləri dəstəkləyir.

Diplomat ötən il ərzində əlaqələrin inkişafına töhfə verən mühüm hadisələrə də toxunaraq Küveytdə keçirilmiş Azərbaycan-Küveyt Əməkdaşlıq üzrə Birgə Komissiyanın üçüncü iclasını xüsusi qeyd edib. Onun sözlərinə görə, iclas çərçivəsində birgə bəyannamə və 2025-2027-ci illəri əhatə edən yol xəritəsi qəbul olunub, kənd təsərrüfatı, idman, mədəniyyət və turizm sahələrində əməkdaşlıq sənədləri imzalanıb. Səfir qarşılıqlı rəsmi səfərlərin və iqtisadi əməkdaşlığın genişlənməsinin əhəmiyyətini vurğulayıb, həmçinin Küveytin Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında fəal iştirak edəcəyini bildirib.

Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov isə çıxışında Küveyt Dövlətinin 65-ci Milli Günü və 35-ci Qurtuluş Günü münasibətilə Azərbaycan hökuməti adından təbriklərini çatdırıb, dost və qardaş Küveyt xalqına sülh, rifah və davamlı inkişaf arzulayıb.

Nazir müavini Azərbaycan-Küveyt münasibətlərinin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığını, diplomatik əlaqələrin qurulduğu dövrdən bəri davamlı inkişaf etdiyini bildirib. O, Küveytin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə verdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib, son illər yüksəksəviyyəli səfərlərin, Birgə Komissiyanın iclaslarının, siyasi məsləhətləşmələrin və turizm əlaqələrinin genişlənməsinin əməkdaşlığın möhkəmlənməsinə mühüm töhfə verdiyini, həmçinin iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığını vurğulayıb.

Rəsmi hissənin sonunda Küveyt Dövlətinin səfiri tərəfindən xatirə hədiyyəsi təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı əməkdaşlarına ali xüsusi rütbələr verilsin:

**"2-ci dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi**

Orxan Faiq oğlu Nəzərli - Dövlət Vergi Xidmətinin rəisi

**"3-cü dərəcəli dövlət vergi xidməti müşaviri" ali xüsusi rütbəsi**

Nicat Şükür oğlu İmanov - Vergi siyasəti baş idarəsinin rəisi
Abbas Cəlil oğlu İsmayılov - Vergi auditi baş idarəsinin rəisi
Səməd Ədil oğlu Vəliyev - 2 saylı Ərazi Vergilər Baş İdarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2026-cı il*

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Vergi sisteminin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı işçiləri təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Əliyev Nazim Kazım oğlu

**1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Abbasov Etibar Akif oğlu
Bədəlova Zöhrə Əliriza qızı
Gözəlov Zülfi Məmməd oğlu
Həziyeva Gülçöhrə Hacıqulu qızı
Hüseynov Alı Hüseynqulu oğlu
İsgəndərov Nəsib Əli oğlu
Məmmədov Şahin Yusif oğlu
Rzayev Zamin Vahid oğlu
Səfərova Rəsmiyyə Suca qızı

**3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə**

Qasımlı Nuranə Nurəddin qızı
Qənbərov Zahid Paşa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2026-cı il*

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini və qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları və mülki işçiləri təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Qarayev Natiq Sahib oğlu - general-mayor
Cəfərov Elməddin Qulu oğlu - polkovnik
Quliyev İslam Ramiz oğlu - polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Hidayev Əziz Şahmurad oğlu - polkovnik
Abbasov Hikmət Zahid oğlu - mayor
Əliyeva Samirə Təşkilat qızı - mayor

**"Tərəqqi" medalı ilə**

Sədrətdinov Pərviz Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 fevral 2026-cı il*

# İstanbulda COP31-ə hazırlıq üzrə ilk strateji planlama iclası olub




Türkiyənin İstanbul şəhərində COP31-ə hazırlıq ilə bağlı Türkiyə, Azərbaycan, Braziliya, Avstraliya və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Katibliyinin nümayəndə heyətlərinin iştirakı ilə ilk strateji planlama iclası keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan nümayəndə heyətini xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Bundan əlavə, tədbirin açılışında Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev onlayn formatda iştirak və çıxış edib.

Tədbirdə COP31-in substantiv və logistik təşkili ilə bağlı Türkiyə tərəfinin hazırlığı və COP31-in sədri qismində Türkiyə ilə COP31-in danışıqlar prosesinə cavabdeh olan Avstraliya arasında əməkdaşlıq mexanizmi, eləcə də, COP31-in uğurunun təmin edilməsi ilə bağlı müvafiq strategiyanın ilkin müzakirəsi baş tutub.

Eyni zamanda tədbir çərçivəsində COP30-da qəbul edilmiş qərar əsasında yaradılmış "Belem 1,5 Missiyası" adlı Troykanın (Azərbaycan, Braziliya və Türkiyə) cari il ərzindəki fəaliyyəti ilə bağlı planlar barədə fikir mübadiləsi aparılıb.

# Milli Məclisdə könüllü qanvermə aksiyası keçirilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin donorluğun və qan xidmətinin inkişafına dair imzaladığı sərəncamlara uyğun olaraq bu sahədə görülən işlərə və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ağır xəstəliklərdən əziyyət çəkən şəxslərə həssas münasibətinin bariz nümunəsi olan Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramına dəstək vermək məqsədilə fevralın 12-də Milli Məclisdə könüllü qanvermə aksiyası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin rəhbərliyi, deputatlar, Aparatın və İşlər idarəsinin əməkdaşları parlamentdə bu məqsədlə ayrılmış yerdə lazımi tibbi müayinədən keçdikdən sonra qan veriblər.

Aksiyada toplanan qan irsi qan xəstəliklərindən əziyyət çəkən şəxslərin müalicəsində istifadə olunacaq.

***"Azərbaycan"***

# Azərbaycanın İsrail və ABŞ ilə iqtisadi əməkdaşlığının möhkəmləndirilməsi perspektivləri nəzərdən keçirilib

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycanın iqtisadi göstəriciləri, biznes və investisiya potensialı, ölkəmizin təşəbbüsçüsü və iştirakçısı olduğu enerji və nəqliyyat marşrutları haqqında məlumat verilib.

Bildirilib ki, strateji coğrafi mövqeyini real imkanlara çevirən Azərbaycan iqtisadi zonalar, vergi güzəştləri və müasirləşdirilmiş gömrük sistemi ilə biznes üçün əlverişli mühit təqdim edir. Prioritet investisiya istiqamətlərinə bərpaolunan enerji, rəqəmsallaşma, innovasiyalar və "yaşıl texnologiya"lar, nəqliyyat-tranzit, logistika, yüksək əlavə dəyər yaradan istehsal sahələri daxildir.

Qeyd olunub ki, ölkəmiz regionun enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş kimi çıxış edir. Azərbaycanın şaxələndirilmiş neft və qaz kəmərləri sistemi vasitəsilə Xəzər regionunu beynəlxalq bazarlarla birləşdirən strateji rolu regional bağlantıların gücləndirilməsi üçün geniş imkanlar açır.

Ölkəmiz müasir nəqliyyat infrastrukturuna qoyulan irihəcmli investisiyalar sayəsində Avrasiya məkanında mühüm nəqliyyat-logistika qovşağına çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı Gəmiqayırma Zavodu, müasir logistika və hava yük terminalları, doqquz beynəlxalq hava limanı və yenilənmiş avtomobil yolları şəbəkəsi ölkənin regional və qlobal təchizat zəncirlərində rolunu daha da gücləndirir.

Görüş zamanı Azərbaycanın İsrail və ABŞ ilə iqtisadi əməkdaşlığının mövcud vəziyyəti haqqında məlumat verilib. Bu ölkələrlə tərəfdaşlığın möhkəmləndirilməsi nəzərdən keçirilib.

# Rusiya ilə Ermənistan Azərbaycan və Türkiyəyə gedən dəmir yolu xətlərinin bərpasını müzakirə edəcək

Moskva və İrəvan Ermənistanın Azərbaycan və Türkiyənin dəmir yolu xətləri ilə birləşdirilməsini təmin edəcək iki dəmir yolu sahəsinin bərpası ilə bağlı konkret danışıqlara başlayacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə açıqlaması zamanı bildirib.

Onun sözlərinə görə, qərar Ermənistan tərəfinin müraciəti əsasında qəbul olunub. Söhbət Ermənistanın dəmir yolu şəbəkəsini Yerasx kəndi yaxınlığında Azərbaycanın dəmir yolları, həmçinin Axuryan yaşayış məntəqəsi yaxınlığında Türkiyənin dəmir yolları ilə birləşdirəcək sahələrdən gedir. A.Overçuk qeyd edib ki, bərpa olunacaq sahələrin ümumi uzunluğu təxminən 1,6 kilometr və 12,4 kilometr təşkil edir. Danışıqlar zamanı layihənin həyata keçirilməsinin texniki, maliyyə və digər şərtlərinin müəyyən edilməsi planlaşdırılır. O vurğulayıb ki, həmin sahələrin bərpası Rusiyaya Naxçıvan, Türkiyə vasitəsilə Aralıq dənizi limanlarına, həmçinin İran vasitəsilə Körfəz və Hind okeanı limanlarına birbaşa dəmir yolu çıxışı imkanı verəcək.

Baş nazirin müavini bildirib ki, Rusiya Cənubi Qafqaz regionunda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılması istiqamətində ardıcıl işi davam etdirir. Xüsusilə, dağılmış nəqliyyat xətlərinin bərpası üzrə tədbirlər görülür. "Qafqazda nəqliyyat-logistika əlaqələrinin gücləndirilməsi Azərbaycan, Ermənistan, Gürcüstan, İran, Türkiyə və Rusiya xalqları üçün sülh, sabitlik və iqtisadi rifah baxımından kritik əhəmiyyət daşıyır. Bu mühüm vəzifənin həllində region ölkələrinin hamısının konstruktiv əməkdaşlığına ümid edirik", - deyə o söyləyib.

Baş nazirin müavini, həmçinin xatırladıb ki, 1991-ci ildən bəri ilk dəfə olaraq ötən il Azərbaycan və Gürcüstan əraziləri vasitəsilə Rusiya ilə Ermənistan arasında dəmir yolu hərəkəti bərpa olunub. Birbaşa əlaqənin açılması Rusiya mallarının xarici bazarlara çıxışı üçün daha rəqabətli şərait yaradıb və qarşılıqlı ticarətin genişlənməsinə töhfə verir.

# Dövlət hakimiyyəti əleyhinə yönələn cinayət əməlləri ilə bağlı araşdırma tədbirləri həyata keçirilir

Xarici xüsusi xidmət orqanlarının Azərbaycanın təhlükəsizliyinə, milli maraq və mənafelərinə qarşı həyata keçirdikləri təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində Azərbaycan Respublikasının vətəndaşları - Mehdiyev Ramiz Ənvər oğlu, Abbasov Abbas Aydın oğlu, Kərimli Əli Əmirhüseyn oğlu və qeyrilərinin hakimiyyətin zorla ələ keçirilməsinə, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmələrinə əsaslı şübhələr yaranmışdır.

Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatına görə, cinayət işi üzrə təqsirləndirilən şəxslərə elan edilmiş ittihama əsasən, xarici ölkənin xüsusi xidmət orqanları tərəfindən Azərbaycandakı siyasi proseslərə müdaxilə etmək məqsədilə yaradılaraq 4 iyul 2012-ci ildə xarici ölkədə "Rusiya Azərbaycan Təşkilatları İttifaqı" adı altında qeydiyyatdan keçirilmiş və "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın həmtəsisçiləri və rəhbərləri olmuş Abbasov Abbas Aydın oğlu və İbrahimbəyov Rüstəm Məmməd İbrahim oğlu, eləcə də Mehdiyev Ramiz Ənvər oğlu, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri Kərimli Əli Əmirhüseyn oğlu, partiyanın üzvləri - Qəhrəmanlı Fuad Əli oğlu, Zayıdov Qənimət Səlim oğlu və qeyriləri dövlət hakimiyyətinin zorla ələ keçirilməsi, dövlətin mövcud konstitusiya quruluşunun zorla dəyişdirilməsi barədə sövdələşmişlər.



Belə ki, onlar 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti seçkilərində xarici ölkə vətəndaşı Rüstəm İbrahimbəyovun namizədliyini irəli sürən "Demokratik Qüvvələrin Milli Şurası" (Milli Şura) adlı təşkilat yaratdıqdan sonra xarici xüsusi xidmət orqanlarının maddi yardımı və digər formalarda təşkilati dəstəyilə dövlət hakimiyyətinin zorla ələ keçirilməsi üçün kütləvi iğtişaşların törədilməsi, hakimiyyət nümayəndələrinin qanuni tələblərinə tabe olunmaması, ictimai qaydanın, nəqliyyat, müəssisə, idarə və təşkilatların işinin pozulması istiqamətində fəaliyyət göstərmiş, həmçinin bu məqsədlə respublikanın müxtəlif rayonlarından insanların cəlb edilməsi üçün AXCP-nin üzvü İbrahim Məmməd Əziz oğlu və digərləri vasitəsilə qəbul etdikləri 933.828,40 manat məbləğində pul vəsaitini, o cümlədən Ramiz Mehdiyev və Abbas Abbasovdan əldə edilən maddi vəsaitləri qeyd olunan əməllərin törədilməsinə yönəltmişlər.

Cinayət işinin materiallarına əlavə edilmiş texniki sübutlara əsasən, "Milyarderlər İttifaqı" adlandırılan təşkilatın üzvlərinə yaşadıqları xarici ölkədə tabeliklərində işləyən və ya digər formada himayələrində olan Azərbaycan vətəndaşlarının 2013-cü ildə prezident seçkiləri zamanı Azərbaycana göndərilmələri, onların hər birinin Azərbaycandakı qohumları və yaxınlarını cəlb edərək, xarici xüsusi xidmət orqanının təlimatına uyğun şəkildə mitinqlər və kütləvi iğtişaşlarda istifadə olunmalarını təmin etmələri barədə tapşırıqlar verilmişdir.

Məlum olmuşdur ki, qabaqcadan aparılan danışıqlar nəticəsində müvafiq xarici dövlətin səlahiyyətli şəxslərinin istəyinə uyğun olaraq, "Milli Şura"nın 2013-cü ildə bu xarici dövlətin rəhbərliyinə ünvanladığı gizli məktubda "şura"nın fəaliyyətinin dəstəklənməsi xahiş edilmiş, həmin ölkədə aparılan "islahatlar"ın Azərbaycanda da həyata keçirilməsi üçün Azərbaycan dövlətinə təzyiq göstərilməsi təklif edilmişdir. Qeyd olunan ittihama əsasən, Qənimət Zayıdov 2013-cü ilin əvvəlindən etibarən Əli Kərimlinin adından xarici ölkənin xüsusi xidmət orqanlarının nümayəndələri ilə gizli əlaqəyə girərək danışıqlar aparmış, onun Azərbaycan Respublikasında hakimiyyətə gətirilməsində xarici xüsusi xidmət orqanlarının geniş təşkilati və xüsusi imkanlarından istifadə edilməsi üçün müraciət etmiş, qarşılığında Azərbaycanda xarici dövlətin strateji maraqlarının təmin ediləcəyini konkret detallar sadalamaqla vəd etmiş, eləcə də tərəflər Əli Kərimlinin hakimiyyətə gələcəyi təqdirdə Azərbaycan Respublikasının mərhələli qaydada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına tam üzv olacağı barədə razılaşmışlar.

Eyni zamanda ittihama əsasən, Əli Kərimli adıçəkilən şəxslərlə qabaqcadan əldə olunmuş ümumi razılaşmaya uyğun qaydada cinayət əməllərini davam etdirərək, Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın apardığı təcavüzkar müharibəyə qarşı və orduya dəstək üçün Azərbaycan vətəndaşları 2020-ci ilin iyul ayının 14-dən 15-nə keçən gecə Bakı şəhərində yürüş etdikləri zaman Fuad Qəhrəmanlı və digərlərinə partiyanı təmsil edən şəxslərlə birlikdə kiçik qruplar təşkil etməklə yürüş iştirakçılarına qoşulmaq, daha sonra vətənpərvərlik şüarlarını təxribat xarakterli çağırışlarla əvəz edərək xaotik vəziyyət yaratmaq, bu vəziyyətdən yararlanıb kütləni idarə etməklə, Azərbaycan Respublikası Milli Məclisinin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin inzibati binalarını ələ keçirmək, o cümlədən kütləvi informasiya vasitələri ilə hakimiyyətin ələ keçirilməsini bəyan edəcəyi barədə tapşırıqlar vermişdir.

Bundan başqa, Ramiz Mehdiyev 2025-ci ilin avqust-sentyabr aylarında dövlət hakimiyyəti əleyhinə gizli plan və fəaliyyət istiqamətlərini özündə ehtiva edən "Dövlət idarəetmə sisteminin yenidən qurulması haqqında təkliflər" başlığı altında müvafiq xarici dildə hazırladığı yazılı materialı köməkçisi Əmirov Eldar Qurban oğlu və digərləri vasitəsilə həmin sənəddə nəzərdə tutulan məsələlərin birgə razılaşdırılması məqsədilə 27 sentyabr 2025-ci il tarixində Əli Kərimliyə təqdim etmiş, 2025-ci ilin oktyabr ayının 3-də sözügedən yazının yekun redaktə olunmuş nüsxəsini qabaqcadan şəxsən əlaqə saxladığı xarici dövlətin xüsusi xidmət orqanlarının rəhbər vəzifəli şəxslərinə faktiki sahibi olduğu "Şərq-Qərb" ASC-nin əməkdaşları vasitəsilə göndərmiş, qeyd olunan göndəriş texniki olaraq fiksə edilmişdir.

Bu əməlləri ilə Ramiz Mehdiyev dövlət hakimiyyətinin xarici xüsusi xidmət orqanlarının köməyilə ələ keçirilməsi və konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər etmiş, xarici dövlətin nümayəndələrinə Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi maraqlarına zidd kömək etməklə dövlətə xəyanət etmişdir.

Bundan əlavə, Ramiz Mehdiyev 13 oktyabr 2025-ci il tarixinədək olan müddətdə cinayət yolu ilə əldə edilmiş 17.000.000 manatdan artıq pul vəsaitini leqallaşdırmışdır.

Sadalanan cinayət əməllərində iştiraklarına görə, Abbas Abbasov, Əli Kərimli, Fuad Qəhrəmanlı, Məmməd İbrahim və Qənimət Zayıdov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlər), Eldar Əmirov 32.5, 278.1 (hakimiyyətin zorla ələ keçirilməsinə, yaxud zorla saxlanılmasına, habelə dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətlərə kömək etmə), Ramiz Mehdiyev 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma), 274 (dövlətə xəyanət) və 278.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilmişlər.

Abbas Abbasov, Fuad Qəhrəmanlı və Qənimət Zayıdov Azərbaycan Respublikası ərazisindən kənarda olduqları və istintaqdan gizləndikləri üçün barələrində axtarış elan edilməklə, məhkəmə tərəfindən qiyabi həbs qətimkan tədbiri seçilmişdir.

Cinayət işi üzrə araşdırmalar davam etdirilir.

# Xəyanətkar şəbəkənin siması ifşa olundu

## Suverenliyimizə qəsd edənlər ən ağır formada cəzalandırılmalıdırlar

Fevralın 12-də Dövlət Təhlükəsizliyi Xidməti Ramiz Mehdiyev, Abbas Abbasov, Əli Kərimli və digər şəxslərin xarici xüsusi xidmət orqanları ilə əməkdaşlıq edərək Azərbaycanın konstitusiya quruluşunu zorla dəyişdirmək və hakimiyyəti ələ keçirmək niyyətləri ilə bağlı məlumat yayıb. DTX-nin məlumatına əsasən, 2013-cü il seçkilər ərəfəsində xaricdə yaradılmış "Milyarderlər İttifaqı"nın rəhbərləri və dağıdıcı müxalifət nümayəndələri xarici dövlətlərin maddi və təşkilati dəstəyilə kütləvi iğtişaşlar törətmək üçün sövdələşibłər.

Bu məqsədlə Ramiz Mehdiyev və Abbas Abbasov tərəfindən ayrılan böyük məbləğdə vəsaitlərdən istifadə edilib. İstintaq materiallarında həmçinin Əli Kərimlinin hakimiyyətə gələcəyi təqdirdə Azərbaycanın KTMT-yə üzv olacağı və strateji maraqları təmin edəcəyi barədə vədlər verdiyi aşkarlanıb. Həmçinin 2020-ci ilin iyul hadisələri zamanı Əli Kərimlinin strateji dövlət binalarının ələ keçirilməsi üçün təxribat xarakterli göstərişlər ötürdüyü məlum olub. Eyni zamanda 2025-ci ilin son aylarında Ramiz Mehdiyevin dövlət idarəetməsini devirməyi nəzərdə tutan gizli planları Əli Kərimli ilə paylaşdığı və xarici dövlətlərə ötürdüyü texniki vasitələrlə fiksə edilib. Bununla yanaşı, Ramiz Mehdiyev dövlətə xəyanətdə və 17 milyon manatdan artıq cinayət yolu ilə əldə edilmiş vəsaiti leqallaşdırmaqda ittiham olunur.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) materialları göstərir ki, bu şəbəkə, sadəcə, siyasi müxalifət qrupu deyil, xarici dövlətlərin kəşfiyyat orqanları tərəfindən idarə olunan, daxili və xarici qanadları olan mütəşəkkil struktur kimi fəaliyyət göstərib. Ramiz Mehdiyev şəbəkənin ən yüksək pilləsində dayanaraq xarici ölkənin xüsusi xidmət orqanları ilə Azərbaycandakı "beşinci kolon" arasında əsas halqa rolunu oynayıb. Ramiz Mehdiyev 2025-ci ildə dövlət idarəetməsini devirmək üçün xarici dildə xüsusi direktivlər hazırladaraq bu sənədləri həm xarici kəşfiyyat orqanlarına, həm də daxili icraçılara ötürüb. O, dövlət strukturları daxilindəki təsir rıçaqlarını və əlaqələrini ölkəni daxildən zəiflətməyə, xarici güclərin maraqlarını Azərbaycanın dövlət təhlükəsizliyi əleyhinə reallaşdırmağa yönəldib.

Əli Kərimli və onun rəhbərlik etdiyi AXCP şəbəkəsi isə planın sahə icrasını həyata keçiriblər. Onlar 2013-cü il seçkiləri və 2020-ci ilin iyul hadisələri zamanı vətənpərvərlik şüarlarını manipulyasiya edərək kütləni Milli Məclis və AzTV kimi dövlət əhəmiyyətli binaların zəbt edilməsinə yönəltmək vəzifəsini yerinə yetiriblər. Bu şəbəkənin fəaliyyəti Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü təhlükə altına qoymaqla yanaşı, dövlət hakimiyyətinin konstitusiyadan kənar yollarla, xarici hərbi-siyasi dairələrin köməyilə ələ keçirilməsinə xidmət edib. Azərbaycanın dövlət müstəqilliyinə, ərazi bütövlüyü və suverenliyinə qənim kəsilmiş bu şəbəkə ardıcıl olaraq ölkədə gərgin vəziyyət yaratmaq, ictimai sabitliyi pozmaq, dövlət maraqlarına qarşı planlar qurmaq və gerçəkləşdirmək istiqamətində fəaliyyət göstərib, ölkənin nüfuzuna xələl gətirmək üçün bütün mümkün vasitələrdən istifadə edib. Xain şəbəkənin fəaliyyəti yalnız hakimiyyət davası olmayıb, birbaşa Azərbaycanın milli maraqlarının və suveren hüquqlarının xarici güclərə peşkəş edilməsinə çalışıblar. Xarici xüsusi xidmət orqanlarının təlimatı ilə Azərbaycanın daxili və xarici siyasəti barədə beynəlxalq təşkilatlara təhrif olunmuş məlumatlar ötürülüb. Belə ki, "Milli Şura" vasitəsilə xarici dövlətlərə gizli məktublar ünvanlayaraq, Azərbaycan dövlətinə qarşı sanksiyalar tətbiq edilməsi və siyasi təzyiqlərin artırılması xahiş edilib.

Şəbəkənin ən ağır cinayətlərindən biri Azərbaycanın strateji maraqlarını xarici güclərin maraqlarına qurban vermək vədi olub. Əli Kərimlinin hakimiyyətə gətirilməsi müqabilində Azərbaycanın hərbi-siyasi müstəqilliyini məhdudlaşdıran və ölkəni başqa bir dövlətin hərbi blokuna (KTMT) daxil etməyi nəzərdə tutan gizli razılaşmalar suverenliyə birbaşa qəsddir.

Vətən müharibəsi kimi taleyüklü bir dövrdə bu qrupun fəaliyyəti birbaşa milli orduya, xalqın birliyinə və dövlətin qələbə əzminə qarşı yönəlmiş terror xarakteri daşıyıb. Xəyanətkar şəbəkə Azərbaycanın ən həssas və həlledici dövründə, torpaqların azad edilməsi ərəfəsində xarici kəşfiyyatın "psixoloji əməliyyat" mərkəzi kimi fəaliyyət göstərib. Əsas vəzifəsi xalq arasında ümidsizlik toxumu səpmək olub. Məqsədyönlü şəkildə Azərbaycan Ordusunun gücü, texniki təchizatı və döyüş qabiliyyəti barədə şübhələr yaradaraq ictimai rəyi çaşdırmağa səy göstərib. Bu, düşmən tərəfin apardığı təbliğatla tam üst-üstə düşən bir fəaliyyət idi.

Ramiz Mehdiyevin dağıdıcı müxalifəti daim aktiv fəaliyyətə sövq etməsi dövlətin diqqətini xarici cəbhədən daxili cəbhəyə yayındırmaq məqsədi güdürdü. Müharibə ərəfəsində dövlətin bütün resurslarını cəbhəyə yönəltdiyi bir vaxtda Mehdiyev və onun əlaqəli olduğu qruplar süni daxili böhranlar, mitinqlər və itaətsizlik aksiyaları ilə dövləti zəiflətmək niyyəti güdüblər. Mehdiyev illərlə dövlət aparatında topladığı rıçaqlardan istifadə edərək xain qrupları maliyyələşdirib və onları sistemli şəkildə dövlət maraqlarına qarşı hücuma yönəldib. Şəbəkə Azərbaycanın müstəqil qərarvermə və torpaqlarını hərbi yolla azadetmə iradəsini sarsıtmaq üçün həm daxili media resurslarından, həm də sosial şəbəkələrdəki trol qruplarından maksimum istifadə edib. Lakin dövlətin qətiyyəti və xalqımızın birliyi bu psixoloji sabotaj planlarını alt-üst edərək şəbəkənin ifşasına şərait yaradıb.

Baş verənlərə nəzər yetirdikdə aydın olur ki, xaricdəki söyüş müxalifəti də bu şəbəkə tərəfindən təlimatlandırılıb və idarə olunub. Ramiz Mehdiyev və onun xarici tərəfdaşlarının rəhbərlik etdiyi söyüş müxalifəti siyasi mübarizəni etik normalardan çıxararaq Azərbaycan dövlətçiliyinə və milli dəyərlərə qarşı bir təzyiq alətinə çeviriblər. Xaricdə sığınacaq tapan ünsürlər mərkəzləşdirilmiş qaydada siyasi sifarişlər yerinə yetiriblər. Ramiz Mehdiyev və Əli Kərimli kimi şəxslərin daxildəki maraqlarına uyğun olaraq dövlət rəhbərliyi və milli maraqları qoruyan şəxslər, o cümlədən müstəqil dövlət qurumları ən çirkin formada hədəf seçilib. Təhqir, şantaj və böhtan vasitəsilə cəmiyyətdə xof yaratmaq, dövlət məmurlarını mənəvi basqı altında saxlamaq və sağlam siyasi dialoq mühitini məhv etmək əsas hədəf olub. Milyonlarla manatın məhz bu "media resursları"na və "bloqçulara" yönəldildiyi şübhəsizdir. Daxildən ötürülən uydurmalar məhz həmin qruplar vasitəsilə tirajlanaraq, dövlətin daxili sabitliyinə zərbə vurmaq üçün istifadə edilib.

Azərbaycan xalqının mentalitetinə zidd olan söyüş və təhqir leksikonunu siyasi müstəviyə gətirməklə, cəmiyyətdəki etik sədləri sarsıtmaq və gənc nəsli dövlətə qarşı radikallaşdırmaq məqsədi güdülüb. Faktlar göstərir ki, Ramiz Mehdiyevin rəhbərlik etdiyi şəbəkə Azərbaycanın həm fiziki, həm də mənəvi təhlükəsizliyini hədəf alıb. Söyüş müxalifətinin bu şəbəkə tərəfindən idarə olunması, xəyanətin miqyasının nə qədər geniş və sistemli olduğunu bir daha təsdiqləyir.

Şəbəkənin ifşası göstərir ki, Azərbaycanda "fərqli qütblər" kimi görünən qüvvələr, yəni Ramiz Mehdiyev, dağıdıcı müxalifət və xaricdəki söyüş qrupları, əslində, vahid bir mərkəzdən xarici diktə ilə idarə olunublar. Hər biri öz sahəsində dövlətin müstəqilliyinə zərbə vurmaq üçün koordinasiyalı çalışıblar. Xain şəbəkənin ifşası Azərbaycanın dövlət təhlükəsizlik orqanlarının peşəkarlığı sayəsində mümkün olub. Bu şəxslər hazırda həm hüquq qarşısında, həm də xalqın mənəvi mühakiməsi qarşısında cavab verirlər. Onların xəyanətkar siması Azərbaycanın müstəqillik tarixində dövlətə qarşı qurulmuş ən təhlükəli sui-qəsd cəhdlərindən biri kimi həkk olunacaq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Baş prokuror paytaxtın Suraxanı rayonunda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla, onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Fevralın 12-də baş prokuror Kamran Əliyev Bakı şəhəri Suraxanı rayon prokurorluğunun inzibati binasında Suraxanı rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 45 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Bakı və Əbu-Dabi arasında şəhər nəqliyyatının inkişafı sahəsində əməkdaşlıq müzakirə olunub



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Əbu-Dabi Əmirliyinin Bələdiyyələr və nəqliyyat departamentinin sədri Məhəmməd Əli Əl-Şorafanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Əbu-Dabi və Azərbaycan arasında şəhər nəqliyyatının inkişafı sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.

Bakı şəhərində həyata keçirilən nəqliyyatın optimallaşdırılması tədbirləri, yeni elektrikli avtobusların alınması, eləcə də mikromobillik və parklanma infrastrukturunun yaradılması ilə bağlı fikir mübadiləsi aparılıb.

# "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" Məşvərət şuralarının iclaslarına hazırlıq müzakirə edilib




Energetika naziri Pərviz Şahbazovla Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Torma arasında görüş keçirilib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında əlaqələrin inkişafında enerji amilinin mühüm rol oynadığı, Azərbaycanın Macarıstanın enerji təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsi məqsədlərinə töhfə verdiyi qeyd olunub.

Qaz təchizatı, ölkəmizin neft-qaz hasilatı sektorunda "MOL Group" və MVM şirkəti ilə uğurlu əməkdaşlıqdan məmnunluq ifadə edilib. MVM şirkətinin "Şəfəq" Günəş enerjisi layihəsi üzrə birgə müəssisəyə qoşulması tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi kimi qiymətləndirilib. Macarıstanın azad edilmiş ərazilərin bərpası və "yaşıl enerji" sahəsində əməkdaşlığa maraqlı olduğu bildirilib.

Söhbət zamanı "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin icrası, eləcə də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası nazirlərin 12-ci iclası və "Yaşıl Enerji" Məşvərət Şurası nazirlərin 4-cü iclası çərçivəsində fikir mübadiləsi aparılıb.

# "Azərxalça"nın Şuşa məscidi üçün hazırladığı dairəvi əl xalçasının kəsilməsi mərasimi olub








Heydər Əliyev Fondu, "PASHA Holding" və "PMD Projects"in təşkilatçılığı ilə "Azərxalça" ASC-nin yaradıcı heyəti və toxucu ustalarının birgə zəhməti nəticəsində ümumdünya xalçaçılıq tarixində analoqu olmayan, diametri 22,17 metr olan dairəvi əl xalçasının toxunma prosesi artıq tamamlanıb.

Bu barədə AZƏRTAC-a "Azərxalça" ASC-dən məlumat verilib.

Bildirilib ki, Şuşa məscidi üçün iki ayrı dairəvi xalça hazırlanıb: məscidin birinci mərtəbəsi üçün nəzərdə tutulan xalça İsmayıllı emalatxanasında toxunaraq başa çatdırılıb, ikinci mərtəbə üçün hazırlanan xalça isə "Azərxalça" ASC-nin Şabran emalatxanasında toxunub.

Şuşa məscidi üçün hazırlanmış dairəvi xalçanın kəsilməsi prosesində Leyla Əliyeva iştirak edib. Daha əvvəl Leyla Əliyeva İsmayıllı emalatxanasına baş çəkərək xalça ilə yaxından tanış olub, toxucularla vaxt keçirib və tarixi əsərə çevriləcək xalçaya ilmə atıb. Xalçanın son ilmələri məhz Leyla Əliyeva tərəfindən vurulub.

Xatırladaq ki, "Qarabağ" qrupuna aid olan və "Xətai" xalçasının elementlərini özündə birləşdirən bu nadir əsərin əsas toxunma prosesi İsmayıllı emalatxanasında həyata keçirilib. Toxunma prosesində 150 toxucu xanım tərəfindən təxminən 60 milyon ilmə atılıb. Möhtəşəm əsərin toxunmasına 2024-cü il dekabrın 16-da başlanılıb.

Xalçanın tam şəkildə toxunması üçün xüsusi olaraq yeni və fərqli üslubda dəzgah sifariş edilib. İki mərtəbədən ibarət bu dəzgah xaricdən dəvət olunmuş mütəxəssislər qrupu tərəfindən məhz "Azərxalça" ASC üçün hazırlanıb.

# ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Azərbaycanın tolerantlıq modeli barədə məlumatlandırılıb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə ABŞ-nin Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



QMİ-dən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Betsi Berns Korn böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə edib.

Azərbaycanın dinlərarası əməkdaşlıq sahəsində zəngin təcrübəsini, tolerantlıq mühiti, multikultural dəyərləri barədə məlumatlı olduqlarını və bu baxımdan Azərbaycanın dini mühiti ilə yerində tanış olmaq fürsətini yüksək dəyərləndirdiklərini ifadə edib.

Azərbaycanda keçirdikləri çoxsaylı görüşlər sırasında Azərbaycanın, Qafqazın dini lideri ilə görüşün xüsusi yer tutduğunu bildirən qonaqlar Şeyxülislamdan Azərbaycanın tolerantlıq modeli barədə danışmasını və bu modelə dünyanın başqa ölkələrində necə nail olunması barədə fikir və mülahizələrini bölüşməsini xahiş ediblər.

Şeyxülislam A.Paşazadə Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq modelinin tarixi və müasir məqamlarına aydınlıq gətirib. Xüsusi vurğulayıb ki, tolerantlıq, etnik, dini tolerantlıq və konfessiyalararası mehriban münasibətlər Azərbaycanın həyati reallığıdır, bu bizim gündəlik həyat tərzimizdir və ölkəmizdəki dini konfessiyalar hər zaman - sevincli və kədərli günlərdə, Vətənimiz üçün mühüm məqamlarda bir yerdədirlər. 44 günlük Vətən müharibəsi dövründə bütün dini konfessiyalardan olan vətəndaşlarımızın dövlətin ətrafında sıx birləşməsi, Vətən torpağı uğrunda çiyin-çiyinə mübarizə apararaq şəhid olduqlarını xatırladan Şeyxülislam Allahşükür Paşazadə müxtəlif din və etnik daşıyıcısı olan şəhidlərimizin müqəddəs xatirəsinin hər bir azərbaycanlının qəlbində yaşadığını fəxarətlə qeyd edib.

# Astanada Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafı müzakirə olunub

Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov Qazaxıstan Prezidentinin beynəlxalq məsələlər üzrə müşaviri Yernar Lazar ilə işgüzar görüş keçirib.



AZƏRTAC xəbər verir ki, tərəflər Qazaxıstan-Azərbaycan əməkdaşlığına dair bir çox məsələni müzakirə ediblər.

Görüş zamanı energetika və bərpaolunan enerji mənbələri sahəsində birgə layihələr nəzərdən keçirilib. Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsi layihəsinin icrasının gedişinə xüsusi diqqət yetirilib.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyət, yüksəksəviyyəli səfərlərin hazırlanması və mədəni-humanitar əlaqələrin inkişafını müzakirə ediblər.

Bundan əlavə, Hökumətlərarası Komissiya da daxil olmaqla, mövcud ikitərəfli əməkdaşlıq mexanizmləri çərçivəsində aparılan fəaliyyət müzakirə mövzusu olub.

Görüş iştirakçıları Azərbaycanın "C5+1" formatında iştirakını məmnunluqla vurğulayıb, bunun regional əməkdaşlığın inkişafına əlavə təkan verəcəyinə əminlik ifadə ediblər. Tərəflər 2025-ci il 8 avqust tarixində Vaşinqtonda Azərbaycan Prezidenti ilə Ermənistanın Baş naziri arasında keçirilmiş görüşə dair imzalanmış Birgə Bəyannamənin, həmçinin sülhün bərqərar olunmasının regionda nəqliyyat-kommunikasiya əlaqələrinin açılmasına və ticarətin genişlənməsinə töhfə verəcəyinə əminliklərini bildiriblər.

# "Azərbaycan Cənubi Qafqazın gələcəyində həlledici rol oynayır"

Qlobal transformasiyanın sürətlənən prosesləri və ənənəvi təsir mərkəzlərinin yenidən nəzərdən keçirilməsi fonunda Cənubi Qafqaz beynəlxalq siyasətin mühüm qovuşuğu kimi yerini getdikcə daha inamla tutur. Region artıq yalnız münaqişələr prizmasından qəbul edilmir və getdikcə daha çox iqtisadi əməkdaşlıq, nəqliyyat inteqrasiyası, Şərq ilə Qərb arasında strateji qarşılıqlı fəaliyyətin yeni formalarının qurulması üçün imkanlar məkanı kimi nəzərdən keçirilir. Bu şəraitdə Azərbaycan artan diplomatik fəallıq nümayiş etdirir, energetika və tranzit sahələrində mövqelərini möhkəmləndirir və regional gündəliyin formalaşdırılmasına təsir göstərmək potensialına malik əsas dövlətlərdən birinə çevrilir. ABŞ və digər aparıcı qlobal aktorların Bakıya artan marağı isə Cənubi Qafqaza yanaşmalarda beynəlxalq siyasətin müstəqil və strateji əhəmiyyətli istiqamət kimi formalaşdığını göstərən daha geniş dəyişikliklərin göstəricisidir.

AZƏRTAC amerikalı ekspert, "Gulf State Analytics" mərkəzinin baş direktoru, Corctaun Universitetinin dəvətli dosenti Corco Kafyero ilə eksklüziv müsahibəni təqdim edir.



*- Azərbaycanın Cənubi Qafqazda aparıcı oyunçu kimi artan rolu kontekstində ABŞ-nin vitse-prezidentinin Bakıya səfərini necə qiymətləndirirsiniz? Vaşinqton regional sabitlik üçün Azərbaycanın strateji əhəmiyyətini qəbul edirmi?*

- Vitse-prezident Vensin Ermənistana və Azərbaycana səfəri ABŞ-nin Cənubi Qafqaz siyasətində həm nəzərəçarpacaq, həm də simvolik əhəmiyyət daşıyan mühüm hadisə oldu. Tramp administrasiyası dövründə Ağ Ev regionu Vaşinqtonun daha fəal diplomatiya və ünvanlı, praqmatik layihələr vasitəsilə təsirini genişləndirməyə hazır olduğu müstəqil strateji məkan kimi dəyərləndirməyə başlayıb.

Azərbaycan NATO-nun üzvü olmasa və formal olaraq ənənəvi Amerika təhlükəsizlik sistemlərindən kənarda qalsa da, onun ABŞ üçün strateji əhəmiyyəti getdikcə daha aydın şəkildə dərk olunur. Bu əhəmiyyət Bakının regional ticarət, energetika və nəqliyyat əlaqələrində oynadığı əsas rolla bağlıdır.

Ümumilikdə isə bu səfər Vaşinqtonun Azərbaycanı regionun aparıcı oyunçularından biri kimi tanıdığını nümayiş etdirir. Bakı ilə əməkdaşlıq ABŞ üçün beynəlxalq arenada siyasi və iqtisadi prioritetlərinin irəliədilməsi baxımından mühüm dəyər daşıyır.

*- Azərbaycan nəqliyyat, energetika və logistika dəhlizləri ideyasını fəal şəkildə irəli sürür. Bu təşəbbüslər Avropa ilə Asiya arasında dayanıqlı ticarət marşrutlarının inkişaf etdirilməsi sahəsində ABŞ-nin maraqları ilə nə dərəcədə üst-üstə düşür? Azərbaycanla münasibətlərin müsbət dinamikasının daha da möhkəmləndirilməsi üçün ABŞ hansı addımları ata bilər?*

- Azərbaycanın nəqliyyat, energetika və logistika dəhlizləri vasitəsilə regional bağlantının inkişafına yönəlmiş səyləri Avropa ilə Asiya arasında sabit və diversifikasiya olunmuş ticarət marşrutlarının formalaşdırılmasına xidmət edən ABŞ maraqları ilə böyük ölçüdə üst-üstə düşür. Orta dəhlizin və digər "Şərq-Qərb" nəqliyyat marşrutlarının möhkəmləndirilməsi Bakının region ölkələrinin asılılığının azalmasına töhfə verməsinə, eyni zamanda bu dəhlizlər boyunca yerləşən dövlətlərin, - Avropa İttifaqı üzvlərinin, Türkiyənin və Mərkəzi Asiya respublikalarının, - iqtisadi dayanıqlığının dəstəklənməsinə imkan yaradır.

TRIPP çərçivəsində həyata keçirilən layihələr, eləcə də limanlara, dəmir yollarına və logistika qovşaqlarına yatırılan investisiyalar birbaşa ABŞ-nin geoiqtisadi prioritetlərinin reallaşdırılmasına xidmət edir. Bu prioritetlər sırasında milli təhlükəsizlik və iqtisadi rəqabət qabiliyyəti baxımından getdikcə daha böyük əhəmiyyət kəsb edən kritik faydalı qazıntılara çıxış xüsusi yer tutur.

Əməkdaşlığın dərinləşdirilməsi məqsədilə Vaşinqton inkişafın maliyyələşdirilməsi alətlərindən, ixrac-kredit agentliklərindən və tərəfdaşlıq mexanizmlərindən istifadə etməklə, regional layihələrə siyasi və maliyyə dəstəyini genişləndirə bilər. Ümumilikdə, Azərbaycanın kommunikasiya gündəliyi ilə ABŞ-nin strateji prioritetləri qarşılıqlı şəkildə bir-birini tamamlayır. Əsas çağırış isə maraqların bu uyğunluğunu davamlı praktik əməkdaşlığa və ölçülə bilən nəticələrə çevirməkdən ibarətdir.

*- Sizin fikrinizcə, yaxın illərdə Cənubi Qafqazda yeni nizamın formalaşdırılmasında Azərbaycan hansı rolu oynaya bilər?*

- Regional dəhlizlərdə, infrastruktur layihələrində və iqtisadi təşəbbüslərdə mərkəzi roluna görə Azərbaycan Cənubi Qafqazın sabitləşdirilməsinə mühüm töhfə vermək üçün əlverişli mövqedədir. Geoiqtisadi qarşılıqlı asılılığı təşviq etməklə Bakı kooperativ inkişaf modelinə keçidə töhfə verə bilər.

Azərbaycanın balanslaşdırılmış xarici siyasəti, müxtəlif regional və qlobal aktorlarla qurduğu münasibətlər ona maraqlı tərəflər arasında körpü rolunu oynamaq imkanı yaradır. Qonşu ölkələrlə, o cümlədən Ermənistanla iqtisadi əməkdaşlıq genişləndikcə, Bakının sabitləşdirici qüvvə kimi potensialı daha da aydın görünəcək. Bu mənada Azərbaycanın strateji çəkisi, kommunikasiya sahəsində həyata keçirdiyi layihələrlə birlikdə, daha proqnozlaşdırıla bilən və firavan Cənubi Qafqazın formalaşmasında həlledici rol oynaya bilər.

*- TRIPP təşəbbüsünün dayanıqlılığı və reallaşdırılması üçün hansı addımlar zəruridir? Azərbaycanla Ermənistan arasında siyasi, iqtisadi və ictimai səviyyələrdə etimadın möhkəmləndirilməsi üçün nə baş verməlidir?*

- Etimadın formalaşdırılması və hərtərəfli ikitərəfli əməkdaşlığın qurulması üçün müntəzəm dialoq, birgə infrastruktur layihələri və insanlar arasında geniş təmaslar xüsusi əhəmiyyət daşıyır. Məhz bu cür təşəbbüslər ardıcıl və uzunmüddətli cəlbolunma ilə müşayiət olunduqda, möhkəm və dayanıqlı əməkdaşlıq üçün etibarlı zəmin formalaşdırır.

*- Azərbaycanın NATO ilə əməkdaşlıq səviyyəsini necə qiymətləndirirsiniz?*

- Azərbaycan Şimali Atlantika Alyansının üzvü olmasa da, o, təhlükəsizlik, hərbi modernləşmə və geosiyasi manevr sahəsində mühüm üstünlüklər təmin edən formatlarda NATO ilə əməkdaşlıq edir. Birgə təlimlərdə, hazırlıq proqramlarında və sülhməramlı missiyalarda iştirak Azərbaycanın müdafiə imkanlarını möhkəmləndirir və onun regional mövqelərini gücləndirir. Bu qarşılıqlı faydalı əməkdaşlıq Azərbaycanın xarici siyasi hədəflərinə cavab verir və eyni zamanda regionda bir sıra Qərb maraqları ilə uzlaşır.

*- 2025-ci ilin avqustunda Vaşinqtonda liderlərin görüşündən sonra Bakı ilə İrəvan arasında sülh prosesində müşahidə olunan irəliləyişi necə qiymətləndirirsiniz?*

- Ötən ilin avqustunda əldə olunan Vaşinqton razılaşmalarından sonra Cənubi Qafqazda müharibədən sonrakı əməkdaşlıq perspektivləri əhəmiyyətli dərəcədə yaxşılaşıb. Tramp administrasiyasının vasitəçilik səyləri yüksək qiymətləndirilməlidir, çünki Vaşinqton Bakı və İrəvanı hərbi qarşıdurma yolundan çəkindirərək diplomatik dialoqa yönəltməkdə əsas rol oynayıb.

# "Azərbaycanda rəqəmsallaşma sahəsində yerli qurumlarla əməkdaşlıq edəcəyik"

"Sistem Global" 30 illik təcrübəyə malikdir və 1996-cı ildən etibarən məsləhət xidməti sahəsində geniş fəaliyyət göstərir. Bakıda açılan ofis vasitəsilə şirkətimiz rəqəmsallaşma, biznesin inkişafı və müxtəlif layihələrin icrası istiqamətində yerli qurumlarla əməkdaşlıq etməyi planlaşdırırıq. Eyni zamanda Türkiyə şirkətlərinə Azərbaycan və region üzrə mövcud və perspektiv imkanlar barədə məlumat verib, yeni əməkdaşlıq platformalarının formalaşdırılmasına dəstək göstərəcəyik".



Bu barədə AZƏRTAC-a açıqlamasında "Sistem Global" şirkətinin direktoru Yuliya Çimen deyib.

O qeyd edib ki, şirkət müştəriləri ilə birlikdə qlobal miqyasda inkişaf edərək həm öz fəaliyyət marşrutunu beynəlxalq istiqamətə yönəldib, həm də qloballaşmaq istəyən şirkətlər üçün yol göstərən tərəfdaşa çevrilib. "Dünya dəyişdikcə biz də dəyişdik. Rəqəmsallaşma dövründə məsləhət xidmətlərini texnologiya ilə birləşdirərək bu gün inteqrasiya olunmuş texnologiya ekosisteminə çevrilmişik. Bu yaxınlarda Bakıda ofisimizin rəsmi açılışından sonra Azərbaycanda rəsmi fəaliyyətə başladıq", - deyə Yuliya Çimen qeyd edib.

Şirkət nümayəndəsi vurğulayıb ki, Azərbaycan bazarı şirkətin region üzrə genişlənmə strategiyasında mühüm yer tutur: "Növbəti mərhələdə Özbəkistan və Qazaxıstan başda olmaqla, digər türk dövlətlərində də fəaliyyətin genişləndirilməsi nəzərdə tutulur. "Məqsədimiz 30 illik təcrübəmizi region ölkələrinə daşımaq və ortaq dəyər yaratmaqdır", - deyə Yuliya Çimen əlavə edib.

Y.Çimen bildirib ki, şirkətin ilk xarici ofisi Londonda, ikinci ofisi isə Sinqapurda açılıb. Bir neçə ay əvvəl Bakıda onuncu ofisin istifadəyə verilməsi ilə şirkətin coğrafi əhatə dairəsi daha da genişlənib. "Beləliklə, fəaliyyət istiqamətimiz türk dövlətlərinə yönəlib. Məqsədimiz burada fəaliyyət göstərən qurum və şirkətlərlə indiyədək topladığımız təcrübəni bölüşmək, eyni zamanda Türkiyədə formalaşmış biznes ekosistemini regiondakı mövcud və gələcək imkanlarla əlaqələndirərək "ucdan-uca dəstək" göstərməkdir. "Ucdan-uca dəstək" anlayışı düzgün ehtiyacın, düzgün həllin və düzgün zamanın uzlaşdırılması, həmçinin bu prosesin kompleks şəkildə idarə olunması deməkdir. Bu çərçivədə hüquqi, vergi, biznesin inkişafı və digər idarəetmə prosesləri üzrə xidmətlər təqdim edilir", - deyə Y.Çimen vurğulayıb.

# Azərbaycanın xarici siyasətinin uğurları



## Etibarlı tərəfdaş

Bu gün Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanınması dövlətimizin yürütdüyü düşünülmüş və ardıcıl siyasətin məntiqi nəticəsidir. Ölkəmiz təkcə regionda deyil, qlobal miqyasda da sabitlik, təhlükəsizlik və əməkdaşlıq platforması kimi çıxış edir.

Azərbaycan beynəlxalq münasibətlər sistemində verdiyi sözə sadiqliyi, üzərinə götürdüyü öhdəlikləri yüksək səviyyədə yerinə yetirməsi ilə etimad qazanan dövlətdir. Ölkəmiz qarşısında duran vəzifələri hər zaman yüksək intizam və peşəkarlıqla icra edib ki, bu da ona olan beynəlxalq inamı daha da möhkəmləndirib.

Ən ümdəsi Azərbaycan hər zaman sübut edib ki, ona etimad olunan hər bir missiya, istər sülh, istər enerji, istərsə də humanitar sahədə, ən yüksək səviyyədə və ləyaqətlə yerinə yetirilir.

### "... Azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular"

Azərbaycanın Avropanın və daha geniş coğrafiyanın enerji təhlükəsizliyində oynadığı strateji rol onun etibarlı tərəfdaş imicini gücləndirir. Şaxələndirilmiş enerji marşrutları, uzunmüddətli müqavilələr və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modeli ölkəmizi qlobal enerji xəritəsində mühüm aktora çevirib. Bununla yanaşı, ölkəmizin beynəlxalq humanitar təşəbbüsləri, təbii fəlakətlər və böhranlar zamanı göstərdiyi yardımlar Azərbaycanın məsuliyyətli və etibarlı dövlət olduğuna bariz nümunələrdir. Həmçinin tolerantlığın unikal ünvanı olan ölkəmizin multikultural dəyərlərin təşviqi və sivilizasiyalararası dialoqa verdiyi töhfələr də bu qəbildəndir. Xüsusilə beynəlxalq sülh missiyalarında fəal iştirakı qlobal səviyyədə Azərbaycana olan etimadı daha da möhkəmləndirib.

Cari il fevralın 10-da Prezident İlham Əliyev və Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey.Di.Vens mətbuata bəyanatlarla çıxış ediblər. Həmin zaman bəyanatında Cey.Di.Vens də Azərbaycanın dünyada örnək olacaq etibarlı tərəfdaşlığına xüsusi vurğu edib: "Fikrimcə, bir çox amerikalı bəlkə də bilmir. Məsələn, azərbaycanlılar Əfqanıstandan çıxan ən sonuncu tərəf oldular. Onlar dünya səviyyəsində terrorçuluğa qarşı aparılan mübarizəyə çox böyük dəstək verdilər. Onlar ABŞ-nin hərbi dənizçiləri ilə Əfqanıstanda çiyin-çiyinə vuruşublar və faktiki olaraq, dünyanın istənilən yerini götürsək belə az sayda olan ən mübariz və cəsarətli qoşunlardan biri kimi nüfuz qazandılar".

ABŞ-nin vitse-prezidenti fikirlərinə əlavə edib: "Bu gün biz bu dostluğa təşəkkür əlaməti olaraq buraya gəlmək istəyirdik, sözün əsl mənasında, səhifə çevirmək və növbəti fəslə keçmək istəyirdik".

Xatırladaq ki, 2002-ci il noyabrın 20-dən Azərbaycan Ordusunun 22 nəfərlik sülhməramlı taqımı Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (ISAF) tərkibində fəaliyyət göstərməyə başlayıb.

2015-ci ilin yanvar ayının 1-dən etibarən Azərbaycan sülhməramlıları Əfqanıstanda NATO-nun başçılığı ilə həyata keçirilən "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında 6 aylıq rotasiya planına uyğun olaraq fəaliyyətə başlayıblar. İlkin mərhələdə 94 nəfərlik kontingentlə xidmətə başlayan Azərbaycan Ordusu 9 yanvar 2018-ci il tarixdən missiyaya töhfəsini artırmaq məqsədilə şəxsi heyətinin sayını 120-yə çatdırıb. Missiyanın sona çatması ilə əlaqədar, Azərbaycan Ordusunun sülhməramlı qüvvələri 27 avqust 2021-ci ildə ölkəyə geri dönüb.

Əfqanıstanda NATO-nun rəhbərlik etdiyi sülhməramlı əməliyyatlarda Azərbaycan hərbçilərinin peşəkarlıqla xidmət göstərməsi, təhlükəsizlik və sabitliyin təmininə real töhfə verməsi ölkəmizin qlobal təhlükəsizlik sistemində məsuliyyətli tərəfdaş olduğunu bir daha sübut edib.

### Qarşılıqlı maraq və iradənin nəticəsi

Azərbaycan ilə ABŞ arasında tərəfdaşlıq münasibətlərinin 33 ildən artıq tarixi var. Bu il fevralın 10-da Bakıda "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması ilə iki ölkə arasında əlaqələrdə yeni səhifə açıldı. Ancaq müstəqilliyini yenicə qazanan ölkəmizin işğal faktı ilə üzüzə qaldığı ağır dövrdə "Azadlığa Dəstək Aktı"na edilən 907-ci düzəliş kimi ədalətsiz qərar ötən dövrdə Vaşinqton-Bakı münasibətlərinə kölgə salmışdı. Bu münasibətlər Bayden-Blinken administrasiyasının fəaliyyəti dövründə siyasi böhran həddinə çatmışdı. Bayden adminstrasiyası dövründə ABŞ-nin yaxın Şərqlə, Cənubi Qafqaz regionu ilə bağlı yürütdüyü siyasət Azərbaycana qarşı xüsusi qərəzi ilə seçilmişdi. Həmin vaxt 907-ci düzəliş yenidən canlandırılmış və bundan Bakıya qarşı təzyiq və təsir mexanizmi kimi istifadə edilməyə çalışmışdı.

Amerika ilə Azərbaycan arasında ikitərəfli əlaqələr məhz Prezident Donald Trampın Ağ Evə hər iki rəhbərliyi dönəmində müsbət dinamika qazandı.

Bakıda Prezident İlham Əliyevin ABŞ-nin vitse-prezidenti Cey.Di.Vens ilə geniş tərkibdə görüşü zamanı Ağ Ev təmsilçisi iki ölkə arasında əlaqələrə zərbə vuran məqama toxundu: "Əfsuslar olsun ki, sonuncu administrasiya bir çox səhvə yol verdi. Onların yol verdikləri səhvlərdən biri Azərbaycana münasibətdə çox sərsəm siyasətin yürüdülməsi idi. Biz Prezidentin rəhbərliyi ilə bunu düzəltdik. Buna görə mən çox minnətdaram".

Ötən ilin 7-8 avqust tarixlərində Prezident İlham Əliyevin Donald Trampın rəsmi dəvəti ilə Vaşinqtona işgüzar səfəri zamanı ABŞ liderinin Ağ Evin rəmzi açarını dövlətimizin başçısına təqdim etməsi, "Azadlığa Dəstək Aktı"na edilən ədalətsiz 907-ci düzəlişdən Azərbaycan Prezidentinin iştirakı ilə oval ofisdə imtina edilməsi rəmzi məna daşıyırdı.

Cey.Di.Vens ilə geniş tərkibdə görüşdə Prezident İlham Əliyev ABŞ-Azərbaycan münasibətlərinin daha da dərinləşməsinə vurğu etdi: "Biz ölkələrimiz arasında münasibətlərə, xüsusilə son altı ayda baş verənlərə yüksək dəyər veririk. Bu müddət bizim tərəfdaşlığımız üçün tamamilə möhtəşəm olmuşdur. Son altı ayda mənim Prezident Trampla iki görüşüm olub. Bu görüşlər və sizin Azərbaycana rəsmi səfəriniz həqiqətən tərəfdaşlığımızı gücləndirmək üçün qarşılıqlı maraq və qarşılıqlı iradənin olduğunu nümayiş etdirir".

### Humanizm prinsipləri

Azərbaycan həm də münaqişə edən tərəflər arasında vasitəçilik missiyasını üzərinə götürməyə hazır olan etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz sülh təşəbbüslərini dəstəkləyir, qonşularla münasibətlərdə qarşılıqlı hörmət və etimad prinsipinə sadiq qalır, eyni zamanda ərazisindən üçüncü qüvvələrin istifadə edərək regionda yeni gərginlik ocaqları yaratmasına qətiyyətlə imkan vermir.

Qlobal problemlərin həllində fəal iştirak edən, onların dialoq yolu ilə aradan qaldırılması üçün əməli iş görən, çağırışlar edən Azərbaycan həm də ehtiyacı olan ölkələrə maliyyə və humanitar yardımlar göstərməsi ilə diqqət çəkir.

Ölkəmiz pandemiya dövründə 100-ə yaxın ölkəyə humanitar kömək edib. Həmin çətin dövrdə Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olan 80-dən çox ölkəyə koronavirusla bağlı ya ikitərəfli kanallar, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə maliyyə və humanitar yardım göstərib. Azərbaycan tərəfindən Afrika qitəsi ölkələrinə çoxtərəfli və ikitərəfli əsasda müxtəlif zamanlarda humanitar və inkişafa yardım xarakterli yardımlar göstərilib.

Humanizm prinsiplərinə söykənərək dünyanın bir çox ölkəsinə humanitar yardımlar göstərən Azərbaycan Ukraynada yaranmış son vəziyyətlə əlaqədar Ukrayna xalqına da mütəmadi olaraq humanitar yardımlar göndərir.

Bütün bunlar göstərir ki, Azərbaycan bu gün yalnız regional güc deyil, həm də qlobal miqyasda etimad göstərilən, sözü ilə əməli üst-üstə düşən məsuliyyətli dövlətdir. Ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi qazandığı nüfuzu konkret fəaliyyətləri, ardıcıl siyasəti və prinsipial mövqeyi ilə möhkəmləndirib.

Sülh missiyalarında nümayiş olunan peşəkarlıq, enerji təhlükəsizliyinə verilən davamlı töhfə və humanitar təşəbbüslərdə göstərilən fəallıq Azərbaycanın etimadı doğrultmaq bacarığını praktik şəkildə təsdiqləyir. Bu gün dünya birliyi yaxşı bilir ki, Azərbaycanla qurulan əməkdaşlıq uzunmüddətli, qarşılıqlı hörmətə və real nəticələrə əsaslanır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ukrayna mediası ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfərinə geniş yer ayırıb




ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin Azərbaycana səfəri Ukrayna mediasında geniş işıqlandırılıb.




AZƏRTAC-ın məlumatına görə, səfər zamanı iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ vitse-prezidenti Cey.Di.Venslə mətbuata birgə bəyanatı zamanı səsləndirilən fikirlər "Ukrinform" dövlət informasiya agentliyində, "Korrespondent", "Azadlıq" radiosunun Ukrayna redaksiyası, "Yevropeyska Pravda" və digər nəşrlərdə geniş yer alıb.




Məqalələrdə bildirilir ki, səfər zamanı iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası ilk dəfə ötən ilin avqust ayında Vaşinqtonda Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında danışıqlar zamanı təqdim edilib.

## ABŞ enerji sahəsində Azərbaycan ilə əməkdaşlığı artırmaq niyyətindədir



ABŞ Azərbaycanın regionda həyata keçirdiyi enerji layihələrini dəstəkləmək, təhlükəsizliyini təmin etmək, sərmayə yatırmaq və bu sahədə qarşılıqlı, faydalı əməkdaşlıq etmək niyyətində olduğunu bildirir. Bununla yanaşı, rəsmi Vaşinqton regionun enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın etibarlı tərəfdaş kimi strateji rolunu qeyd edib.

AZƏRTAC xəbər verir ki, bu, xüsusilə Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyasının mətnində öz əksini tapıb.

Sənəddə deyilir ki, enerji təhlükəsizliyində etibarlı tərəfdaş kimi Azərbaycanın strateji əhəmiyyətini tanıyaraq, Azərbaycan və ABŞ neft, qaz və elektroenergetika sektorları da daxil olmaqla enerji əməkdaşlığını genişləndirmək niyyətindədir. Tərəflər interkonnektorlar üzrə birgə layihələr, tədarük marşrutlarının şaxələndirilməsi və mülki nüvə energetikası sahəsində əməkdaşlığın dərinləşdirilməsini planlaşdırırlar.

Fevralın 10-da ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin Azərbaycana səfəri çərçivəsində tərəflər arasında imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya"da deyilir: "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları Trans-Xəzər Nəqliyyat Dəhlizini (Orta Dəhliz) əsas götürərək quru, dəniz və hava nəqliyyatı infrastrukturunun inkişafı; enerji və data bağlantısı; ticarət və tranzitin asanlaşdırılması; gömrük nəzarəti və sərhəd keçidi; beynəlxalq multimodal logistika; və digər əlaqəli sahələrdə əməkdaşlıq yolu ilə regional bağlantıları təşviq etmək üçün birgə işləmək niyyətindədirlər".

Məsələnin mahiyyəti ondan ibarətdir ki, Azərbaycan və Mərkəzi Asiya respublikaları Trans-Xəzər Nəqliyyat Dəhlizindən (Orta Dəhliz) yalnız yük daşımaq üçün deyil, eyni zamanda Avropaya enerji ixracı üçün də istifadə etmək istəyirlər. Bildiyimiz kimi, Azərbaycan ilə Mərkəzi Asiya respublikaları "Yaşıl Enerji Dəhlizi" layihəsi üzərində iş aparırlar. Layihəyə əsasən, bu respublikalarda və Azərbaycanda istehsal olunan alternativ enerji Xəzər dənizinin dibi ilə çəkiləcək kabel xətti ilə Qara dənizə və oradan da Avropaya ixrac olunacaq. Bununla yanaşı, Trans-Xəzər Boru Kəməri layihəsi də var ki, Mərkəzi Asiyada hasil olunan neft və qaz da bu kəmər vasitəsilə enerji resurslarını Avropaya ixrac etmək istəyir. Lakin geosiyasi maraqlar ucbatından bu layihə hələlik icra olunmur. Xartiyada enerji sahəsində əməkdaşlıq niyyətinin vurğulanması bu layihələrin həyata keçməsini sürətləndirəcəyini deməyə əsas verir. ABŞ bu layihələrə sərmayə yatırmaqla yanaşı, onların təhlükəsizliyinin təmin olunmasında da qarant rolunda çıxış edəcək.

## Prezident İlham Əliyevin qətiyyəti ilə dəyişən reallıqlar

### Sorosçuları artıq investorlar əvəzləyib

Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana səfəri çərçivəsində Prezident İlham Əliyevlə geniş tərkibli görüşdə əvvəlki Vaşinqton administrasiyasının xarici siyasət kursunu ciddi tənqid etməsi, xüsusən ölkəmizə münasibətdə səhvlərə yol verildiyi və sərsəm siyasət yürütdüyünü bəyan etməsi ABŞ və Azərbaycan arasında xalqların və dövlətlərin maraqlarının və mənafelərinin tam şəkildə təmin olunduğunun yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu göstərməkdədir.



Demokratların hakimiyyəti dövründə ABŞ ilə Azərbaycan arasında münasibətlər tarixinin ən mürəkkəb dövrünü yaşamış, Prezident İlham Əliyevin təbirincə desək, Bakı və Vaşinqton arasında əlaqələr tamamilə sıfırlanmışdı.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, xüsusən Bayden-Blinken administrasiyasının ölkəmizlə münasibətlərini Azərbaycan-Ermənistan və ABŞ-Ermənistan prizmasından dəyərləndirməsi, Azərbaycan və Ermənistan arasında gərginliyə özünün maraqlarının təmini üsulu kimi baxaraq açıq şəkildə İrəvanın işğal və təcavüzə əsaslanan siyasətini müdafiə etməsi, habelə hər vəchlə separatizmin ayaqda saxlanılmasına çalışması gərginliyi son həddə çatdırmış, nəticə etibarilə ABŞ-nin Cənubi Qafqazdakı maraqlarına tarixin heç bir dövründə olmadığı qədər mənfi təsir göstərmişdi. Lakin demokratlar iqtidarı proseslərin gedişindən nəticə çıxarmamış, hətta antiterror əməliyyatları zamanı Dövlət Departamenti və aidiyyəti strukturlar, o cümlədən Amerikanın hökumət strukturlarına bağlı ayrı-ayrı institutları separatizmin dəstəkçisi qismində Azərbaycan üzərinə total hücumlar təşkil etmiş, xüsusən insan haqları pərdəsi altında çalışan müxtəlif təsisatlar ölkəmizin qlobal imicinin korlanması istiqamətində sistemli fəaliyyətə baş vurmuşdular. "Azərbaycanda hakimiyyətdə milli iradənin təmsil olunması, o cümlədən hərbi-siyasi qələbələrlə yaranan yeni reallığın situasiyanı nəinki bu coğrafiyada, bütövlükdə regionda ölkəmizin lehinə dəyişməsi ABŞ-dən, daha konkret desək, Soros iqtidarından Azərbaycana yönəlik çoxsaylı və sistemli hücumları neytrallaşdıra bildi. ABŞ-də prezident seçkilərində respublikaçıların iqtidara gəlməsi və Prezident Trampın prosesləri, o cümlədən də Vaşinqtonun Cənubi Qafqazdakı real durumunu praqmatik formada təhlil etməyi bacarması Cey.Di.Vensin də Bakıdan tənqid etdiyi ABŞ xarici siyasət kursunun köklü şəkildə dəyişilməsi ilə nəticələndi. Donald Tramp hakimiyyətə gəldikdən sonra ABŞ-nin Cənubi Qafqaz siyasətinə xüsusi diqqət yetirməyə, ələlxüsus Azərbaycanla ABŞ arasında münasibətlərin yenidən nəzərdən keçirilməsinə haqlı olaraq ehtiyac duydu. Proseslərin təhlili və Amerikanın Cənubi Qafqazdakı maraqlarının yalnız Azərbaycanla bərabərhüquqlu əməkdaşlıq şəraitində daha effektiv formada təmin olunacağını proqnozlaşdırmaq üçün isə cənab Trampa uzun bir dövr lazım olmadı. Nəticə etibarilə qarşılıqlı olaraq arzuolunan ritorikaya üstünlük verilməsi, xüsusən Trampın özünün sosial media hesablarında və müxtəlif platformalardakı çıxışlarında Azərbaycan liderinin ünvanına müsbət fikirlərini bölüşməsi Vaşinqtonla Bakı arasında münasibətləri 8 avqust mərhələsinə daşıdı", - deyə o əlavə edib.

Deputat xatırladıb ki, ötən il avqustun 8-də Prezident İlham Əliyevin Trampın dəvəti ilə Vaşinqtona səfəri çərçivəsində iki ölkə arasında əldə olunan razılaşma və imzalanan Bəyanat uzunmüddətli boşluqdan və dövlət başçımızın təbirincə desək, sıfırlanan münasibətdən intensiv inkişaf edən səviyyəyə qədəm qoydu. Vaşinqton təmasları çərçivəsində iki ölkə arasında strateji tərəfdaşlıqla bağlı niyyətin ifadə olunması, aidiyyəti sənədin mətninin və konseptual istiqamətlərin hazırlanması üçün işçi qrupunun yaradılması, əslində, yeni dövrdə ABŞ-Azərbaycan münasibətlərinin yol xəritəsinin müəyyənləşməsi üçün önəmli niyyət ifadəsi oldu. ABŞ vitse-prezidentinin Bakıya səfəri və Prezident İlham Əliyevlə məhdud və geniş tərkibli görüşlərdə, həmçinin mətbuat üçün bəyanatda ifadə etdiyi mövqeyi, əslində, ötən ilin avqustundan Bakı və Vaşinqton arasında başlanan marafonun məntiqi sonu və münasibətlər üçün yeni dövrün başlaması hesab edilə bilər.

B.Məhərrəmov qeyd edib ki, səfər çərçivəsində "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanması, tərəflərin münasibətlərin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərin toxunulmazlığını dəstəklədiklərini bir daha bəyan etməsi, əməkdaşlığın yalnız və yalnız qarşılıqlı hörmət, maraq və ortaq fayda doğuran sahələrdə davam etdirilməsinin zərurətinə istinad olunması münasibətlərin bütün dövründə Bakının öz arqumentlərində nə qədər haqlı olduğunu bir daha ortaya çıxardı: "Heç şübhəsiz ki, Vaşinqtonun Strateji Tərəfdaşlıq haqqında Xartiyanı imzalaması, üstəlik, bu sənədin işləkliyinin təmin olunması istiqamətində dayanıqlı mexanizm axtarması, o cümlədən strateji tərəfdaşlığın və genişləndirilmiş əməkdaşlığın planlaşdırılması və həyata keçirilməsinə yalnız dövlət qurumlarının deyil, həm də iki ölkənin özəl sektorlarının cəlb edilməsinin əhəmiyyətinə diqqət ayırması, sənədin bazisinin və praktik imkanlarının gücləndirilməsi Azərbaycanın öz mövqeyində haqlı olduğunun Vaşinqtonda da qəbul edildiyini göstərdi. Proseslərin gedişində bir daha şahidlik etməkdəyik ki, əhali sayı və ərazi ölçüsü ilə dünyada xüsusi bir göstəriciyə malik olmayan Azərbaycanın ən böyük üstünlüyü onun Liderinin vizyonudur", - deyə o əlavə edib.

Deputat bildirib ki, beynəlxalq hüququn işlək olmadığı bir dövrdə hərbi-siyasi zəfərimizlə yaranan yeni konfiqurasiya da, çoxvektorlu xarici siyasət kursunun uğurları da bunu bir daha sübut edir: "Bu məsələlərin mahiyyətinin dərk olunması üçün ən yaxşı əmsal - ABŞ-Azərbaycan münasibətlərinin inkişaf tendensiyasıdır. Sirr deyil ki, cəmi iki il əvvələ qədər Vaşinqton bölgəyə sağlam nəzərlərlə baxmırdı, Bayden-Blinken administrasiyasının Azərbaycanla bağlı siyasəti daha çox insan haqları pərdəsi altında rəngli inqilabların dəstəklənməsi, Ermənistanla münaqişənin yenidən alovlanması, separatizmin ömrünün uzadılması kimi məsələləri əhatələyirdi. Prezident İlham Əliyev nəinki bu proseslərdə geri çəkilmədi, üstəlik, separatizmə son qoymaqla, zəfərin nəticələrini qlobal miqyasda qəbul etdirməklə tam yeni bir dövrün başlanması üçün zəmin yaratdı. Demokratları hakimiyyətdə əvəzləyən Tramp isə kifayət qədər praqmatik baxışlı lider kimi bu reallıqların fərqinə vardı, xüsusən ötən ilin avqustunda cənab İlham Əliyevin Vaşinqtona tarixi səfərinin ardınca ABŞ-Azərbaycan münasibətləri tarixinin ən uğurlu mərhələsinə qədəm qoydu. Nəticə isə göz önündədir".

Dünyanın birnömrəli gücünün Azərbaycanın yaratdığı reallıqlara regionun təhlükəsizliyinin formulu kimi baxdığını deyən B.Məhərrəmov qeyd edib ki, Donald Tramp son yarım ildə 15 dəfə istər sosial media, istərsə də müxtəlif platformalarda çıxışlarında Prezident İlham Əliyevin liderlik məziyyətlərindən və uğurlarından xüsusi bəhs edib: "Münasibətlərin çox fəal inkişaf etdiyi vacib bir vaxtda ABŞ vitse-prezidentinin Bakıya səfəri, o cümlədən iki gün öncə möhtərəm Prezidentin ABŞ Ticarət Palatasının vitse-prezidentinin başçılıq etdiyi və 30-dan artıq şirkətin nümayəndəsinin daxil olduğu geniş bir heyəti qəbul etməsi Azərbaycan liderinin təşəbbüsləri və qətiyyəti ilə dəyişən reallıqların bariz nümunəsidir. Cənab İlham Əliyev elə bir konfiqurasiya formalaşdırıb ki, bu gün artıq okeanın o tayından Bakıya gələn və Soros ideyaları ilə Azərbaycan cəmiyyətini zəhərləməyi hədəfləyən qalstuklu missionerləri enerji, texnologiya, qida məhsulları və nəqliyyat sahələrini təmsil edən böyük investorlar əvəzləyib. Laçın sərhəd keçid məntəqəsindən Azərbaycana binoklla düşməncəsinə baxan Samanta Pauerin də, rəhbərlik etdiyi USAID-in də, Senatda Azərbaycan əleyhinə tragikomediyaların baş rolunu oynayan Menendezin də izi artıq ABŞ səhnəsindən tam silinib. Bu, yalnız ABŞ-nin dəyişən siyasəti deyil, cənab İlham Əliyevin dəyişdirməyə, yaxud daha doğru desək, yenidən yaratmağa nail olduğu konfiqurasiyadır".

Deputat vurğulayıb ki, ABŞ Prezidentinin ardınca Ceyms Devid Vensin də Prezident İlham Əliyevin personasına xüsusi diqqət göstərməsi, ikitərəfli münasibətlərdə bu amilin xüsusi rol oynadığını qeyd etməsi də bunu bir daha sübut edir: "Hazırda isə ABŞ və Azərbaycan münasibətləri artıq özünün yeni dövrünü yaşamaqdadır. Məlumdur ki, imzalanan xartiyaya müvafiq olaraq, aidiyyəti işçi qrupları yaxın 3 ay ərzində qarşılıqlı enerji, nəqliyyat, rəqəmsal infrastruktur, habelə təhlükəsizlik sferalarını əhatə edəcək çoxsaylı layihələrin siyahısının, onların həyata keçirilməsi üçün yol xəritələrinin razılaşdırılması prosesinə start verib. Eyni zamanda tərəflər ildə ən azı bir dəfə müntəzəm olaraq yüksəksəviyyəli görüşlərin keçirilməsi, tərəfdaşlığın realizəsi üçün zəruri olan və qarşılıqlı surətdə müəyyən edilmiş digər dialoq platformalarının yaradılmasını hədəfləyən bir formatın üzərində işləyir ki, bu da ötən dövr ərzində itirilmiş zaman və buraxılmış imkanların bərpasını tezliklə təmin etməyə imkan verəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Prezident Azərbaycanın yeni inkişaf istiqamətini bəyan etdi

## "Rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir"

**Son illər Azərbaycanda elektron hökumət xidmətlərinin genişləndirilməsi, rəqəmsal infrastrukturun, innovasiya və startap ekosisteminin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Dövlət proqramları və strategiyalar çərçivəsində həyata keçirilən layihələr vətəndaş məmnunluğunun artırılmasına, şəffaflığın təmin olunmasına və iqtisadi səmərənin yüksəldilməsinə xidmət edir. Ona görə də rəqəmsallaşma prosesinin uğurla həyata keçirilməsi yalnız ayrı-ayrı texnoloji mexanizmlərin tətbiqindən ibarət olmamalıdır. Bu proses sistemli, koordinasiyalı və vahid strategiya əsasında qurulmalıdır.**

Məhz bu baxımdan indi rəqəmsal xidmətlərin vahid mərkəzdən idarə olunması və təqdim edilməsi xüsusi aktuallıq kəsb edir. Dövlət xidmətlərinin inteqrasiya olunmuş platforma üzərindən təqdim edilməsi həm idarəetmədə çevikliyi artırır, həm də vətəndaş məmnunluğunu yüksəldir. Vətəndaş üçün əsas meyar xidmətlərin sadə, sürətli və bir məkanda əlçatan olmasıdır. Bu yanaşma ölkə rəhbərliyi tərəfindən də prioritet istiqamət kimi müəyyən edilib. Prezident İlham Əliyev "Azərbaycanın yeni rəqəmsal arxitekturası" adlı vahid fəaliyyət planına həsr olunmuş müşavirədə məsələ ilə bağlı qeyd edib: "Son illər ərzində müxtəlif dövlət qurumları - nazirliklər və digər dövlət qurumları tərəfindən müxtəlif platforma və tətbiqlər işlənib hazırlanmışdır. Bu işin artıq koordinasiya şəklində aparılması üçün hesab edirəm ki, buna da ehtiyac olmayacaq və yaradılmış platforma və tətbiqlər tədricən ləğv edilməlidir, hansı müddət ərzində, onu indi mənə təkliflər təqdim edildə təklif edərsiniz. Dövlət xidmətləri "Mygov" üzərindən həyata keçirilməlidir - yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir".

Qeyd edək ki, rəqəmsallaşma ani baş verən dəyişim deyil, mərhələlərlə irəliləyən bir inkişaf yoludur. Bu gün Azərbaycan dünyanın artıq keçdiyi həmin yolu addım-addım qət edir. İlk mərhələ kağız üzərindəki sənəd və arxivlərin rəqəmsal mühitə ötürülməsidir. Bu, rəqəmsal dönüşümün təməlini təşkil edən vacib başlanğıcdır. Növbəti mərhələ isə xidmət və proseslərin rəqəmsallaşdırılmasıdır. Artıq bu istiqamətdə həm dövlət qurumları, həm də özəl sektor ciddi irəliləyişlər əldə edib. Onlayn xidmətlər, elektron müraciətlər, avtomatlaşdırılmış sistemlər gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu dəyişimlər vətəndaşlara vaxta qənaət etməyə, daha şəffaf və rahat xidmətlərdən istifadəyə imkan yaradır.

Lakin rəqəmsallaşmanın son və ən mühüm hədəfi bununla məhdudlaşmır. Qarşıda duran əsas məqsəd "ağıllı" və proaktiv xidmətlərin formalaşdırılmasıdır. Bu, dövlət xidmətlərinin vətəndaş müraciət etmədən, ehtiyac yaranan anda avtomatik təqdim edilməsidir. Bu gün ökədə rəqəmsal inkişafın əsas dayaqlarından olan infrastrukturun genişləndirilməsi istiqamətində də mühüm nəticələr əldə edilib. "Onlayn Azərbaycan" layihəsi uğurla başa çatdırılıb və ölkə üzrə genişzolaqlı internet şəbəkəsi əhəmiyyətli dərəcədə gücləndirilib. Bir müddət əvvələ qədər ölkədə internetin orta sürəti təxminən 12 Mbit/s idisə, hazırda bu göstərici 90 Mbit/s-ə yüksəlib. Dövlətə məxsus şirkətlərdə isə internetin sürəti artıq 150 Mbit/s səviyyəsinə çatıb. İlin sonunadək bu göstəricinin 200 Mbit/s-ə yüksələcəyi nəzərdə tutulur. Ən mühüm məqamlardan biri isə odur ki, hazırda Azərbaycanın, demək olar, bütün yaşayış məntəqələri genişzolaqlı internetlə təmin edilib və ölkənin heç bir ucqar nöqtəsi rəqəmsal şəbəkədən kənarda qalmayıb.

Rəqəmsallaşmadan danışarkən data mərkəzindən, yəni "dövlət cloudu"ndan yan keçmək olmaz. Xatırladaq ki, "cloudu" sözü bulud deməkdir. "Dövlət buludu" rəqəmsal idarəetmənin əsas sütunlarından biri kimi çıxış edir. Bu model dövlət qurumlarının informasiya sistemlərinin və məlumat bazalarının vahid, təhlükəsiz və mərkəzləşdirilmiş platformada yerləşdirilməsini nəzərdə tutur. Nəticədə məlumatların saxlanması, emalı və mühafizəsi daha etibarlı həyata keçirilir və resurslardan səmərəli istifadə təmin olunur. "Dövlət buludu" infrastrukturu qurumlar arasında məlumat mübadiləsini sürətləndirir, texniki xərcləri azaldır və kibertəhlükəsizlik səviyyəsini gücləndirir.

Rəqəmsal infrastrukturun möhkəmləndirilməsi və xidmətlərin mərkəzləşdirilməsi istiqamətində atılan addımlar artıq konkret nəticələrlə müşayiət olunur. Bu kontekstdə həm "dövlət buludu"nun formalaşdırılması, həm də SİMA kimi innovativ mexanizmlərin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Sözügedən müşavirədə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bu məsələ haqqında deyib: "Ölkənin data mərkəzi, yəni "dövlət cloudu" tam şəkildə qurulub. Ehtiyat və əsas olmaqla Bakı və Yevlax şəhərlərində biz prosesə başladıqda təxminən 50 dövlət müəssisəsi burada öz rəqəmsal ehtiyatlarını yerləşdirirdisə, artıq bu gün bu rəqəm 270-ə çatdırılmışdır. SİMA Biometrik İmzanın təqdim edilməsi ilə 4 milyon istifadəçi artıq son üç il ərzində bu imzadan istifadə edir. SİMAnın təqdim edilməsi dövlət xidmətləri ilə yanaşı, özəl şirkətlərin, xüsusilə də bankların işini bir xeyli asanlaşdırmışdır. Misal olaraq qeyd edim ki, bu gün bizim vətəndaşlarımız bankda hər hansı bir depozit hesabın açılması və yaxud da artırılmasını - istənilən bank əməliyyatlarını banka getmədən aplikasiyalar üzərindən tam şəkildə həyata keçirə bilirlər".

Bu fikir rəqəmsal transformasiyanın növbəti mərhələsində əsas istiqamətin inteqrasiya və mərkəzləşmə olacağını açıq göstərir. "Mygov" platformasının vahid giriş nöqtəsi kimi formalaşdırılması dövlət idarəçiliyində şəffaflığın artırılmasına, məlumat mübadiləsinin sürətlənməsinə və xidmətin keyfiyyətinin yüksəldilməsinə imkan verəcək. Üstəlik, bu yanaşma rəqəmsal resursların daha səmərəli idarə olunmasına və texnoloji standartların bir-birinə uyğunlaşdırılmasına şərait yaradacaq. "Dövlət xidmətləri "mygov" üzərindən həyata keçirilməlidir, yəni vahid mərkəzdən. Hər kəs bunu bilməlidir - həm dövlət qurumları, həm vətəndaşlar. Bu, vətəndaşlar üçün də çox böyük üstünlük təmin edəcək. Vətəndaşa lazım olan bütün xidmətlər bir ünvandan göstərilməlidir", - deyə Prezident İlham Əliyev ölkədə rəqəmsal xidmətlərin inteqrasiyasının vacibliyini vurğulayıb.

Qeyd edək ki, "Mygov" platforması artıq yeni fəlsəfə və yanaşma ilə Azərbaycan vətəndaşlarının xidmətinə təqdim edilib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi təkcə 2025-ci ildə təxminən 1,3 milyon yeni istifadəçini "Mygov"a cəlb edib. Ötən ilin sonunda bu göstərici 2,2 milyon nəfər idisə, bu il yanvarın sonuna təxminən 2,5 milyon nəfərə çatıb. "İstifadəçi" dedikdə ay ərzində ən azı bir dəfə platformadan faydalanan vətəndaş nəzərdə tutulur. Nazirlik ilin sonuna qədər bu rəqəmin təxminən 5 milyona çatdırılmasını planlaşdırır.

Rəqəmsallaşma yalnız dövlət və biznes proseslərinin elektronlaşdırılması ilə məhdudlaşmır. O, məlumatların idarə olunması, analiz edilməsi və qərar qəbuletmənin səmərəsini artırmaq üçün yeni imkanlar yaradır. Süni intellekt isə bu imkanları bir addım irəli apararaq böyük məlumat bazalarını sürətlə işləyir, proqnozlar verir və xidmətlərin daha səmərəli, fərdi şəkildə təqdim olunmasına yol açır. Azərbaycanın rəqəmsal infrastrukturu, data mərkəzləri və "Mygov" kimi platformaları süni intellekt texnologiyalarının tətbiqi üçün güclü baza rolunu oynayır və ölkəni texnoloji sahədə rəqabətqabiliyyətli edir.

Bu mənada Prezidentin müşavirədə söylədiyi fikirlər süni intellektin strateji əhəmiyyətinin dövlət idarəçiliyində nə qədər böyük və önəmli olduğunu açıq ortaya qoyur: "Süni intellektin tətbiqi dövlət qurumlarında geniş vüsət almalıdır. Bu gün bu sahədə aparıcı ölkələrdə bu belədir. Hətta mənə verilən məlumata görə, bu sahədə inkişaf etmiş bəzi ölkələrdə dövlət məmurlarının gündəlik fəaliyyətinə də süni intellekt agentləri, - belə adlandırılır, - kömək göstərir. Çünki burada hər hansı bir qərarın düzgün olub-olmaması ilə bağlı süni intellekt təbii ki, yardımçı ola bilər. Ona görə bu sistemə də baxmaq lazımdır və rəhbər orqanlarında təmsil olunan şəxslər süni intellektdən geniş istifadə etməlidirlər" .

Bütün bunlar əsas verir deyək ki, Azərbaycanın rəqəmsallaşma strategiyası son illər sürətlə inkişaf edib. "Mygov" platforması, "dövlət buludu" və SİMA kimi innovativ layihələr vətəndaşlara xidmətin mərkəzləşdirilməsi, sürətli və şəffaf təqdim olunması baxımından əhəmiyyətli hadisədir. Rəqəmsal infrastrukturun gücləndirilməsi, data mərkəzlərinin və genişzolaqlı internet şəbəkəsinin formalaşdırılması ölkəmizi texnoloji baxımdan gücləndirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan ilə ABŞ arasında səhiyyə sahəsində əməkdaşlıq üçün geniş imkanlar var

ABŞ-nin vitse-prezidenti Cey.Di.Vensin fevral ayında respublikamıza etdiyi rəsmi səfər iki dövlət arasında əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdi. Prezident İlham Əliyevlə Cey.Di.Vens arasında keçirilən görüş, mətbuata verilən bəyanatlar və Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması göstərdi ki, həm Bakı, həm də Vaşinqton əlaqələrin daha da genişləndirilməsində maraqlıdır.

Cey.Di.Vensin respublikamıza səfəri təsdiqləyir ki, Prezident İlham Əliyevin ötən ilin avqust ayında Vaşinqtonda Prezident Donald Trampla görüşü zamanı iki dövlət arasında əlaqələrin inkişafı istiqamətində qarşıya qoyulan vəzifələr sürətlə yerinə yetirilir. Əsas məqamlardan biri də budur ki, ABŞ Azərbaycanın regiondakı aparıcı mövqeyini, qlobal proseslərdəki fəal iştirakını yüksək qiymətləndirir və ölkəmizi özünün güclü tərəfdaşı kimi görür.

Fevralın 10-da Bakıda Prezident İlham Əliyev və vitse-prezident Cey.Di.Vens tərəfindən "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası" imzalandı. Bu sənəd iki dövlət arasında əməkdaşlıqla bağlı bir çox mühüm sahəni əhatə etməklə Azərbaycan-ABŞ tərəfdaşlığını tamamilə yeni mərhələyə yüksəldir.

Azərbaycanla ABŞ arasında səhiyyə sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün imkanlar böyükdür. ABŞ tərəfi güclü səhiyyə potensialına malikdir. Azərbaycanda da səhiyyə sferası ən müasir çağırışlara uyğunlaşdırılıb, hər bir vətəndaşa ən yüksək səviyyədə tibbi xidmət göstərilir. O cümlədən ölkəmizdə mükəmməl icbari tibbi sığorta sistemi formalaşdırılıb. Bütün bunlar Azərbaycanla ABŞ arasında səhiyyə sahəsində əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş imkanlar açır.

Bu günlərdə Azərbaycanın səhiyyə naziri Teymur Musayevin ölkəmizdə səfərdə olan ABŞ-nin Ticarət Palatasının üzvləri ilə görüşündə də bu məsələ müzakirə olunub. Görüş zamanı Azərbaycanla ABŞ arasında səhiyyə sahəsində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər səhiyyə sisteminin modernləşdirilməsi, innovativ tibbi texnologiyaların tətbiqi, əczaçılıq sənayesində və tibb təhsili istiqamətində əməkdaşlıq məsələlərinə toxunublar. Qonaqlara Azərbaycan Prezidentinin rəhbərliyi altında ölkəmizdə səhiyyə sahəsində həyata keçirilən islahatlar, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səhiyyə sahəsində insan kapitalının gücləndirilməsi və rəqəmsallaşdırma istiqamətində görü-



lən işlər barədə məlumat verilib. Beynəlxalq tərəfdaşlarla, o cümlədən ABŞ şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

ABŞ Ticarət Palatasının Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cenifer Mil Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını bildirib. O, səhiyyə və əczaçılıq sahələrində ABŞ şirkətlərinin təcrübə və texnologiyalarının paylaşılmasının mümkünlüyünü qeyd edib.

Səhiyyə Nazirliyində ötən ilin dekabrında ABŞ-nin Azərbaycandakı müvəqqəti işlər vəkili ilə görüşdə də tibb təhsili, həkimlərin təkmilləşdirilməsi, səhiyyə idarəçiliyi sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyi müzakirə olunub, ABŞ-nin Azərbaycanla səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğu bildirilib.

Əlbəttə, səhiyyə sahəsində əməkdaşlıq yalnız texniki və tibbi xidmətlə məhdudlaşmır. Bu əməkdaşlıq daha geniş geosiyasi və iqtisadi motivləri özündə ehtiva edir. Bu əməkdaşlıq fonunda səhiyyə sahəsi həm də diplomatiya və siyasi etimad quruculuğu aləti kimi çıxış edir. Texnologiya və təhsil mübadiləsi, doktorantların və mütəxəssislərin təcrübə mübadiləsi kimi əməkdaşlıq istiqamətləri qarşılıqlı anlaşma və tərəfdaşlıq mühitini daha da möhkəmləndirir.

Beləliklə, Azərbaycan-ABŞ münasibətləri səhiyyə sahəsində də praqmatik və strateji müstəviyə keçməkdədir. Bu, təkcə tibbi texnologiyaların transferi və səhiyyənin digər sferalarını deyil, həm də iki ölkənin uzunmüddətli siyasi və iqtisadi münasibətlərinin yeni bir komponenti kimi çıxış edir.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

# Dövlətlərin inkişafı həm də rəqəmsal infrastrukturun səviyyəsi ilə ölçülür

Fevralın 11-də təqdim olunan "Azərbaycanın yeni rəqəmsal arxitekturası" gələcəyin idarəetmə və iqtisadi modeli kimi qiymətləndirilə bilər. Rəqəmsal transformasiya artıq strateji zərurət, rəqəmsal arxitektura isə ölkənin iqtisadi, siyasi və texnoloji gələcəyini formalaşdıracaq əsas yol xəritəsidir.

Milli Məclisin deputatı Nigar Məmmədova "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, müasir dünyada dövlətlərin gücü həm də rəqəmsal infrastrukturun səviyyəsi və innovasiya potensialı ilə müəyyən olunur. Bu baxımdan "Azərbaycanın yeni rəqəmsal arxitekturası"na ölkənin uzunmüddətli inkişaf strategiyası kimi baxa bilərik. "Plan dövlət idarəçiliyinin modernləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi və texnoloji infrastrukturun yenilənməsini hədəfləyir. Fəaliyyət planına həsr olunmuş müşavirədə cənab Prezidentin də söylədiyi kimi, bizim bir çox üstünlüyümüz var. Onlardan biri bizim coğrafi vəziyyətimizdir. Yəni ölkəmizin Asiya ilə Avropa arasında, "Şimal-Cənub" dəhlizi üzərində yerləşməsi yaradılmış mövcud infrastruktur üstünlüyümüzü təmin edir. Burada iqtisadi baxımdan strateji üstünlüklərə nəzər salsaq, enerji asılılığının azaldılmasını və qeyri-neft sektorunun inkişafını qeyd edə bilərik. Belə ki, rəqəmsal iqtisadiyyatın genişlənməsi ilk növbədə bu məqsədə çatmaq üçün effektiv vasitə hesab olunur", - deyə o əlavə edib.



Deputat deyib ki, elektron ticarət, rəqəmsal ödəniş sistemləri, startap ekosisteminin gücləndirilməsi yeni iş yerlərinin yaranmasına və yüksək əlavə dəyər yaradan sahələrin inkişafına şərait yaradır. Bu, uzunmüddətli proses olduğundan gələcəkdə bu sahədə milli kadrlara böyük ehtiyac duyulacaq. Bu səbəbdən orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir.

N.Məmmədova qeyd edib ki, beynəlxalq təcrübəyə əsasən, proseslərin rəqəmsallaşdırılması biznes mühitini sadələşdirdiyini, prosedurları sürətləndirdiyini deyə bilərik: "Bu isə investorlar üçün daha cəlbedici mühit formalaşdırır. Yeri gəlmişkən, data mərkəzləri, rəqəmsallaşma, süni intellekt və bu sahədəki Amerika şirkətləri ilə sıx əlaqələr artıq qurulub. Prezident İlham Əliyev bu əlaqələri də Azərbaycanın əsas üstünlüklərindən biri kimi dəyərləndirib".

Deputatın fikrincə, bu fəaliyyət planı dövlət idarəçiliyində effektivliyin və şəffaflığın artırılmasına birbaşa təsir edəcək. Burada çeviklik ön plandadır. Belə ki, vahid rəqəmsal platformalar üzərindən məlumat mübadiləsi qərarvermə prosesini sürətləndirir və insan faktorundan qaynaqlanan riskləri azaldır. Milli məlumatların qorunması və kibertəhlükəsizliyin gücləndirilməsi prioritetə çevrilir. "Cənab Prezident müşavirədə qeyd etdi ki, kibertəhlükəsizlik üzrə əsas hədəflər müəyyən edilməlidir. Çünki bu da kritik sahələrdən biridir. Dövlət başçımız ötən il ölkəmizə qarşı çox mütəşəkkil və aqressiv kiberhücumu da xatırlatdı. Müasir dövrdə informasiya təhlükəsizliyi artıq milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Yeni arxitektura əsasında süni intellekt, "smart" layihələri ölkənin texnoloji inkişafını daha da sürətləndirəcək. Vahid standartların tətbiqi və təhlükəsizlik əməliyyat mərkəzlərinin yaradılması kibertəhlükələrə qarşı dayanıqlılığı artıracaq. Bu isə həm dövlət, həm də özəl sektor üçün daha etibarlı rəqəmsal mühit deməkdir", - deyə o bildirib.

N.Məmmədova yekunda vurğulayıb ki, "Azərbaycanın yeni rəqəmsal arxitekturası" ölkəmizi regionda rəqəmsal transformasiya üzrə aparıcı gücə çevirmək potensialındadır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *Amerikalı ekspert:* "Xartiya Amerika investisiyalarının Azərbaycana cəlbini nəzərdə tutur"

"ABŞ-nin vitse-prezidentinin Qafqaz regionuna yüksəksəviyyəli səfəri zamanı rəsmi Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması çox mühümdür".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Qlobal Siyasət İnstitutunun prezidenti, Vaşinqtondakı Bay Atlantik Universitetinin politologiya və beynəlxalq münasibətlər üzrə professoru Paolo Von Şirah deyib.

Onun sözlərinə görə, bu müqaviləyə enerji, müdafiə, geosiyasi məsələlər, terrorizmlə mübarizə, kommunikasiya kimi bir çox səviyyədə əməkdaşlıqla bağlı vacib məqamlar daxildir. O, həmçinin müqavilə əsasında yüksək texnologiyalar, telekommunikasiya, süni intellekt sahələrinə Amerika investisiyalarının cəlbinin nəzərdə tutulduğunu qeyd edib.

"Bu, çox vacibdir, çünki Amerikanın Ermənistanla da oxşar bir müqaviləsi olduğu üçün vəziyyəti yenidən balanslaşdırır. Bu razılaşma Azərbaycanı Naxçıvanla etibarlı şəkildə birləşdirəcək yol və dəmir yolu dəhlizinin tikintisinə gətirib çıxaracaq, buna görə də bu, həqiqətən



mühümdür. Bu, Ermənistan üçün də əhəmiyyətlidir, çünki layihənin Amerika Birləşmiş Ştatları Prezidentinin himayəsi altında həyata keçirilməsi bir növ təhlükəsizlik zəmanəti verir.

Bu dəhliz istifadəyə verildikdən sonra onun Şərqi Aralıq dənizini, Türkiyəni, Ermənistanı, Azərbaycanı, Xəzər dənizini, Qazaxıstanı, Türkmənistanı və digər ölkələri birləşdirəcək Orta dəhlizin çox vacib bir hissəsi olacağını unutmamalıyıq. Beləliklə, bu, potensial olaraq ticarət, biznes, investisiyalar üçün Avropanı, Aralıq dənizini, Yaxın Şərqi və Mərkəzi Asiyanı birləşdirən çox vacib bir dəhlizdir və inanıram ki, bütün region üçün üstünlüklər yaradacaq", - deyə ekspert əlavə edib.






# Humanitar diplomatiyada Leyla Əliyeva nümunəsi

**Müasir beynəlxalq münasibətlərdə təsir anlayışı tədricən klassik diplomatik çərçivələrdən çıxaraq ilk baxışdan yumşaq, lakin daha dərin müstəvi üzərində qurulur. Belə müstəvinin mərkəzində isə mədəniyyət, humanizm, ekoloji məsuliyyət, sosial inklüzivlik, gələcək nəsillərə yönəlmiş strateji baxış və digər dəyərlər dayanır.**
**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin sədri Leyla xanım Əliyevanın fəaliyyəti məhz bu yeni yanaşmanın sistemli və ardıcıl tətbiqi kimi diqqət çəkir. Leyla xanımın təkcə 2026-cı ilin yanvar-fevral aylarındakı çoxşaxəli fəaliyyətini, zəngin iş qrafikini izləsək, bunu əyani şəkildə görə bilərik. Onun İsveçrə, Efiopiya və Omana, Birləşmiş Ərəb Əmirliklərinə səfərləri, müxtəlif istiqamətlərdə irəli sürdüyü təşəbbüslər vahid dəyərlər sisteminə əsaslanan çoxölçülü strategiyanın müxtəlif coğrafiyalarda reallaşmasıdır.**

## Qlobal məsuliyyət

İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Leyla xanım Əliyeva da təmsil olunurdu. O, panel tədbirlərində, xüsusilə ABŞ Prezidenti Donald Trampın forumdakı panel çıxışında iştirak etdi. Bu panel Azərbaycanın qlobal gündəmdə fəal mövqeyini bir daha önə çıxardı.

Heydər Əliyev Fondunun vitse-prezidenti BƏƏ-nin paytaxtı Əbu-Dabidə Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimat mərasimində də təmsil olunurdu. Dövlətimizin başçısına belə bir mükafatın verilməsi cənab İlham Əliyevin münaqişənin ədalətli həlli yolunda sülh səylərinin beynəlxalq aləmdə necə yüksək qiymətləndirilməsinin daha bir təsdiqi idi. Belə bir ali mükafat Azərbaycanın keçdiyi yolun və dövlətimizin başçısının sülhyönümlü siyasətinin əhəmiyyətini sübut edirdi.

Leyla Əliyevanın İsveçrənin Qland şəhərində Beynəlxalq Təbiəti Mühafizə Birliyinin (IUCN) baş direktoru Qretel Agilar ilə görüşü isə Azərbaycanın ekoloji məsələlərə lokal problem yox, məhz qlobal məsuliyyət kimi yanaşdığını göstərirdi. Bu görüşdə əsas diqqət beynəlxalq əməkdaşlığın gücləndirilməsinə, regional çağırışların qlobal kontekstdə həllinə və dialoqun institusional səviyyədə dərinləşdirilməsinə yönəlmişdi.

Burada xüsusi əhəmiyyətli məqam Leyla xanımın rəhbərlik etdiyi IDEA İctimai Birliyinin IUCN-in tamhüquqlu üzvü kimi uzunmüddətli və çoxtərəfli əməkdaşlıqda fəal iştirak etməsidir. Bu faktın özü də göstərir ki, Azərbaycan ekoloji gündəliyə, sadəcə, qoşulan tərəf olmaqdan daha çox proseslərin formalaşmasında iştirak edən aktordur. IUCN-in ötən il Əbu-Dabidə keçirilən Ümumdünya Mühafizə Konqresində birgə pavilyon təcrübəsi, COP platformaları və gələcəkdə ölkəmizdə IUCN ofisinin açılması təşəbbüsü bu yanaşmanın davamlı xarakter daşıdığını təsdiqləyir. Bu kontekstdə İsveçrə görüşü Leyla Əliyevanın fəaliyyətində ekoloji diplomatiyanın əsas təzahürlərindən biri kimi çıxış edir: elmi əsaslı qərarlar, beynəlxalq koordinasiya və uzunmüddətli dayanıqlılıq bu missiyanın fundamental elementləridir.

## Su diplomatiyası

Məlumdur ki, müasir beynəlxalq ekoloji gündəlikdə xüsusilə qapalı su hövzələri - iqlim dəyişikliklərinə, sənayeləşməyə və koordinasiyasız idarəetməyə daha həssas olan ekosistemlər - beynəlxalq əməkdaşlıq tələb edən ortaq çağırışlar kimi dəyərləndirilir. Bu baxımdan Leyla xanım Əliyevanın Cenevrədə Birləşmiş Millətlər Təşkilatının platformasında Xəzər dənizi ilə bağlı təşəbbüsləri də məhz həmin çağırışlara verilən strateji cavablardan biri kimi maraq doğurur.

Onun BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovaya ilə görüşü ekoloji diplomatiyanın institusional səviyyədə qurulmasına bariz nümunə sayıla bilər. Görüşdə Xəzər dənizinin üzləşdiyi ekoloji problemlər, biomüxtəlifliyin azalması, su səviyyəsinin enməsi və bu proseslərin uzunmüddətli sosial-iqtisadi nəticələrinin müzakirəsi zamanı verilən əsas mesajlar kifayət qədər aydın idi: Xəzər təkcə sahilyanı ölkələrin problemi deyil, qlobal ekoloji balansın bir hissəsidir və onun qorunması beynəlxalq məsuliyyət tələb edir. Bu yanaşma Leyla xanım Əliyevanın fəaliyyətində tez-tez təsadüf edilən bir xətti - regional mövzuların qlobal platformalara daşınması və onların elmi əsaslı, koordinasiyalı həll yolları ilə gündəmdə saxlanılmasını təsdiqləyir.

Elə BMT-nin Cenevrə mənzil-qərargahında keçirilən "Xəzər dənizinin qorunması üçün ətraf mühitin idarə olunmasının və beynəlxalq əməkdaşlığın gücləndirilməsi" mövzusunda yüksəksəviyyəli panel müzakirələri də eyni xəttin davamı idi. Azərbaycan Respublikasının Cenevrədəki daimi nümayəndəliyi, CASPİSNET elmi şəbəkəsi və Tehran Konvensiyası Katibliyinin birgə təşəbbüsü ilə təşkil olunan bu tədbir elm-siyasət-diplomatiya üçbucağının real praktikada necə işlədiyini nümayiş etdirdi.

Rəsmi çıxışında Leyla Əliyeva Xəzər dənizinin qlobal əhəmiyyətini xüsusi vurğulayaraq bildirdi ki, elmi tədqiqatlara söykənməyən qərarlar uzunmüddətli nəticə vermir. Onun çağırışı sadə, lakin prinsipial təsir bağışladı, müzakirələrin konkret və ölçülə bilən addımlarla davam etdirilməsi zərurətini önə çəkdi. Dəniz səviyyəsinin azalması və biomüxtəlifliyin itirilməsi vaxtında tədbirlər görülmədiyi halda geridönməz nəticələrə yol aça bilər. Bu yanaşma ekoloji mövzuların emosional ritorikadan çıxarılaraq strateji idarəetmə predmetinə çevrilməsini təklif edir.

Panel sessiyalarında BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə regional direktoru Arnold Kraylhuber, Ümumdünya Səhiyyə Təşkilatının Avropa Ətraf Mühit və Səhiyyə Mərkəzinin rəhbəri Françeska Raçioppi, eləcə də Cenevrə Universiteti və "Geneva Water Hub" kimi nüfuzlu qurumların nümayəndələrinin iştirakı Xəzər mövzusunun multidissiplinar xarakterini ortaya qoydu. Burada Xəzər dənizi yalnız ekoloji obyekt kimi deyil, sağlamlıq, iqtisadiyyat, regional sabitlik və gələcək nəsillərin rifahı ilə birbaşa əlaqəli sistem kimi təqdim olundu. "Su diplomatiyası" anlayışı da məhz su ehtiyatlarının qorunmasının dövlətlərarası etimad və əməkdaşlıq tələb edən strateji sahə olması kontekstində aktuallaşır.

## Mədəni kimliyin institusional vitrini

Xəzər dənizinin ekoloji problemlərinə həsr olunmuş qısametrajlı sənədli filmin nümayişi tədbirin mühüm tamamlayıcı elementi oldu. Bu addım bir daha göstərdi ki, ekoloji məsələlər təkcə ekspert müzakirələri ilə məhdudlaşmamalı, ictimai şüurun formalaşdırılması ilə paralel aparılmalıdır. İnteraktiv sual-cavab sessiyası isə dialoqun açıq və inklüziv xarakterini gücləndirdi.

Cenevrə səfəri çərçivəsində Leyla Əliyevanın BMT-nin Cenevrə ofisində yaradılmış "Azərbaycan otağı" ilə tanışlığı da mədəni-humanitar diplomatiyanın incə və təsirli nümunəsidir. Heydər Əliyev Fondu tərəfindən ərsəyə gətirilmiş bu məkan BMT sistemində nadir olan milli təqdimat formatlarından biridir.

Qarabağ xalçası, şəbəkə sənəti, muğam üçlüyü - tar, kamança və qaval, eləcə də Azərbaycan təbiəti və memarlığını əks etdirən fotolar bu otağı, sadəcə, görüş məkanı yox, mədəni kimliyin institusional vitrininə çevirir. Müasir texnoloji avadanlıqla təchiz olunmuş "Azərbaycan otağı" ölkəmizin ənənə ilə müasirliyi birləşdirən imicini gücləndirir.

Leyla Əliyevanın Cenevrədəki fəaliyyəti bir daha göstərir ki, onun yanaşmasında ekoloji diplomatiya təsadüfi epizod deyil, uzunmüddətli və sistemli strategiyadır. Xəzər dənizi mövzusu İsveçrədə IUCN, Cenevrədə BMT platforması və elmi şəbəkələr vasitəsilə qlobal gündəliyə daşınır, mədəniyyət isə bu diplomatiyanın dayanıqlı sütunu kimi çıxış edir.

Bu model Azərbaycanın beynəlxalq rolu haqqında mühüm mesaj verir: ölkə regional problemlərini qapalı çərçivədə saxlamır, onları qlobal əməkdaşlıq üçün ortaq məsuliyyət çağırışına çevirir. Və bu çağırışın formalaşmasında Leyla Əliyevanın ardıcıl, elmi əsaslı və dəyəryönümlü fəaliyyəti xüsusi yer tutur.

## Elm, innovasiya və ekoloji şüurun birləşdiyi platforma

Leyla xanım Əliyevanın hələ yanvarda Efiopiyaya səfəri, bu ölkənin Baş naziri də daxil olmaqla keçirdiyi görüşlər, müxtəlif məkanları ziyarətləri onun fəaliyyətində insan mərkəzli yanaşmanın və mədəni empatiyanın necə sistemli strategiyaya çevrildiyini aydın şəkildə göstərir.

Leyla xanımın Efiopiya Elm Muzeyini ziyarət etməsi bu humanitar xəttin gələcəyə yönəlmiş davamı kimi diqqəti cəlb etdi. Baş nazir Abiy Əhmədin təşəbbüsü ilə yaradılmış bu kompleks təkcə muzey deyil, elm, innovasiya və ekoloji şüurun birləşdiyi platformadır. Günəş panelləri, interaktiv texnologiyalar və planetariumlar vasitəsilə bu məkanda gənclərin rəqəmsal bacarıqlarının inkişafı təşviq olunur. İndiyədək 7 milyon uşağın bu mərkəzi ziyarət etməsi Efiopiyanın öz gələcəyini bilik üzərində qurmaq niyyətinin göstəricisidir.

Eyni zamanda Efiopiyada sosial reabilitasiya mərkəzlərinə, o cümlədən Berhan Gözdən Əlillər üçün İnternat Məktəbinə, "Lenegewa" Qadınların Reabilitasiya və Bacarıqların İnkişafı Mərkəzinə, Efiopiyanın Milli Sarayına, Adva Zəfər Muzey Kompleksinə ziyarəti Leyla xanım Əliyevanın humanitar fəaliyyətinin strukturlaşdırılmış sosial-mədəni siyasətə bağlılığını, eləcə də mədəniyyətlərin müxtəlifliyinin, qlobal mədəni əlaqələrin önəmini vurğulayır.

Leyla xanımın Efiopiyaya səfəri çərçivəsində paytaxt Əddis-Əbəbədə yerləşən MESOB dövlət xidməti mərkəzi ilə tanışlığı da mühüm əhəmiyyət daşıyır. Çünki bu mərkəz Azərbaycanın "ASAN xidmət" modeli əsasında yaradılıb. Federal agentliklərin 140-dan çox xidmətini vahid rəqəmsal və fiziki mərkəzdə birləşdirən MESOB dövlət xidmətlərinin daha sürətli, rahat və etibarlı şəkildə göstərilməsini təmin edir.

## Mədəni irs, sağlamlıq və iqtisadi müxtəliflik

Leyla xanım Əliyevanın Oman Sultanlığına səfəri, Omanın vəliəhdi, ölkənin birinci xanımı, eləcə də digər dövlət və hökumət rəsmiləri ilə görüşləri də mədəni diplomatiyanın dolğun nümunələrindən biri kimi yadda qaldı. Sultan Opera Evinə ziyarət, bu məkanda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə əməkdaşlığın vurğulanması mədəniyyətin institusional əlaqə aləti kimi istifadəsini göstərir.

Oman səfərində Azərbaycanla turizm sahəsində əlaqələrə xüsusi diqqət yönəldi və bu, təsadüfi deyildi. Leyla xanım Əliyevanın yanaşmasında turizm iqtisadi fəaliyyət sektoru olmaqla yanaşı, həm də mədəni, humanitar və strateji diplomatiyanın kəsişmə nöqtəsidir. Bu yanaşma Azərbaycan-Oman münasibətlərini qısamüddətli təşəbbüslərdən çıxarıb uzunmüddətli əməkdaşlıq müstəvisinə daşıyır.

Mədəni irsin qorunması, dayanıqlı turizm, özəl sektorun cəlbi və xalqlar arasında canlı təmaslar - bütün bu elementlər Azərbaycanın beynəlxalq münasibətlərdə yumşaq gücə əsaslanan, dəyəryönümlü modelini formalaşdırır. Bu modelin ardıcıl qurucularından biri məhz Leyla xanım Əliyevadır.

Oman Milli Muzeyi, Mutrah bazarı və Sultan Qabus Böyük Məscidinə səfərlər isə mədəni irsə hörmət, dini-mədəni empatiya və sivilizasiyalararası dialoq baxımından xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma rəsmi çıxışlardan daha çox sakit, lakin təsirli mesajlar verir.

Fevralın 3-də Əbu-Dabidə yerləşən Zayed Milli Muzeyi beynəlxalq humanitar dialoqun mühüm platformasına çevrildi. Burada keçirilən "İnsan Qardaşlığı Məclisi" tədbiri fərqli mədəniyyətlər, dinlər və sivilizasiyalar arasında qarşılıqlı anlayışın möhkəmləndirilməsinə xidmət edən mühüm təşəbbüslərdən biri kimi diqqət çəkdi. Tədbirdə Leyla xanım Əliyevanın da iştirakı Azərbaycanın tolerantlıq, multikulturalizm və humanitar dəyərlərə verdiyi önəmin beynəlxalq səviyyədə növbəti dəfə nümayişi idi.

## Tolerantlığın və sosial məsuliyyətin Azərbaycan modelinin təqdimatı

Panel sessiyada çıxış edən Leyla Əliyeva Azərbaycanın müxtəlif din və mədəniyyətlərin dinc və harmonik şəkildə birgə yaşadığı ölkə kimi formalaşdığını vurğuladı. Bu yanaşma yalnız dövlət siyasəti ilə deyil, həm də cəmiyyətin həyat tərzi və ailə institutunun gücü ilə bağlıdır. Onun fikrincə, uşaqların sağlam və dəyəryönümlü mühitdə böyüməsi gələcək cəmiyyətin inkişafı üçün əsas amillərdən biridir.

Leyla Əliyeva həmçinin Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən beynəlxalq humanitar layihələrin əhəmiyyətini qeyd etdi. Müzakirələr zamanı müasir texnologiyaların təhsil və tərbiyə prosesinə təsiri də xüsusi vurğulandı. Leyla Əliyeva sosial medianın uşaqlar və yeniyetmələr üzərində yarada biləcəyi mənfi təsirlərə diqqət çəkərək, bu sahədə beynəlxalq təcrübəyə əsaslanan qoruyucu mexanizmlərin araşdırıldığını bildirdi. Bu yanaşma müasir dövrdə texnologiya ilə insan dəyərləri arasında balansın qorunmasının vacibliyini ön plana çıxarır.

Əbu-Dabiyə səfər çərçivəsində Leyla xanımın Şeyx Zayed Məscidini ziyarəti də dini tolerantlıq və mənəvi irsə hörmətin rəmzi kimi qiymətləndirilə bilər. Dünyanın ən böyük məscidlərindən biri olan bu memarlıq incisi yalnız dini ibadət ocağı deyil, həm də mədəniyyətlərarası dialoqu təşviq edən mühüm məkanlardan sayılır. Məscidin qlobal miqyasda dini tolerantlığın və mədəni irsin qorunmasının nümunəsi kimi təqdim edilməsi tədbirin ümumi ideoloji xətti ilə üst-üstə düşür.

Səfər proqramı çərçivəsində Leyla Əliyevanın Luvr Əbu-Dabi muzeyinə və İbrahim Ailə Evi kompleksinə səfəri mədəni və dini müxtəlifliyin qorunmasına yönəlmiş beynəlxalq təşəbbüslərin əhəmiyyətini aktuallaşdırdı. Luvr Əbu-Dabi muzeyi fərqli sivilizasiyaların incəsənət nümunələrini bir araya gətirərək mədəniyyətlər arasında körpü rolunu oynayır.

İbrahim Ailə Evi isə üç səma dininin ibadət məkanlarını bir kompleksdə birləşdirərək tolerantlıq və qarşılıqlı hörmətin praktiki nümunəsini təqdim edir. Bu məkan dini müxtəlifliyin münaqişə deyil, dialoq və əməkdaşlıq üçün imkan olduğunu nümayiş etdirir.

Leyla Əliyevanın Əbu-Dabiyə səfəri yalnız diplomatik və humanitar tədbirlərdə iştirakla məhdudlaşmır. Bu səfər Azərbaycanın tolerantlıq, multikulturalizm və sosial məsuliyyət sahəsində həyata keçirdiyi təşəbbüslərin beynəlxalq müstəvidə təqdimatıdır. Tədbirlər çərçivəsində aparılan müzakirələr göstərir ki, müasir dünyada davamlı inkişaf yalnız iqtisadi göstəricilərlə deyil, humanitar dəyərlərin qorunması, qadın hüquqlarının müdafiəsi və mədəniyyətlərarası dialoqun gücləndirilməsi ilə mümkündür.

Bütün bunlar bir daha təsdiqləyir ki, Leyla xanımın fəaliyyəti ekoloji məsuliyyət, humanitar empatiya, mədəniyyət diplomatiyası, təhsil, innovasiyalar, milli-mənəvi dəyərlər üzərində qurulmuş vahid strategiyadır. Bu strategiyanın hər elementi bir-birini uğurla tamamlayır, Azərbaycanın inkişafına və beynəlxalq imicinə böyük dəyər qatır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Bu günün və gələcəyin çağırışı: rəqəmsallaşma və süni intellekt

## Azərbaycan rəqəmsal keçidi uğurla reallaşdırır

Dünya sürətli texnoloji yeniliklərlə yanaşı, hər sahədə əsaslı rəqəmsal keçid dövrünü də yaşayır. Yeni dönəmin labüd çağırışı sayılan rəqəmsallaşma və süni intellekt (Sİ) artıq dövlətlərin gələcək inkişafını, iqtisadi dayanıqlılığını və qlobal rəqabət qabiliyyətini müəyyən edən strateji zərurət halına gəlib. İnformasiyanın ən qiymətli resursa, məlumat mərkəzlərinin yeni dövrün mühərriklərinə çevrildiyi indiki şəraitdə rəqəmsal ekosistemin qurulması ölkələrin suverenliyi və tərəqqisi üçün qaçılmaz hədəfdir. Əvvəllər dövlətlərin gücü daha çox enerji resursları və ya ağır sənaye ilə ölçülürdüsə, müasir dövrdə bu güc süni intellektin inkişaf səviyyəsi ilə müqayisə edilir.

Süni intellektin 2030-cu ilə qədər qlobal ümumi daxili məhsula (ÜDM) 15.7 trilyon dollar töhfə verəcəyi gözlənilir ki, bu da Çin və Hindistanın ümumi iqtisadiyyatından daha böyük bir rəqəmdir. Daha önəmlisi də odur ki, rəqəmsallaşma istehsalatda və xidmət sektorunda insan amilindən asılılığı maksimum azaldaraq, məhsuldarlığı 40 faizə qədər artırır. Hətta Sİ alqoritmləri şəhərsalma, nəqliyyat və enerji bölgüsü kimi mürəkkəb məsələlərdə insanlardan daha dəqiq analizlər təqdim edir. O səbəbdən dünya ölkələri təhsil sistemlərini kökündən dəyişirlər. Çünki rəqəmsallaşma bəzi peşələri sıradan çıxarır, lakin daha yaradıcı və yüksək texnoloji bilik tələb edən yeni sahələr yaradır. Bu o deməkdir ki, insanlar hər il rəqəmsal bacarıqlarını yeniləmək məcburiyyətində qalacaqlar. Artıq 50-dən çox ölkə milli süni intellekt strategiyasını qəbul edərək yeni çağırışlarla ayaqlaşmağa çalışır.

Azərbaycanın müasir inkişaf kursunda rəqəmsal keçidin vahid dövlət strategiyası kimi müəyyən edilməsi qlobal çağırışlara verilən ən çevik və uzaqgörən reaksiyadır. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə fevralın 11-də keçirilən "Azərbaycanın yeni rəqəmsal arxitekturası" üzrə müşavirə göstərdi ki, ölkəmiz rəqəmsal transformasiyanı artıq ayrı-ayrı layihələr kimi yox, vahid dövlət strategiyası kimi həyata keçirmək mərhələsinə qədəm qoyur. Müşavirə zamanı bir neçə həlledici mesaj verildi. Azərbaycan lideri xüsusi olaraq vurğuladı ki, dünyada gedən meyillər, trendlər bəllidir və bu gün süni intellektin tətbiqi, data mərkəzlərinin yaradılması, rəqəmsallaşma ilə bağlı islahatlar faktiki olaraq ölkələrin gələcək inkişafını müəyyən edir. Dövlət başçısı gələcək fəaliyyətimizdə bu məsələni əsas prioritetlər siyahısına daxil etməyin vacib olduğunu bildirdi: "Rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması istiqamətində də bizim təşəbbüslərimiz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin etməlidir".

Dövlətimizin başçısı data mərkəzlərinin yaradılmasının böyük enerji güclərini tələb etdiyini diqqətə çatdıraraq bu sahədə ölkəmizin üstünlüyə malik olduğunu söylədi: "Son 20 il ərzində generasiya gücümüz təxminən iki dəfəyə yaxın artıb və bu gün 10 min meqavata bərabərdir. Hazırda bizim ən azı 2 min meqavat istifadə edilməyən generasiya gücümüz var ki, rəqəmsallaşma, süni intellekt, data mərkəzlərinin yaradılması üçün bu, başlıca şərtdir". Prezidentin fikirləri Azərbaycanın rəqəmsal iqtisadiyyat strategiyasının fundamental dayaq nöqtəsini, enerji təhlükəsizliyi və texnoloji infrastrukturun vəhdətini ortaya qoyur. Süni intellekt dövrünün ən böyük ehtiyacı "hesablama gücü"dür və bu gücü hərəkətə gətirən elektrik enerjisidir. Qlobal miqyasda böyük data mərkəzləri bəzən kiçik bir şəhər qədər enerji istehlak edir. 10 min meqavatlıq ümumi güc, xüsusilə 2 min meqavatlıq sərbəst enerji ehtiyatı ölkəmizi xarici texnoloji nəhənglər üçün cəlbedici edir. Hidro, Günəş və külək stansiyaları da rəqəmsallaşma üçün xüsusi əhəmiyyət daşıyır. Nəzərə alaq ki, müasir texnologiya şirkətləri öz serverlərini ekoloji təmiz enerji ilə qidalandırmağa çalışırlar. Azərbaycanın bərpaolunan enerji potensialı rəqəmsal arxitekturanın həm də dayanıqlı və ekoloji təmiz olmasını təmin edir.

Süni intellekt texnologiyalarının tətbiqi Azərbaycan üçün yeni iqtisadi perspektivlər açır. Əlbəttə, bunun üçün vətəndaşlara təqdim olunan xidmətlər daha operativ, əlçatan və şəffaf şəkildə vahid rəqəmsal platformalarda cəmləşməlidir. Azərbaycan Prezidentinin müşavirədə verdiyi önəmli tapşırıqlardan biri rəqəmsallaşma prosesinin dağınıq deyil, vahid koordinasiya mərkəzi tərəfindən tənzimlənməsi ilə bağlı idi. Dövlətimizin başçısı birmənalı vurğladı ki, bu sahədə dövlət qurumları arasında çox sıx koordinasiya aparılmalıdır: "Burada dövlət qurumları arasında sıx təmaslar olmalıdır, pərakəndəliyə yol verilməməlidir". Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, hər bir dövlət strukturunda rəqəmsallaşma Sİ və kibertəhlükəsizlik istiqamətləri üzrə rəhbər səviyyəsində konkret məsul şəxslərin təyin edilməsidir: "Bu məsələdə işlərin daha səmərəli təşkili üçün hesab edirəm ki, hər bir dövlət qurumunda, ilk növbədə nazirliklərdə rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik üzrə bir müavin ayrılsın, ya yeni ştat vahidi yaradılsın". Hər dövlət qurumunda bu sahənin prioritet sayılması çox önəmlidir. Hədəfimiz çevik idarəetmə mexanizmləri, yüksəkkeyfiyyətli xidmət mühiti və rəqabətədavamlı iqtisadi model vasitəsilə ölkəmizin qlobal arenadakı mövqeyini daha da möhkəmləndirməkdir.

Texnologiyanı idarə edəcək insan kapitalı da başlıca şərtdir. Son vaxtlar bu istiqamətdə müəyyən işlər görüldüyünü bəyan edən dövlət başçısı təhsil sistemində bu sahəyə daha böyük diqqət göstərməyin zərurəti olduğunu dedi. Cənab İlham Əliyev bu ixtisas üzrə peşəkarlığı artırmağın vacibliyindən danışdı: "Gələcəkdə bu sahədə kadrlara böyük ehtiyac olacaq. Təbii ki, orta məktəblərdə şagirdlərə ilkin biliklərin aşılanması üçün tədris proqramına da müəyyən dəyişikliklər edilməlidir".

Xüsusilə vurğulamaq lazımdır ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizdə rəqəmsallaşmaya keçid prosesi illər öncədən başlayıb və mərhələli şəkildə həyata keçirilir. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin müşavirədə çıxışından aydın oldu ki, Azərbaycanda İKT sektoru ötən il 8,5 faizlik artımla yadda qalıb. 200-dən çox normativ sənəddə edilən dəyişikliklər bu sahənin hüquqi sütunlarını möhkəmləndirib. Bu gün ölkənin ən uzaq nöqtələri belə genişzolaqlı internetlə əhatə olunub. Eyni zamanda "hökumət buludu" infrastrukturunda yerləşən dövlət qurumlarının sayı 50-dən 270-ə yüksəlib. Xidmət sektorunda tətbiq edilən SİMA biometrik imzası 4 milyon istifadəçiyə çataraq bank əməliyyatlarını tam rəqəmsallaşdırıb, vətəndaşların banka getmədən xidmət almasına şərait yaradıb. "Mygov" platforması 2,5 milyon istifadəçini özündə birləşdirir. Bu nailiyyətlər beynəlxalq arenada da maraqla qarşılanır. ABŞ şirkətlərinin ölkəmizə artan marağı və İsrail ilə imzalanan strateji sənədlər bunun bariz nümunəsidir. Bununla yanaşı, Elm və Təhsil Nazirliyi ilə birgə həyata keçirilən kadr hazırlığı proqramları sayəsində 16 minə yaxın gənc İKT sahəsi üzrə ixtisaslaşıb.

Süni intellektin geniş tətbiq olunduğu bölgələrdən biri də Qarabağ və Şərqi Zəngəzurdur. İşğaldan azad edilmiş bölgələrimiz hazırda Azərbaycanın "rəqəmsal və yaşıl texnologiyalar" poliqonuna çevrilib. Bu ərazilər sıfırdan qurulduğu üçün ən müasir süni intellekt həllərinin tətbiqi üçün ideal məkan sayılır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası çərçivəsində Ağalı, Dövlətyarlı kimi kəndlər və Ağdam, Füzuli kimi şəhərlər Sİ əsaslı idarəetmə sistemləri ilə təchiz olunub. Küçə işıqlandırılması, su təminatı və tullantıların idarə olunması süni intellekt sensorları vasitəsilə optimallaşdırılıb. Bu, enerjiyə 20-30 faiz qənaət deməkdir. Gələcəkdə bölgədə pilotsuz nəqliyyat vasitələrinin və intellektual işıqfor sistemlərinin qurulması planlaşdırılır. Süni intellektin imkanlarından minaların təmizlənməsində və kənd təsərrüfatında da istifadə olunur.

Nəticə etibarilə Azərbaycanın yeni rəqəmsal arxitekturası, sadəcə, texnoloji yenilənmə deyil, həm də qlobal rəqabətdə yeni güc mərkəzinə çevrilmək iradəsidir. Enerji resurslarını intellektual kapitalla, coğrafi üstünlükləri isə rəqəmsal dəhlizlərlə birləşdirən Azərbaycan gələcəyin dünyasına tam hazır olduğunu nümayiş etdirir. Hədəflənən dəyişiklik Azərbaycanı təkcə regionun deyil, dünyanın ən çevik və innovativ dövlətlərindən birinə çevirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Bakı artıq regionda inteqrasiya və strateji balansın əsas mərkəzidir"

"Cənubi Qafqazda uzunmüddətli sabitlik və iqtisadi inteqrasiya prosesləri regionda maraqların toqquşması ehtimalını tam istisna etmir. Hazırkı ABŞ-Azərbaycan-İsrail konfiqurasiyasında söhbət Bakı ətrafında formalaşan rəqəmsal və tranzit mərkəzi çərçivəsində maraqların uzlaşdırılması və idarəolunan balans modelindən gedir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında israilli politoloq Abraham Şmuleviç bildirib.

O qeyd edib ki, ABŞ ilə Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması və İsraillə texnoloji əməkdaşlığın dərinləşdirilməsi Azərbaycanın postsovet məkanında nadir rast gəlinən "ikiqat dayaq" (dual-anchor strategy) modelini formalaşdırır. Bu strategiya ölkənin xarici siyasətinin və iqtisadi əlaqələrinin iki fərqli, lakin bir-birini tamamlayan strateji tərəfdaşla eyni vaxtda möhkəmləndirilməsini nəzərdə tutur. Hər iki tərəfdaş Azərbaycan üçün kritik əhəmiyyət daşıyan resursların fərqli seqmentlərini təmin edir.

Şmuleviçin sözlərinə görə, ABŞ Azərbaycana geosiyasi legitimlik, qlobal kapital bazarlarına çıxış və infrastruktur zəmanətləri, o cümlədən TRIPP təşəbbüsü çərçivəsində dəhliz layihələri təqdim edir. İsrail isə süni intellekt, kibertəhlükəsizlik, müdafiə sistemləri və kəşfiyyat əməkdaşlığı kimi qabaqcıl texnologiyalarla çıxış edir. Bu iki istiqamətin sintezi Azərbaycanın həm texnoloji suverenliyini, həm də geosiyasi təhlükəsizliyini gücləndirir.

Politoloq vurğulayıb ki, ABŞ-nin vitse-prezidenti Vensin Bakıya səfəri və Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması Azərbaycanı Birləşmiş Ştatların Avrasiya siyasətində dayaq ölkələrdən birinə çevirir. Sənəddə təhlükəsizlik, enerji, rəqəmsal və kibersfera, regional kommunikasiyalar və investisiya layihələri kimi sahələr yer alır. TRIPP təşəbbüsü isə yalnız Naxçıvan istiqamətində kommunikasiya xətti deyil, daha geniş Orta dəhliz arxitekturasının tərkib hissəsidir.

Onun sözlərinə görə, İsrail istiqaməti münasibətləri yalnız müdafiə sahəsi ilə məhdudlaşdırmır. Süni intellekt və kibertəhlükəsizlik üzrə memorandumlar, yüksək texnologiya klasterləri və tədris mərkəzlərinin yaradılması planları Azərbaycanı İsrail texnologiyalarının regional platformasına çevirir. Bu modeldə ABŞ kapital, siyasi çətir



və tranzit infrastrukturu təqdim edir, İsrail kritik texnologiyalar və innovasiya təcrübəsi verir, Azərbaycan isə infrastruktur və coğrafi platforma rolunu oynayır. Bu yanaşma klassik "postsovet asılılıq modeli"ndən fərqli olaraq Birləşmiş Ərəb Əmirlikləri və ya Sinqapur tipli inkişaf modelinə daha yaxındır.

Sabitləşdirici effektin üç əsas mənbədən qaynaqlandığını qeyd edən Şmuleviç deyib: "Birincisi, TRIPP və Orta dəhliz layihələri "sülh benefisiarları klubu" yaradır. Bu halda mümkün qarşıdurma artıq təkcə Bakı və İrəvanın deyil, ABŞ, Türkiyə, Avropa İttifaqı və İsrailin maraqlarına da toxunur. İkincisi, imzalanan xartiyalar və memorandumlar müharibədən sonrakı status-kvonu hüquqi və iqtisadi mexanizmlərlə möhkəmləndirir, onun dəyişdirilməsinin qiymətini yüksəldir. Üçüncüsü, texnoloji və təhsil layihələri Azərbaycan və potensial olaraq Ermənistan gənclərini qlobal bilik və əlavə dəyər zəncirlərinə inteqrasiya edərək total mobilizasiya və müharibə məntiqini zəiflədir".

Eyni zamanda politoloq qeyd edib ki, regionda müxtəlif güc mərkəzlərinin maraqları mövcuddur və yeni əməkdaşlıq formatları həmin maraqların yenidən balanslaşdırılmasını zəruri edə bilər: "Bəzi ölkələr üçün "ABŞ-Azərbaycan-İsrail-Türkiyə" əməkdaşlıq modeli yeni reallıq kimi qəbul oluna, alternativ əməkdaşlıq mexanizmlərinin axtarışına səbəb ola və region ölkələrinin daxili siyasi kursu proseslərin inkişaf trayektoriyasına təsir göstərə bilər. Əgər əməkdaşlıq inklüziv xarakter daşıyarsa və regional layihələr bütün tərəflər üçün açıq platforma kimi təqdim olunarsa, bu model Cənubi Qafqazda uzunmüddətli sabitliyin əsas dayaqlarından birinə çevrilər. Beləliklə, yaxın 5-10 illik perspektivdə regionda klassik mənada sülh deyil, Bakı ətrafında inteqrasiya və idarəolunan rəqabət modeli formalaşa bilər", - deyə A.Şmuleviç bildirib.

# "Zəngəzur dəhlizi Orta dəhlizə rəqibdir" deyənlər yanılırlar

"TRIPP layihəsi regionun ümumi inkişafına xidmət edəcək və ilk növbədə Azərbaycanla Ermənistan arasındakı qeyri-müəyyənliklərə son qoyacaq".

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Levan Mamaladze söyləyib.

Onun sözlərinə görə, "Zəngəzur dəhlizi Orta dəhlizə rəqibdir" deyənlər yanılırlar. Fevralın 10-da Bakıda imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nda həm Orta dəhlizdən, həm də Zəngəzur dəhlizindən bəhs olunur. Zəngəzur dəhlizi Azərbaycanın Naxçıvan bölgəsini birləşdirərək Türkiyə istiqamətində nəqliyyat yollarını təmin edir və bu, Azərbaycanın daxili inteqrasiyasına, yeni ticarət və logistika marşrutlarının formalaşmasına imkan yaradır.

Bu dəhliz Orta dəhlizə alternativ deyil, əksinə, nəqliyyat və logistika xidmətlərini genişləndirir, yeni servis imkanları yaradır. Bu da təbiidir. Yüklərin Çin və Mərkəzi Asiyadan Türkiyə, Avropa və Afrikaya daşınması daha əlverişli və iqtisadi baxımdan səmərəli marşrutlarla həyata keçirilməlidir.

Politoloq hesab edir ki, Zəngəzur dəhlizi əsasən Türkiyə istiqamətində, xüsusilə Türkiyə limanlarına yönələn yüklərə xidmət edəcək. İlkin mərhələdə avtomobil yolu, daha sonra isə dəmir yolu xəttinin əlavə olunması nəzərdə tutulur. Orta dəhliz çərçivəsində Bakı-Tbilisi-Qars dəmir yolu artıq fəaliyyət göstərir və inkişaf edəcək. Bu marşrutlar Mersin, İskəndərun, Ceyhan kimi Aralıq dənizi limanlarına yönələn yükləri təmin edəcək.



"Avropaya birbaşa yönələn yüklər isə əsasən Çin-Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan marşrutu üzrə hərəkət edəcək, Gürcüstanın Qara dəniz limanları vasitəsilə Bolqarıstan və Almaniya istiqamətində daşınacaq. Bu baxımdan heç bir rəqabətdən söhbət gedə bilməz. Əksinə, Xartiyada bu istiqamətlərin paralel şəkildə inkişaf etdirilməsi xüsusi vurğulanır", - deyə Mamaladze bildirib.

Onun sözlərinə görə, Xartiyanın imzalanmasından sonra Gürcüstan və Azərbaycan arasında əməkdaşlığın əsas istiqaməti logistika və ticarət xidmətlərinin genişləndirilməsi olacaq. Bu, daha çox yük cəlb etməyə və dövlətlərimiz üçün daha çox gəlir əldə etməyə imkan verəcək. Birgə idarəetmə və koordinasiya mexanizmlərinin yaradılması Cənubi Qafqazdan keçən yüklərin səmərəli daşınmasını təmin edəcək.

"Ümid edirəm ki, Gürcüstan və Azərbaycan, gələcəkdə Ermənistanın da qoşulması ilə, Orta dəhlizin və ümumilikdə Cənubi Qafqaz nəqliyyat imkanlarının koordinasiyası üçün vahid mexanizm yaradacaqlar. Bu, çox ciddi perspektivdir.

### Cənubi Qafqazın gələcəyi ortaq maraqlar üzərində qurulmuş modeldədir

Bundan əlavə, enerji layihələri də genişlənir. Vaxtilə dünyaşöhrətli siyasi və dövlət xadimləri Heydər Əliyevin və Eduard Şevardnadzenin təşəbbüsü ilə həyata keçirilmiş neft və qaz kəmərlərinə indi Qara dənizin dibi ilə çəkiləcək iri elektrik kabeli də əlavə olunur. Bu layihəyə Azərbaycan və Gürcüstan qoşulacaq, gələcəkdə Ermənistanın da iştirakı mümkündür. Elektrik enerjisi istehsalının artması Avropaya yüksək qiymətlərlə ixrac imkanlarını genişləndirəcək".

Onun sözlərinə görə, Gürcüstan ABŞ ilə uzun illərdir əməkdaşlıq edir və müxtəlif təcrübələr var. "Lakin indi regionda əvvəlki bölgü modeli dəyişir. Bu baxımdan region ölkələri olaraq maraqlarımızı birgə koordinasiya etməliyik. "Mən Cənubi Qafqazın gələcəyini məhz balans və ortaq maraqlar üzərində qurulmuş modeldə görürəm və böyük perspektivlərə inanıram. ABŞ-nin regiona artan marağından suverenliyimizin möhkəmləndirilməsi və iqtisadiyyatımızın inkişafı üçün istifadə etməliyik. Ümid edirəm ki, bu proseslər məhz bu istiqamətdə inkişaf edəcək", - deyə L.Mamaladze vurğulayıb.

# Birləşmiş Ştatların regionla bağlı siyasətində Azərbaycan xüsusi yer tutur

"Cənubi Qafqaz regionu geosiyasi mövqeyi, enerji resursları və nəqliyyat imkanları baxımından beynəlxalq aktorların diqqət mərkəzində qalmaqda davam edir. ABŞ-nin region siyasətində Azərbaycan xüsusi yer tutur. Bu, ilk növbədə Azərbaycanın strateji coğrafi mövqeyi, zəngin enerji ehtiyatları, həmçinin regional sabitlik və əməkdaşlıq proseslərində oynadığı rol ilə bağlıdır".



Bunu AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev mədəniyyət mərkəzinin sədri, siyasi ekspert Bilal Dündar bildirib.

Onun sözlərinə görə, Azərbaycan ABŞ üçün Cənubi Qafqazda etibarlı tərəfdaşlardan biri hesab olunur.

"Müstəqilliyin ilk illərindən etibarən iki ölkə arasında siyasi dialoq, iqtisadi əməkdaşlıq və təhlükəsizlik sahəsində münasibətlər ardıcıl inkişaf edib. Vaşinqton regionda sabitliyin qorunması, enerji təhlükəsizliyinin təmin olunması və yeni nəqliyyat marşrutlarının formalaşması baxımından Azərbaycanla əməkdaşlığa mühüm önəm verir. Enerji faktoru Azərbaycan-ABŞ münasibətlərində əsas istiqamətlərdən biridir. Xəzər hövzəsinin enerji resurslarının dünya bazarlarına çıxarılması məqsədilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, eləcə də "Cənub qaz dəhlizi" kimi irimiqyaslı layihələr ABŞ tərəfindən daim dəstəklənib. Bu layihələr Avropanın enerji mənbələrinin şaxələndirilməsi və qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycanın tranzit ölkə kimi rolu da ABŞ-nin iqtisadi maraqları sırasında mühüm yer tutur. Şərqlə Qərbi birləşdirən nəqliyyat dəhlizlərinin, xüsusilə "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı qlobal ticarətin alternativ istiqamətlər üzrə genişlənməsinə şərait yaradır. Azərbaycanın müasir liman infrastrukturu, dəmir yolu şəbəkəsi və logistika imkanları bu prosesdə ölkənin rolunu daha da gücləndirir", - deyə B.Dündar vurğulayıb.

Ekspert bildirib ki, ABŞ şirkətləri uzun illərdir Azərbaycanın enerji sektorunda aktiv iştirak edir. Son dövrlərdə isə əməkdaşlıq qeyri-neft sahələrinə - bərpaolunan enerji, informasiya texnologiyaları, kənd təsərrüfatı, logistika və xidmət sektorlarına doğru genişlənməkdədir: "Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi strategiyası xarici investisiyalar, o cümlədən ABŞ kapitalı üçün yeni imkanlar yaradır. Siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq da münasibətlərin mühüm istiqamətlərindəndir. Terrorizmlə mübarizə, regional sabitliyin qorunması, humanitar və təhsil proqramları çərçivəsində tərəflər arasında qarşılıqlı fəaliyyət davam edir. Bu əməkdaşlıq regionda etimad mühitinin formalaşmasına və uzunmüddətli sabitliyə töhfə verir. Ümumilikdə, Azərbaycan ABŞ-nin Cənubi Qafqaz siyasətində həm enerji tərəfdaşı, həm strateji tranzit ölkə, həm də regional sabitlik aktoru kimi çıxış edir. Mövcud əməkdaşlıq potensialı gələcəkdə enerji keçidi, rəqəmsal iqtisadiyyat, "yaşıl texnologiya"lar və nəqliyyat-logistika sahələrində Azərbaycan-ABŞ münasibətlərinin daha da dərinləşməsi üçün geniş imkanların mövcud olduğunu göstərir".

# "TRIPP layihəsi Cənubi Qafqazda yeni iqtisadi imkanlar açır"

"Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması və "Tramp marşrutu" (TRIPP) təşəbbüsünün reallaşması Türkiyənin dəstəklədiyi Orta dəhliz strategiyası çərçivəsində Cənubi Qafqazda iqtisadi inteqrasiyanın dərinləşməsinə və davamlı sülhün möhkəmlənməsinə töhfə verə bilər".

Bu fikri AZƏRTAC-a açıqlamasında türk ekspert Emre Diner bildirib.

Onun sözlərinə görə, hazırda dünyada geosiyasi maraq zonalarında köklü dəyişikliklər baş verir və bu transformasiyanın əsas istiqamətlərindən biri də Cənubi Qafqazdır. Tramp administrasiyasının Ermənistan və Azərbaycan istiqamətində atdığı son addımlar regionun beynəlxalq gündəmdə yenidən prioritetə çevrildiyini göstərir. Ekspert qeyd edib ki, bu proses təkcə ABŞ üçün deyil, eyni zamanda Türkiyə, Azərbaycan və Ermənistan üçün də strateji əhəmiyyət daşıyır.

Ekspertin fikrincə, "Tramp marşrutu" Cənubi Qafqazda sülh perspektivlərini iqtisadi əməkdaşlıqla birbaşa əlaqələndirir. Ticarət dəhlizinin təhlükəsiz və davamlı fəaliyyəti üçün risklərin minimuma endirilməsi və Ermənistan-Azərbaycan münasibətlərində sabitliyin təmin olunması əsas şərtlərdən biridir. Bu kontekstdə Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması, eləcə də bunun fonunda Türkiyə-Ermənistan əlaqələrinin inkişafı yeni nəqliyyat və ticarət xəttinin səmərəli işləməsi baxımından vacib amillərdir. TRIPP layihəsi ümumi çərçivədə Azərbaycanı Naxçıvan üzərindən Türkiyəyə birləşdirən və Ermənistan ərazisindən keçən xətti nəzərdə tutur. Layihənin mahiyyəti geoiqtisadi yanaşmaya əsaslanır. Dəhliz Avropa ilə Mərkəzi Asiyanı birləşdirən dəmir yolu, avtomobil yolu, enerji və rəqəmsal infrastruktur layihələrini əhatə etməklə, sülhü iqtisadi qarşılıqlı asılılıq üzərində qurmağı hədəfləyir. Bu modeldə sabitlik investisiyaların əsas şərti kimi çıxış edir.



Emre Diner vurğulayıb ki, Cənubi Qafqaz Avropa ilə Mərkəzi Asiyanı birləşdirən Orta dəhlizin mühüm halqasıdır. ABŞ Çin və Rusiyadan asılılığı azaltmaq niyyətində olduğu bir vaxtda, Mərkəzi Asiyanın enerji və strateji əhəmiyyətli mineral resurslarına çıxışı xüsusi önəm kəsb edir. Lakin bu resursların qlobal bazarlara çatdırılması üçün təhlükəsiz və proqnozlaşdırıla bilən nəqliyyat marşrutlarına ehtiyac var. Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunması regionu geosiyasi tıxanma nöqtəsindən qlobal tranzit mərkəzinə çevirə bilər. Bununla da Azərbaycan və Türkiyə yeni regional iqtisadi düzənin mərkəzində daha aydın mövqe tuta bilər.

Ekspert ABŞ-nin yüksəksəviyyəli rəsmilərinin regiona səfərlərinə də diqqət çəkib. O bildirib ki, ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Azərbaycana və Ermənistana səfəri, Gürcüstanın isə proqramda olmaması ABŞ-nin prioritetlərinin dəyişdiyini göstərir. Bu, Azərbaycanın regionun əsas açar ölkəsi kimi önə çıxdığına dair mesaj kimi qiymətləndirilir.

"TRIPP layihəsi ilə Azərbaycan həm Xəzər hövzəsinin enerji resurslarının Avropaya çatdırılmasında, həm də türk dünyasının Avropaya inteqrasiyasında geosiyasi və strateji rolunu daha da gücləndirir. Rusiya-Ukrayna müharibəsi fonunda "Şimal" dəhlizinin funksionallığının azalması Orta dəhlizin əhəmiyyətini artırıb. Yeni marşrut Türkiyəni Orta dəhlizin mərkəzinə çevirərək Asiya ilə Avropa arasında əsas körpü rolunu daha da gücləndirəcək və ölkənin mühüm tranzit statusunu möhkəmləndirəcək. Bu marşrut Mərkəzi Asiya ilə əlaqələrin daha dayanıqlı və davamlı olmasına da töhfə verəcək. TRIPP layihəsinin Türkiyə üçün əsas üstünlükləri sırasında Asiya ilə Avropa arasında körpü funksiyasının güclənməsi, yeni logistika və ticarət xətlərinə inteqrasiya, İran və Gürcüstana asılılığın azalması, nəqliyyat məsafələri və xərclərinin optimallaşdırılması, enerji və ticarət marşrutları üzərində təsir imkanlarının artması, həmçinin regional siyasi və iqtisadi rolun genişlənməsi yer alır", - deyən Emre Diner, həmçinin bildirib ki, Cənubi Qafqazda baş verən bütün proseslər, o cümlədən TRIPP təşəbbüsü region ölkələri üçün mühüm strateji əhəmiyyət daşıyır. Layihənin reallaşması ilə geosiyasi balansda yeni konfiqurasiyanın formalaşacağı gözlənilir.

Ekspertin fikrincə, Orta dəhlizin regionda yeni sülh mühiti yaradıb-yaratmayacağı və ya əlavə gərginlik riskləri doğuracağı proseslərin hansı model üzrə idarə olunmasından asılı olacaq. TRIPP layihəsinin vəd etdiyi iqtisadi imkanlar yalnız Türkiyə, Azərbaycan və Ermənistan kimi regional aktorların maraqları ilə uzlaşdırılmış şəkildə reallaşdırıldığı təqdirdə uğurlu nəticə verə bilər. Əks halda, mövcud dinamika daha mürəkkəb və riskli güc balansının formalaşmasına gətirib çıxaracaq.

# " Azərbaycanda keçiriləcək WUF13 müxtəlif istiqamətlərdə əlavə imkanlar yaradır"

"Son dövrlərdə bölgədə baş verən dəyişikliklər, Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində müşahidə olunan real irəliləyişlər, eləcə də əlaqələrin genişlənməsi və investisiya imkanlarının artması Azərbaycanın tərəfdaşları, o cümlədən Litva üçün də maraqlı perspektivlər açır".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Litvanın Azərbaycandakı səfiri Kestutis Vaşkeleviçus deyib. O bildirib ki, Litva və Azərbaycan uzunmüddətli tərəfdaşlardır. Ölkələrimiz arasında nəqliyyat-logistika sahəsi ilə yanaşı, iqtisadiyyatın digər sahələrində də uğurlu əməkdaşlıq mövcuddur.

"Yaxın zamanda Azərbaycanda keçiriləcək WUF13 tədbiri müxtəlif istiqamətlərdə əlavə imkanlar yaradır. Həmçinin Azərbaycanın Avropa ilə Asiya arasında strateji mərkəz rolunu nümayiş etdirməsinə təkan verir. Bu, yalnız tərəfdaşlığın genişlənməsi üçün deyil, eyni zamanda müxtəlif biznes layihələrinin gerçəkləşdirilməsi baxımından da böyük əhəmiyyət daşıyır", - deyən diplomat qeyd edib ki, enerji sahəsində də əməkdaşlıq böyük əhəmiyyət daşıyır və bunun üçün böyük potensial mövcuddur.

"Biz öz təcrübəmizi bölüşməyə, enerji şəbəkəsinə qoşulmağa və bərpaolunan enerji sahəsindəki biliklərimizi paylaşmağa hazırıq. Litvanın bu sahədə zəngin təcrübəsi var, Azərbaycan isə həm yüksək potensiala, həm də praktiki təcrübəyə malikdir. Eyni zamanda düşünürəm ki, biznes sahəsində əməkdaşlıq üçün də geniş imkanlar mövcuddur", - deyə səfir vurğulayıb.

# "Cənubi Qafqazda iqtisadi inteqrasiya sülhün əsas təminatına çevrilir"

"Son illərdə Cənubi Qafqaz ölkələri təhlükəsizlik, iqtisadi və nəqliyyat maraqlarını daha geniş coğrafi çərçivədə dəyərləndirməyə başlayıblar. Bu yanaşma regionun qapalı siyasi məkan olmaqdan çıxaraq, qlobal ticarət, enerji və tranzit şəbəkələrinin mühüm hissəsinə çevrilməsinə şərait yaradır".



Bunu AZƏRTAC-a açıqlamasında türk politoloq Hüsamettin İnanç bildirib.

O xatırladıb ki, ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin bir araya gəlməsi region üçün mühüm hadisə idi. Həmin görüş çərçivəsində Zəngəzur dəhlizi (TRIPP) layihəsinin yeni status qazanması istiqamətində ciddi addımlar atıldı və layihəyə uzunmüddətli, institusional yanaşma formalaşdırıldı.

"Proses sürətlə son mərhələyə doğru irəliləyir. Zəngəzur dəhlizi Asiya ilə Avropa arasında enerji və ticarət axınlarının təmin olunmasında strateji kəsişmə nöqtəsi rolunu oynayacaq. Bu marşrutun funksional hala gəlməsi regional və qlobal miqyasda ticarət dövriyyəsinin artmasına, logistik imkanların genişlənməsinə və iqtisadi inteqrasiyanın dərinləşməsinə səbəb olacaq. Çin tərəfindən irəli sürülən "Bir kəmər, bir yol" təşəbbüsünün Orta dəhliz xəttində də mühüm dönüş yaradacaq və türk dünyası daxilində iqtisadi əlaqələrin daha da güclənməsinə təkan verəcək", - deyə o bildirib.

Ekspert əlavə edib ki, Rusiya-Ukrayna müharibəsindən sonra enerji təhlükəsizliyi məsələsi Avropa üçün daha aktual xarakter alıb. Bu kontekstdə Cənubi Qafqazdan keçən enerji və nəqliyyat marşrutlarının əhəmiyyəti daha da artıb. Ticarət və enerji axınlarının genişlənməsi region ölkələri arasında iqtisadi əlaqələri gücləndirir, sülhün möhkəmlənməsinə xidmət edir. İnanç vurğulayıb ki, iqtisadi inteqrasiya dərinləşdikcə münaqişə riskinin azalması və sabitliyin artması müşahidə olunur.

Politoloqun sözlərinə görə, regionda formalaşan yeni əməkdaşlıq modeli beynəlxalq aktorların da prosesə konstruktiv şəkildə cəlb olunmasına şərait yaradır. ABŞ-nin bölgədə infrastruktur, enerji və rəqəmsal layihələrə dəstək verməsi Cənubi Qafqazın qlobal iqtisadi sistemə inteqrasiyasını sürətləndirir və balanslı regional inkişaf üçün əlavə imkanlar açır.

Hüsamettin İnanç qeyd edib ki, qarşıdakı mərhələdə Qazaxıstan yüklərinin Azərbaycan ərazisindən Ermənistan istiqamətinə daşınması, Gürcüstanın prosesə daha fəal qoşulması və alternativ tranzit xətlərinin paralel şəkildə işləməsi regionun strateji əhəmiyyətini daha da artıracaq.

Politoloq vurğulayıb ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istiqamətində atdığı addımlar Cənubi Qafqazda sülhün davamlı xarakter almasına töhfə verir. "Orta dəhlizin güclənməsi Çin-Avropa ticarət xəttinin daha səmərəli işləməsini təmin edəcək, alternativ tranzit yollarının paralel fəaliyyəti bölgənin iqtisadi çəkisini artıracaq. Bütün bu amilləri bir araya gətirdikdə görürük ki, Cənubi Qafqazda artıq müsbət mənada geosiyasi dönüş başlayıb. İqtisadi inteqrasiya, enerji və nəqliyyat layihələri üzərində qurulan əməkdaşlıq modeli bölgədə davamlı sülh üçün real zəmin formalaşdırır", - deyə Hüsamettin İnanç bildirib.

# Azərbaycanın təcrübəsi yeni və real yanaşma kimi dəyərləndirilir



Ermənistanın 30 il ərzində Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüz yalnız silahlı münaqişə ilə məhdudlaşmamış, beynəlxalq hüququn qadağan etdiyi ağır cinayətlərlə müşayiət olunmuşdur. Sözügedən cinayət işləri sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və terrorçuluq kimi ən ağır hüquqi kateqoriyaları əhatə edir ki, bu da hadisələrin miqyasını və ictimai təhlükəlilik dərəcəsini açıq şəkildə göstərir.

Beynəlxalq hüququn formalaşdırdığı mexanizmlərdən və mövcud təcrübədən yararlanmaqla 1987-ci ilin sonlarından başlayaraq 2023-cü ilə qədər davam etmiş Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində törədilmiş müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərin əsas təşkilatçıları və icraçıları hüquqi məsuliyyətə cəlb edilmişdir. Bu proses sistemli və ardıcıl hüquq siyasətinin nəticəsidir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hələ 2020-ci il Vətən müharibəsindən əvvəl dəfələrlə bəyan etmişdir ki, Xocalı soyqırımı da daxil olmaqla, Azərbaycan xalqına qarşı törədilmiş ağır cinayətlərin icraçıları və təşkilatçıları mütləq şəkildə ədalət mühakiməsinə cəlb olunacaq, günahsız qurbanların qanı yerdə qalmayacaqdır. Bu qətiyyətli mövqe dövlət siyasətinin əsas prioritetlərindən biri olmuş və bu gün praktiki nəticəsini tapmışdır.

Azərbaycan Respublikası ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi vasitələrlə təmin etdikdən, sülhə xidmət edən yeni reallıqların beynəlxalq diplomatik müstəvidə təsdiqinə nail olduqdan sonra hüquqi müstəvidə - məhkəmə çərçivəsində ədalətin bərpası istiqamətində mühüm addımlar atmışdır. Belə ki, xalqımıza qarşı insanlıq əleyhinə və müharibə cinayətləri törətməkdə ittiham olunan şəxslərin ədalət mühakiməsi qarşısına çıxarılmasını təmin etmişdir. Bu, dövlətimizin ədalətin bərpası istiqamətində ardıcıl və prinsipial siyasətinin real nəticəsidir.

Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, bütün siyasi və informasiya təzyiqlərinə baxmayaraq, müharibə cinayətlərində təqsirləndirilən şəxsləri məhkəmə qarşısına çıxarmışdır. Bununla ölkəmiz göstərmişdir ki, ədalət yalnız hərbi qələbə ilə deyil, hüquqi müstəvidə də təmin olunmalıdır. Eyni yanaşma keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın (ICTY) fəaliyyətində də tətbiq olunub. Bosniya müharibəsi zamanı Srebrenitsa soyqırımına görə mühakimə edilən şəxslər əhalinin məhv edilməsi, məcburi köçürmə, işgəncə və müharibə qanunlarının pozulmasına görə məsuliyyətə cəlb ediliblər. Tribunal bu cinayətləri beynəlxalq humanitar hüququn kobud pozuntusu kimi qiymətləndirib. Ruanda üzrə Beynəlxalq Tribunal isə terror xarakterli zorakılıq, soyqırımı və mülki əhaliyə qarşı sistemli hücumların dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirildiyi hallarda cinayət məsuliyyətinin qaçılmaz olduğunu təsdiqləyib. Burada da təşkilatlanmış silahlı qrupların yaradılması və maliyyələşdirilməsi ayrıca ağırlaşdırıcı hal kimi qiymətləndirilib.

Bakıda keçirilən məhkəmə prosesi ilə bağlı Azərbaycana qarşı xaricdən ayrı-ayrı dairələr bu prosesə təsir göstərməyə və ədalətin bərqərar edilməsinə mane olmağa cəhd göstərmişlər. Lakin Prezident İlham Əliyevin prinsipial mövqeyi və siyasi iradəsi bu təzyiqlərin heç birinin nəticə verməməsini təmin etmişdir. Nəticədə hər hansı kənar müdaxilə olmadan Bakı Hərbi Məhkəməsi tam obyektiv şəraitdə işini ədalətli hökmün elanı ilə yekunlaşdırmışdır. İstintaq materiallarına əsasən, təqsirləndirilən şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin insanlıq əleyhinə və müharibə cinayətləri, terrorçuluq, soyqırımı, təcavüzkar müharibənin aparılması, mülki əhaliyə qarşı ağır zorakılıq əməlləri, habelə dövlətin konstitusiya quruluşuna qarşı yönəlmiş cinayətlərə dair maddələri ilə ittiham olundular. Onlara qarşı irəli sürülən ittihamlar arasında soyqırımı, əhalinin məhvi və məcburi köçürülməsi, işgəncə, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi, muzdlu döyüşçülərin cəlb edilməsi, müharibə qanun və qaydalarının, eləcə də beynəlxalq humanitar hüquq normalarının kobud şəkildə pozulması xüsusi yer tutur.

İnsanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin ədalət mühakiməsinə cəlb edilməsi ədalətin təntənəsi olmaqla yanaşı, münaqişə və müharibələrin ədalətli və davamlı həlli üçün nümunəvi modeldir. Dünya təcrübəsi göstərir ki, münaqişələrin natamam həlli və müharibə cinayətkarlarının cəzasız qalması gələcəkdə yeni gərginliklərə və münaqişələrə zəmin yaradır. Keçmiş Yuqoslaviya münaqişəsindən sonra müharibə cinayətkarlarının bir qisminin məhkəmə qarşısına çıxarılması beynəlxalq ictimaiyyətin birgə səyləri nəticəsində mümkün olmuşdur. Azərbaycan isə bu istiqamətdə milli hüquq mexanizmlərinə əsaslanaraq, müstəqil və qətiyyətli mövqe nümayiş etdirmişdir.

Eyni zamanda hüquqi dəlillərlə sübut edilmişdir ki, Ermənistan işğalçılıq siyasətini gizlətmək məqsədilə Qarabağ ərazisində qondarma rejim yaratmış, həmin rejimin rəhbər şəxsləri isə Ermənistan dövlətinin işğalçılıq, təcavüzkar müharibə siyasətinin əsas icraçılarından olmuşdur. Məhkəmə prosesində səsləndirilən ifadələr və təqdim olunan faktlar bir daha təsdiq etmişdir ki, Ermənistan hakimiyyəti Azərbaycan xalqına qarşı törədilmiş insanlıq əleyhinə və müharibə cinayətlərində həmiştirakçı olmuş və bu cinayətlərə görə Ermənistan dövlətinin məsuliyyət daşıdığı bir daha aydın olmuşdur. Təqsirləndirilən şəxslər sırasında keçmiş qondarma rejimin siyasi və hərbi rəhbərliyində təmsil olunan şəxslərin yer alması onu deməyə əsas verir ki, törədilmiş cinayətlər fərdi deyil, planlı və sistemli xarakter daşımış, təcavüzkar müharibənin hazırlanması və aparılması dövlət səviyyəsində təşkil olunmuşdur. Xüsusilə soyqırımı, müharibə qanun və qaydalarının kobud şəkildə pozulması, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi kimi ittihamlar bu cinayətlərin məqsədli və təşkilatlanmış formada həyata keçirildiyini göstərir.

Levon Mnatsakanyanın etirafları qondarma rejim ordusunun müstəqil olmadığını, Ermənistan ordusunun tərkib hissəsi kimi fəaliyyət göstərdiyini, yüksək siyasi və hərbi vəzifələrə təyinatların İrəvanda təsdiqləndiyini göstərdi. Məhkəmədə Arkadi Arutyunyanın hərbi xidmətdə olması, Bako Saakyanın Şuşanın işğalında iştirakı ilə bağlı faktların da yayıldığı bildirilib. İkinci Dünya müharibəsindən sonra qurulan Nürnberq Tribunalı zamanı nasist Almaniyasının siyasi və hərbi rəhbərləri məhz təcavüzkar müharibənin planlaşdırılması və aparılmasına, mülki əhaliyə qarşı kütləvi zorakılıq aktlarına görə mühakimə olunmuşdular. Bu presedent göstərdi ki, hər hansı siyasi status bu cür cinayətlərə görə kimisə məsuliyyətdən azad etmir.

Beynəlxalq təcrübə göstərir ki, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi əksər hallarda ayrı-ayrı dövlətlərin imkanlarını aşan mürəkkəb hüquqi və siyasi proses olmuşdur. Bu səbəbdən belə cinayətlərin araşdırılması və cəzalandırılması əsasən beynəlxalq mexanizmlər, xüsusi yaradılmış tribunal və məhkəmə strukturları vasitəsilə həyata keçirilmişdir. Tarixdə formalaşmış presedentlər göstərir ki, milli məhkəmə sistemləri təkbaşına bu cür cinayətlərin tam araşdırılmasında həmişə yetərli olmamışdır. Bu baxımdan İkinci Dünya müharibəsindən sonra təsis edilmiş Nürnberq Tribunalı və Tokio Beynəlxalq Hərbi Tribunalı, eləcə də 1993-cü ildə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Tribunalın (ICTY) və 1994-cü ildə Ruanda üzrə beynəlxalq cinayət tribunalı beynəlxalq birliyin müharibə cinayətlərinə qarşı kollektiv hüquqi reaksiyasının bariz nümunələridir. Bütün bu məhkəmə institutları göstərir ki, beynəlxalq cinayətlərin cəzasız qalmasına yol verilməməsi qlobal hüquqi nizamın əsas tələblərindən biridir.

Keçmiş Yuqoslaviya münaqişələri zamanı hərbi cinayətkarların yalnız müəyyən hissəsinin məhkəmə qarşısına çıxarılması beynəlxalq ictimaiyyətin siyasi, hüquqi və maliyyə dəstəyi sayəsində mümkün olmuşdur. Tarixdə buna bənzər çoxsaylı nümunələr mövcuddur. Bu kontekstdə Azərbaycan Respublikasının seçdiyi yol tamamilə fərqli və nadir presedent kimi çıxış edir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini heç bir xarici hərbi müdaxilə olmadan, yalnız milli resurslara və xalqın iradəsinə əsaslanaraq bərpa etmiş, münaqişəyə son qoymuşdur. Bununla yanaşı, həm Birinci, həm də İkinci Qarabağ müharibələri dövründə Azərbaycan xalqına qarşı ağır cinayətlər törətməkdə ittiham olunan şəxslər məhz milli məhkəmələr çərçivəsində ədalət mühakiməsinə cəlb edilmişdir.

Beynəlxalq cinayətlərlə mübarizə beynəlxalq hüququn fundamental prinsiplərinin tətbiqinə əsaslanır, dövlətlərin suveren bərabərliyi və beynəlxalq məsuliyyət öhdəliyi ilə sıx bağlıdır. Bu baxımdan, Azərbaycanın atdığı hüquqi addımlar milli dövləti maraqlarla yanaşı, beynəlxalq birliyin maraqlarına da xidmət edir. Belə ki, beynəlxalq cinayətlərin cəzasız qalması bütövlükdə qlobal təhlükəsizlik və hüquq nizamı üçün ciddi təhdid yaradır.

Məhkəmə prosesinin beynəlxalq cinayət hüququnun əsas prinsiplərindən biri olan universal yurisdiksiya prinsipi əsasında aparılması xüsusi əhəmiyyət kəsb edir. Bu prinsipə görə, insanlıq əleyhinə və müharibə cinayətləri kimi ağır hüquq pozuntuları törətmiş şəxslər cinayətin harada baş verməsindən asılı olmayaraq məsuliyyətə cəlb edilə bilər. Eyni zamanda aparılan məhkəmə prosesi insan hüquqları və ədalətli məhkəmə araşdırması ilə bağlı bütün beynəlxalq standartlara tam uyğun şəkildə təşkil olunmuşdur.

Azərbaycan məhkəmələrinin həyata keçirdiyi bu fəaliyyət mahiyyət etibarilə beynəlxalq məsuliyyət mexanizmlərinin reallaşdırılmasına xidmət edir. Beynəlxalq hüquqda mövcud olan universal yurisdiksiya prinsipi dövlətlərə belə cinayətləri araşdırmaq və günahkarları cəzalandırmaq üçün tam hüquqi əsas verir. Bu, dövlətlərin üzərinə düşən əsas öhdəliklərdən biridir. Azərbaycan Respublikası bu addımları atmaqla təkcə milli ədalətin bərpasını deyil, eyni zamanda üzərinə götürdüyü beynəlxalq öhdəlikləri də vicdanla və prinsipial şəkildə yerinə yetirdiyini nümayiş etdirdi.

Azərbaycan Respublikası bundan sonra da beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq, müharibə və insanlıq əleyhinə cinayətlərin ifşası, günahkarların məsuliyyətə cəlb edilməsi və ədalətin təmin olunması istiqamətində ardıcıl siyasətini davam etdirəcəkdir. Azərbaycanda keçirilmiş məhkəmə prosesi təkcə milli hüquq praktikası baxımından deyil, beynəlxalq hüquq müstəvisində də əhəmiyyətli nümunə kimi qəbul olunacaq. Bakı Hərbi Məhkəməsində aparılmış məhkəmə araşdırması və nəticədə elan edilmiş hökm beynəlxalq hüquq doktrinasında öz yerini tutacaq, beynəlxalq cinayət hüququ üzrə elmi araşdırmalara, hüquq ədəbiyyatına və akademik diskussiyalara daxil ediləcək. Gələcəkdə hüquqşünaslar, tədqiqatçılar və praktik hüquq mütəxəssisləri bu hökmə universal yurisdiksiya, dövlət məsuliyyəti və müharibə cinayətlərinə görə cəzasızlığın aradan qaldırılması kontekstində istinad edəcəklər.

Bu məhkəmə prosesi göstərir ki, ərazi bütövlüyü pozulmuş dövlətlər ədalətin təmin olunması üçün yalnız beynəlxalq tribunal və ya xarici mexanizmlərə bağlı qalmaq məcburiyyətində deyil, milli hüquq institutlarını gücləndirməklə beynəlxalq hüququn tələblərinə uyğun və effektiv ədalət mexanizmi yarada bilərlər. Nəticə etibarilə Azərbaycanın təcrübəsi müasir beynəlxalq hüquqda münaqişələrin hüquqi yolla həllinə dair yeni və real yanaşma kimi qiymətləndiriləcək.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***

**Jurnalist araşdırması**

# *Yeniyetmə zorakılığı:* görünən hadisə, görünməyən səbəblər

**Son zamanlar uşaqlar və yeniyetmələr arasında artan zorakılıq halları, aqressiv davranışlar cəmiyyətdə ciddi narahatlıq yaradır. Məktəb divarları arasında, məhəllələrdə, sosial şəbəkələrdə baş verən insidentlər və artan emosional gərginlik pik həddə çatıb. Bəs həyatın astanasında olan yeniyetmələri bu həddə gətirən təhlükəli səbəblər nələrdir?**



Mütəxəssislər bildirirlər ki, məsələyə yalnız hüquqi və ya intizam prizmasından yanaşmaq kifayət etmir. Problemin kökləri daha dərindir və ailədən başlayaraq məktəb mühitinə, rəqəmsal dünyadan sosial münasibətlərə qədər uzanan çoxşaxəli təsir mexanizmləri var. Uşaqlıq və yeniyetməlik dövrü həm bioloji, həm də psixoloji baxımdan həssas mərhələdir və bu mərhələdə emosional tənzimləmə mexanizmləri hələ tam formalaşmır.

## Ailə emosional təhlükəsizliyin əsas mənbəyidir

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmovun sözlərinə görə, son dövrdə uşaqlar və yeniyetmələr arasında zorakılığın, bıçaqlanma, hətta odlu silahdan istifadə hallarının artması kənardan ani emosional partlayış kimi görünə bilər, amma klinik və inkişaf psixologiyasının dili ilə desək, çox vaxt bu davranışlar uzun müddət yığılan gərginliyin son mərhələdə kəskin şəkildə üzə çıxmasıdır. Yeniyetməlik dövründə beynin özünənəzarət və planlama ilə bağlı sahələri hələ tam formalaşmır, eyni zamanda emosional reaktivlik yüksək olur. Bu balans pozulanda stres fonunda impulsiv qərar vermək asanlaşır. Əsas məsələ odur ki, impulsivlik tək səbəb deyil, adətən əvvəlcədən mövcud olan risklər və həssaslıqlar üzərinə düşən son bir təkanla davranış baş verir.

Psixoloji səbəblər içində ən geniş yayılmış xətt sosial bağlılığın zəifləməsidir. Uşaq ailədə, məktəbdə, sinifdə özünü qəbul olunmuş və dəyərli hiss etmirsə, psixoloji təkliyə düşür. Bu təkliyin içində qəzəb yığılır və bir müddət sonra özünü ya içə yönəlmiş simptomlarla, ya da çölə yönəlmiş aqressiya ilə göstərə bilir. Digər vacib xətt travmatik təcrübələr və zorakılığa şahidlikdir. Uşaq evdə və ya mühitdə zorakılıq görürsə, beynində münaqişənin həlli modeli kimi zorakılıq "mümkün seçim" kimi kodlana bilər. Uşaqlıq travmaları ilə aqressiya və riskli davranışlar arasında əlaqəni göstərən tədqiqatlar bunu vurğulayır. Aqressiyanın qaynaqlandığı ehtiyaclara gəldikdə, bu, ən çox hörmət görmək, təhlükəsizlik, ədalət hissi, özünü ifadə etmək və nəzarət hissidir. Yeniyetmə öz həyatında nəzarəti itirdiyini hiss edəndə, özünü güclü göstərmək üçün sərt davranışa yönələ bilər. Bu səbəbdən bəzən zorakılıq güc deyil, gücsüzlüyün kompensasiyasıdır.

"Ailə uşağın emosional təhlükəsizliyinin əsas mənbəyidir. Valideynlə münasibət, sadəcə, tərbiyə mexanizmi deyil, uşağın stresi necə idarə edəcəyini, münaqişəyə necə cavab verəcəyini, özünü necə ifadə edəcəyini öyrəndiyi psixoloji mühitdir. Ailədə davamlı münaqişə, laqeydlik, sərt cəza, emosional soyuqluq, valideynlərin öz aralarındakı zorakı ünsiyyəti uşağın daxilində iki nəticə yaradır. Birincisi, emosional tənzimləmə bacarığı zəifləyir. İkincisi, münasibətlərdə güc və qorxu dili normallaşır. Bu risk xətti xüsusən uşaqlıq çətinlikləri və ailədaxili zorakılıq riski arasındakı əlaqələri araşdıran tədqiqatlarda da qeyd olunur. Valideyn nəzarəti deyiləndə çoxları sərt kontrolu düşünür, amma psixoloji baxımdan ən qoruyucu yanaşma "maraq, əlaqə və sərhəd" balansıdır. Uşağın gününün necə keçdiyini bilmək, dost çevrəsini tanımaq, rəqəmsal mühitini izləmək, eyni zamanda onu dinləmək və emosiyasını kiçiltməmək çox ciddi qoruyucu faktordur. Nəzarət zəifləyəndə uşaq tək qalır və onu yönləndirən əsas "müəllim" bəzən küçə mədəniyyəti, bəzən sosial şəbəkə, bəzən də riskli qruplar olur. "Məni heç kim başa düşmür" hissi çox kritik siqnaldır. Bu hiss sadəcə kapriz deyil, emosional bağlılığın qırıldığına işarədir. Yeniyetmə özünü anlaşılmayan biri kimi gördükdə içində həm utanc, həm qəzəb yığılır. Bu qəzəb bəzən passiv şəkildə özünə yönəlir, bəzən də aktiv şəkildə başqasına. Xüsusən yeniyetmə düşünürsə ki, danışmaq faydasızdır, o zaman davranış "mesaj vasitəsinə" çevrilir", - deyə mütəxəssis qeyd edib.

## Zəifləmiş sosial məsuliyyət hissi, filtrdən keçməyən impulslar

Bir çoxu baş verən zorakılıq hallarını müasir filmlər və kompüter oyunları ilə əlaqələndirir. Halbuki döyüş və zorakılıq səhnələri əvvəllər də kino sənayesində geniş yer alırdı. Fərq ondadır ki, bu gün reallıqla virtual dünya arasındakı sərhəd əvvəlki kimi aydın deyil. Sanki pərdə aradan qalxıb və insan özünü hadisənin birbaşa iştirakçısı kimi hiss edir. Sual yaranır ki, problem oyunlara həddindən artıq məruz qalmaqdır, yoxsa "nə etsəm də, qarşımdakı zərər görməyəcək" düşüncəsinin formalaşmasıdır. Elnur Rüstəmov bildirib ki, əvvəllər film əsasən passiv izlənmədə idi, indi isə rəqəmsal mühit interaktivdir və davranış sanki "məşq" kimi təkrarlanır. Burada problem daha çox empatiyanın zəifləməsi və nəticə hissinin uzaqlaşmasıdır. Virtual mühitdə edilən hərəkətin real nəticəsi yoxdur, yeniyetmə qarşı tərəfin emosional reaksiyasını görmür, buna görə də "nəticəsizlik illüziyası" yarana bilər. Bu, real həyatda sərhədləri qarışdırmaq deyil, daha çox sosial məsuliyyət hissinin zəifləməsi və impulsların filtrdən keçməməsidir. Ən vacib məqam yenə kontekstdir. Əgər yeniyetmənin real həyatda bağlılığı güclüdürsə, ailə ilə ünsiyyət, məktəbdə mənsubiyyət, emosional dəstək mövcuddursa, rəqəmsal məzmun daha az risklidir. Əgər real həyatda boşluq varsa, rəqəmsal mühit həmin boşluğu doldurur və davranış modellərinə təsir etmə ehtimalı artır.

Sosial şəbəkə psixologiyasında əsas mexanizmlərdən birinin mükafatlandırma olduğunu vurğulayan psixoloq deyib ki, baxış, bəyənmə, paylaşım, şərh yeniyetmə beynində mükafat sistemini aktivləşdirir. Zorakı və ya "şok" məzmun isə daha çox diqqət çəkdiyi üçün çoxlu mükafat ala bilir. Bu zaman normativ sərhədlər zəifləyir və yeniyetmə düşünür ki, görünmək üçün sərt olmaq lazımdır. Burada ikinci xətt sosial status ehtiyacıdır. Yeniyetməlikdə status və "hörmət" çox həssas ehtiyacdır. Özünü zəif hiss edən yeniyetmə "qorxulu obraz" quraraq özünü qorumağa çalışa bilər. Bu, cazibə deyil, müdafiə mexanizmidir. Üçüncü xətt isə sosial mediada empatiyanın azalmasıdır. Ekran arxasında qarşı tərəfin emosiyası görünmür, bu da davranışın mənəvi qiymətləndirilməsini zəiflədir. Bu istiqamətdə son illərdə aparılan tədqiqatlar problemli və ya asılılıq tipli sosial media istifadəsi ilə aqressiv davranışlar arasında əlaqələrə diqqət çəkir. Zorakı məzmunun sosial mediada kim tərəfindən paylaşıldığı, yaxın çevrədən gəlməsi, həmçinin yeniyetmənin öz risk profili kimi faktorların təsirini dəyişdirdiyini göstərən yeni tədqiqatlar da var.

## "Depressiya, travma riskləri artırır"

Məktəb mühiti uşağın gündəlik sosial laboratoriyasıdır. Elnur Rüstəmovun sözlərinə görə, burada psixoloji dəstək zəifdirsə, riskli davranışlar vaxtında görünmür, bullinq normallaşır və uşaqlar özlərini qorunmayan hiss edirlər: "Məktəbə mənsubiyyət hissi və məktəblə əlaqə qoruyucu faktorlardandır, bu xətti xüsusən silah və zorakılıq riskləri kontekstində araşdıran tədqiqatlar da vurğulayır. Bullinq qurbanı olmaq gələcəkdə zorakılığa meyli artıran yollar yarada bilər. Bu, avtomatik qayda deyil, amma risk mexanizmi aydındır. Uşaq davamlı təhqir, alçaltma, sosial kənarlaşdırma yaşayanda həm qəzəb, həm də intiqam fantaziyası yığıla bilər. Uzunmüddətli meta analizlər bullinq qurbanlığı və bullinq törətmə arasında qarşılıqlı, zamanla təsir edən əlaqələr tapır. Bu o deməkdir ki, rollar sabit deyil, mühit dəyişməz qalanda qurbanın aqressora çevrilmə ehtimalı artır. Belə hadisələri törədən yeniyetmələrdə tez-tez impulsların idarəsində çətinlik, sosial informasiya emalında təhriflər, düşmən niyyət axtarma, empatiya zəifliyi, xroniki qəzəb, aşağı öz dəyər hissi və bəzən də travma izləri görülür. Bullinq və aqressiya arasındakı əlaqədə qəzəb üzərində ruminasiyanın, yəni mənfi fikirləri dövr etdirməyin rolunu göstərən tədqiqatlar da bu mexanizmi izah edir. Riskin erkən aşkarlanması sinif iqliminin yaxşılaşdırılması, müəllimlərin sosial emosional bacarıqlar üzrə hazırlanması, bullinqə sıfır tolerantlıq mədəniyyəti və valideynlə koordinasiya bir sistem kimi işləməlidir".

Psixoloq qeyd edib ki, depressiya, travma və aşağı özdəyər hissi riskləri artırır, çünki bu vəziyyətlərdə yeniyetmə həm emosional tənzimləmədə çətinlik yaşayır, həm də özünü təhlükədə hiss edə bilər. Travmanın aqressiya və riskli davranışlarla əlaqəsini göstərən işlər bunu vurğulayır. Depressiya ilə bağlı isə tədqiqatlar sosial bağlılığın qoruyucu rolunu önə çıxarır, yəni depressiv fon, tənha qalma və məktəbə bağlılığın zəifləməsi riskləri böyüdə bilər. Erkən hiss etmək mümkündür, çünki davranış dəyişiklikləri adətən siqnalsız gəlmir. Valideynlər ən çox bunlara diqqət etməlidir. Uşağın xarakterinə uyğun olmayan kəskin dəyişiklik, tez əsəbləşmə, daimi qıcıqlanma, yuxu və iştaha pozuntuları, sosial çevrədən uzaqlaşma, dərsə marağın enməsi, evdə qayda pozuntularının artması, gizlilik və yalanın çoxalması, riskli dost çevrəsi ilə qəfil yaxınlaşma, məktəbdə konfliktlərin artması, bullinqə dair ipucları, özünü ifadə edərkən ümidsiz və qara düşüncələrin çoxalması. Burada əsas məsələ uşağı sorğu-sual altında boğmaq deyil. Uşaq bilməlidir ki, onu dinləyən və anlayan bir böyük var.

"Emosiyaları sağlam ifadə etmək sosial emosional bacarıqdır və bu öyrədilir. Uşağa hissləri adlandırmaq, bədən siqnallarını tanımaq, qəzəbin yüksəldiyi anda dayanmaq, nəfəs və özünənəzarət texnikaları, konflikt həlli dili, sərhəd qoymaq, kömək istəmək bacarığı aşılanmalıdır. Bu, ailədə gündəlik ünsiyyətlə, məktəbdə sinif iqlimi və müəllim yanaşması, həmçinin psixoloji xidmətin sistemli işi ilə mümkündür. Mütəxəssisə müraciət üçün əsas prinsip budur. Əgər emosional və davranış problemi funksionallığı pozursa, yəni uşağın dərs, ailə, sosial münasibətləri ciddi zədələnirsə, gecikmək olmaz. Uzunmüddətli aqressiya, tez-tez konfliktlər, özünə və ya başqasına zərər riski, ciddi depressiv əlamətlər, panik və ya kəskin narahatlıq, travmadan sonra davamlı kabuslar və qorxular, maddə istifadəsi şübhəsi, məktəbə getməmək, kəskin sosial izolasiya olduqda psixoloqa müraciət edilməlidir. Əgər simptomlar ağırdırsa, reallıqla əlaqə pozulur, ciddi davranış nəzarətsizliyi var, dərman müalicəsi ehtimalı yaranırsa, psixiatrın qiymətləndirməsi vacibdir", - deyə mütəxəssis vurğulayıb.

Uşaq və yeniyetmələr arasında artan zorakılıq halları ailədən məktəbə, rəqəmsal mühitdən sosial münasibətlərə qədər bir çox amilin kəsişdiyi nöqtədə yaranan psixoloji siqnaldır. Problemi yalnız hüquqi müstəvidə dəyərləndirmək kifayət deyil. Əsas məsələ cəzanı sərtləşdirmək yox, riskləri erkən görmək, emosional bağlılığı gücləndirmək və uşaqlara sağlam özünüifadə yolları öyrətməkdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "ExxonMobil" korporasiyası ilə əməkdaşlığın inkişafı müzakirə edilib

**İqtisadiyyat Nazirliyində ABŞ-nin "ExxonMobil" korporasiyasının qlobal qeyri-ənənəvi kəşfiyyat üzrə meneceri Kit Simpson ilə görüşdə əməkdaşlığın genişləndirilməsi müzakirə edilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-nin "ExxonMobil" korporasiyasının qlobal qeyri-ənənəvi kəşfiyyat üzrə meneceri Kit Simpson ilə görüşüb.

Görüşdə Azərbaycanın iqtisadi prioritetləri, əlverişli biznes və investisiya mühiti, eləcə də xarici investorların ölkəmizə artan marağı xüsusi olaraq vurğulanıb.

"ExxonMobil" şirkətinin Azərbaycanda "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri kimi layihələrdə uzunmüddətli fəaliyyətindən məmnunluq ifadə olunub. Ölkəmizin neft-qaz potensialının reallaşdırılması istiqamətində SOCAR ilə əməkdaşlığın prioritetləri və Azərbaycanda potensial qeyri-ənənəvi neft ehtiyatlarının qiymətləndirilməsi üzrə görülmüş işlər barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, "ExxonMobil" neft və təbii qazın kəşfiyyatı, işlənməsi və hasilatı, həmçinin neft, neft-kimya və xüsusi təyinatlı məhsulların istehsalı, ticarəti və daşınması sahəsində fəaliyyət göstərən iri sənaye şirkətidir. Şirkət enerji təhlükəsizliyinin gücləndirilməsi və enerji keçidinin sürətləndirilməsi məqsədilə daha az emissiya texnologiyalarının inkişafını və tətbiqinə investisiya qoyuluşlarını təşviq edir.

## Ötən ay DSMF-nin xərcləri 626 milyon manat olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin yanvar ayında proqnozla müqayisədə 26 faiz və ya 154 milyon manat çox olmaqla 755 milyon manat təşkil edib.**



Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 3 faiz və ya 12 milyon manat artaraq 470 milyon manat olub.

Yanvar ayında DSMF-nin xərcləri 626 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 9 faiz və ya 52 milyon manat çoxdur.

# Bakının növbəti qardaşı Əbu-Dabi olacaq

## Azərbaycan və BƏƏ paytaxtları arasında bu barədə Anlaşma Memorandumu imzalanıb

**Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında dostluq getdikcə daha da möhkəmlənir və əməkdaşlıq genişlənir. Ali səviyyədə qarşılıqlı səfərlər, ölkələrimizin parlamentlərinin, ayrı-ayrı nazirliklərinin və digər təşkilatlarının nümayəndələrinin görüşləri, birgə reallaşdırılan sanballı layihələr əlaqələrin daha sıx və faydalı olmasına təkan verir.**





Bütün bunlar hər iki ölkədə yüksək dəyərləndirilir. Elə bu ayın əvvəlində Prezident İlham Əliyevin BƏƏ-yə işgüzar səfəri zamanı ona "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması dövlətimizin başçısının yeritdiyi uğurlu siyasətə verilən yüksək qiymətin təzahürüdür.

Prezident İlham Əliyev dəfələrlə bu ölkəyə səfərlərə gedib. BƏƏ-nin lideri də Azərbaycanda səfərlərdə olub. Xüsusilə də BƏƏ-nin Prezidentinin keçən ilin sentyabrında işğaldan azad olunmuş ərazilərimizə səfər etməsi mühüm əhəmiyyət daşıyır. Xatırladaq ki, Prezidentimiz onu Füzuli Beynəlxalq Hava Limanında qarşılamışdı.

Şuşada isə Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın rəsmi qarşılanma mərasimi keçirilmişdi. BƏƏ Prezidenti Daşaltı kəndini, Cıdır düzünü görmüş, Milli Xalça Muzeyinin Şuşa filialında olmuşdu. Azərbaycan və BƏƏ arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi də hər iki Prezidentin iştirakı ilə Şuşada keçirilmişdi. Bunların sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Energetika və İnfrastruktur Nazirliyi arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında Azərbaycan Respublikasının "yaşıl enerji" zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə XRG ASC arasında "Cənub qaz dəhlizi"ndə investisiya haqqında Anlaşma Memorandumu" da vardı.

Yeri gəlmişkən: son illər ərzində Azərbaycan-BƏƏ iqtisadi əlaqələri də yüksələn xətlə inkişaf edir. Bu, enerji əməkdaşlığında özünü daha aydın göstərir. Təkcə o faktı qeyd etmək kifayətdir ki, "Masdar" Bakıda Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyasını tikib.

230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası 2023-cü il oktyabrın 26-da işə salınıb. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmaqla 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək. Bir sözlə, ölkəmizin öz "yaşıl gündəlik" prioritetlərinə doğru atdığı inamlı və uğurlu addımlardan biri də məhz BƏƏ ilə əməkdaşlığımızın bəhrəsi olan "Qaradağ"ın tikintisinin başa çatdırılıb istifadəyə verilməsidir.

2024-cü il iyunun 4-də "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışı zamanı Neftçala, Biləsuvar günəş-elektrik stansiyalarının və Abşeron-Qaradağ Külək-Elektrik Stansiyasının təməlləri qoyulub. İndi bu "yaşıl enerji" layihələri özlərinin icrasının müxtəlif mərhələlərindədir.

Azərbaycan-BƏƏ əməkdaşlığı getdikcə şaxələnir, daha çox sahələri əhatə etməyə başlayır. Bu günlərdə BƏƏ-nin paytaxtı Əbu-Dabinin Bələdiyyələr və Nəqliyyat Departamentinin sədri Məhəmməd Əli Əl-Şorafanın nümayəndə heyətinin Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovla görüşü də deyilənləri bir daha təsdiqləyir.

Görüşdə Bakı haqqında məlumat verən Eldar Əzizov bildirib ki, Prezident İlham Əliyevin siyasəti nəticəsində bu gün Bakı şəhəri keyfiyyətcə yeni səviyyəyə yüksəlib və bu proses uğurla davam edir.

Azərbaycan və BƏƏ arasında uzun illərdən bəri davam edən dostluq münasibətlərinə toxunan Məhəmməd Əli Əl-Şorafa qeyd edib ki, ölkəsində Azərbaycanla əlaqələrə xüsusi önəm verilir. Bakı şəhərinin sürətli inkişafını, şəhər idarəçiliyinin effektivliyini xüsusilə qeyd edən qonaq iki paytaxt şəhərin bir-birindən çox şeyi öyrənəcəyinə ümidvar olduğunu bildirib. O deyib: "Bu mənim şəhərinizə ilk səfərimdir və gördüklərimi nəzərə alaraq sonuncu olmadığına əminəm".

Bu, belə də olacaq - paytaxtlarımız arasında gediş-gəliş daha da çoxalacaq. Çünki sözügedən görüş çərçivəsində Bakı şəhəri və Əbu-Dabi şəhəri arasında qardaşlaşma münasibətlərinin yaradılması haqqında Anlaşma Memorandumu imzalanıb.

Odur ki, bu şəhəri yaxından tanıyaq: Əbu-Dabi BƏƏ-nin paytaxtı və ən böyük əmirliyidir. Şəhərin özündə və ətrafında yaşayan əhalinin sayı ümumilikdə 1,5-2 milyon nəfər təşkil edir. Burada səhra iqlimi hökm sürür, yəni hava çox isti və qurudur.

Coğrafi yerləşmə isə xeyli maraqlıdır. Belə ki, şəhər Fars körfəzinin sahilində yerləşir və əsasən ada üzərində qurulub, körpülərlə materikə birləşdirilib.

Qədimdə Əbu-Dabi balıqçılıq və mirvari dağçılığı ilə tanınırdı. Keçən əsrin 50-60-cı illərində burada neftin tapılması şəhərin sürətli inkişafına təkan verdi. Nəticədə Əbu-Dabi ölkənin ən böyük və zəngin əmirliyinə çevrildi.

Lakin şəhərin gəlir mənbəyi təkcə neft və qaz deyil. Bu sırada turizm, tikinti və daşınmaz əmlak, maliyyə və investisiya, aviasiya sahələri də dayanır. Ümumiyyətlə, Əbu-Dabi dünyanın ən varlı bölgələrindən sayılır.

Şəhərin bir çox görməli yeri və memarlıq abidəsi də var. Ən məşhur simvolu isə Şeyx Zayed Böyük Məscididir. Burada müasir göydələnlər, geniş yollar da göz oxşayır. Şəhərin çoxsaylı parkları, sahil bulvarları, lüks hotelləri və böyük ticarət mərkəzləri həmişə izdihamlıdır.

Nəqliyyat vasitəsi kimi Əbu-Dabidə taksi geniş yayılıb. Avtobus sistemi də mövcuddur, metro isə nisbətən zəifdir. Əbu-Dabi Dubaya nisbətən sakit və "rəsmi" şəhərdir.

Bu, bir müsəlman şəhəridir. Lakin çoxmillətlidir və turistlər üçün çox rahatdır. Burada açıq-saçıq geyimlərdən uzaq durmağa üstünlük verilir. İctimai yerlərdə sərxoş olmaq qadağandır. Davranışlarda mədəni olmaq vacibdir.

Əbu-dabililər Bakını çox bəyənirlər. Bunu şəhərin Bələdiyyələr və Nəqliyyat Departamentinin sədri Məhəmməd Əli Əl-Şorafanın Bakı Şəhər İcra Hakimiyyətində keçirilən görüşdə dediyi sözlər də təsdiqləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# BP 2025-ci ilin hesabatını açıqlayıb

**BP şirkəti Azərbaycanda əməliyyatçısı olduğu neft, qaz, ixrac və "yaşıl enerji" layihələri üzrə keçən ilin hesabatını açıqlayıb. Həmişə olduğu kimi, yenə də ilk məlumat "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi barədədir. Bildirilir ki, 2025-ci il ərzində bu yataqlar blokundan stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib.**



AÇG-dən - "Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və ACE platformalarından ümumi hasilat gündə orta hesabla 330 min barel, il ərzində ümumilikdə təxminən 120 milyon barel, yəni 16 milyon ton olub.

Ötən il AÇG-nin iki platforması öz yubileyini qeyd edib. Fevralın 18-də "Mərkəzi Azəri"nin, dekabrın 30-da isə "Qərbi Azəri"nin ilk neft verməsinin 20 ili tamam olub.

Hazırda AÇG-də ümumilikdə 147 neft hasilatı, 49 su injektor və 10 qaz injektor quyusu istismardadır.

AÇG-də aparılan dördölçülü (4D) yüksəkdəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində 2025-ci il ərzində 2024-cü ildə əldə olunmuş məlumatların emalı uğurla tamamlanıb və növbəti məlumatların toplanması işləri başa çatıb. Bundan əlavə, AÇG-nin "Dərinsulu Günəşli" ərazisində bir çox quyuda sualtı müdaxilə əməliyyatları başlanıb.

İl ərzində AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə 2,7 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Məlum olduğu kimi, AÇG üzrə mövcud Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) sərbəst təbii qazla (STQ) bağlı yeni əlavənin imzalanmasından sonra ilkin hasilat quyusu planlaşdırılmışdı. Quyu artıq "Qərbi Çıraq" platformasından təhlükəsiz şəkildə qazılıb. Quyu ilk STQ hasilatı üçün əsas hədəf lay sayılan Qırmakıüstü Qumlu lay dəstində qaz ehtiyatlarının mövcudluğunu təsdiqləyib. Bu laydan hasilat cari ilin ikinci yarısına planlaşdırılır.

Səngəçal terminalından isə neftin və qazın ixracı uğurla davam edir. 2025-ci ildə AÇG və "Şahdəniz" yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə terminala göndərilməsi ahəngdar gedib. Bu da il ərzində terminaldan təxminən 209 milyon barel neft və kondensatın ixrac edilməsinə imkan verib. Bu həcmin hamısı Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri vasitəsilə nəql olunub.

Yeri gəlmişkən, BTC boru kəməri 2006-cı ilin ortalarında istismara veriləndən keçən ilin sonunadək ümumilikdə təqribən 619 milyon ton (4,7 milyard bareldən çox) xam neft nəql edib və həmin həcmlər Ceyhanda 6145 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Ötən il BTC vasitəsilə ixrac olunmuş təqribən 27 milyon ton (təxminən 207 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 283 tankerə yüklənib və yola salınıb.

Hazırda BTC əsasən Azərbaycandan AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın Azərbaycanda hasil edilmiş digər həcmləri) də nəql olunur.

Qaz isə Səngəçal terminalından genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri (CQBK) sistemi də daxil olmaqla, əsasən CQBK və terminalın qaz emalı obyektlərini "Azəriqaz" sistemi ilə birləşdirən Azərbaycana məxsus kəmərlə ixrac edilir. İl ərzində terminaldan həmçinin gündə orta hesabla təxminən 74,4 milyon standart kubmetr (təxminən 2 milyard 628 milyon standart kubfut) "Şahdəniz" qazı göndərilib.

Qeyd edək ki, BP indi bir möhtəşəm "yaşıl enerji" layihəsinə də operatorluq edir. Bu, Cəbrayıl rayonunda inşa edilən "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsidir.

Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi (STEL) də bu stansiya ilə sıx bağlıdır. Bu mexanizmə əsasən, "Şəfəq" stansiyası elektrik enerjisi istehsal edərək onu Cəbrayıl rayonunda "Azərenerji"yə verəcək, "Azərenerji" isə eyni həcmdə elektrik enerjisini Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, "Şəfəq" və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların təxminən 50 faiz azaldılmasına imkan yaradacaq. Sözügedən hesabatda bildirilir ki, hər iki layihə üzrə işlər qrafikə uyğun gedir.

"Şahdəniz"də də işlər rəvandır. İl ərzində yataqdan Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyektlər üçün BTC-yə və Avropadakı alıcılara qaz çatdırılması davam edib. Ümumilikdə "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından təqribən 27 milyard standart kubmetr qaz və təxminən 4 milyon ton (təqribən 32 milyon barel) kondensat hasil edilib.

2,9 milyard dollar dəyərində olan "Şahdəniz Kommersiya" layihəsi də qrafikə uyğun irəliləyir. Bu layihənin məqsədi yataqdakı aşağıtəzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

BP-nin illik hesabatında icrasının müxtəlif mərhələlərində olan axtarış-kəşfiyyat layihələri, eləcə də sosial təşəbbüsləri haqqında da geniş məlumat var.

***"Azərbaycan"***

## Ötən ay ÜDM istehsalı 1,7 faiz artıb

**2026-cı ilin yanvar ayında ölkədə 9078,7 milyon manatlıq və ya əvvəlki ilin yanvar ayı ilə müqayisədə 1,7 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri-neft-qaz sektorunda isə 2,3 faiz artmışdır.

ÜDM istehsalının 33,9 faizi sənaye, 11,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi tikinti, 3,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,2 faizi informasiya və rabitə sahələrinin, 23,4 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 11,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 884,5 manata bərabər olmuşdur.

## Yanvarda əsas kapitala 1,4 milyard manatdan çox vəsait yönəldilib

**Yanvar ayında əsas kapitala 1 milyard 405,9 milyon manat məbləğində, yaxud əvvəlki ilin yanvar ayı ilə müqayisədə 75,6 faiz çox investisiya yönəldilmişdir.**



Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 78,3 faiz, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 73,9 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 758,6 milyon manatı və ya 54,0 faizi məhsul istehsalı sahələrinə, 551,0 milyon manatı (39,2 faizi) xidmət sahələrinə, 96,3 milyon manatı (6,8 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 1004,0 milyon manatını və ya 71,4 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 577,2 milyon manatı və ya 41,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.






# Gənclik






**İstedadlar**

## Biz yeniyetmələrə yaradılan şəraitə görə dövlətə borcluyuq

**Ulu Öndər Heydər Əliyev deyib: "Bizim xalqımızın gələcəyi gənclərdir. Gənclər isə gərək həm fiziki cəhətdən sağlam olsunlar, həm də yüksək şüura, yüksək biliyə, yüksək əxlaqa, yüksək tərbiyəyə, yüksək elmə malik olsunlar".**



Ümummilli Liderimizin çox zəngin irsini öyrənərkən onun uşaqlara, gənclərə olan isti münasibətinin, xüsusən də ölkəmizin daha xoşbəxt gələcəyini təmin edəcək nəslə göstərdiyi qayğı və diqqətin şahidi oluruq. Ulu Öndərin hələ 1997-ci il fevralın 1-də imzaladığı sərəncamla hər il fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda Gənclər Günü qeyd edilir. Yalnız bizdən 2 il sonra BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 Avqust - Beynəlxalq Gənclər Günü elan olunub.

Ulu Öndər Heydər Əliyevin 1994-cü il 26 iyul tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradılıb ki, bu da ölkənin ictimai-siyasi həyatında gənclərin fəallığını daha da artırmağa xidmət edirdi. Bunlardan əlavə, Ümummilli Liderin təşəbbüsü ilə 1996-cı ildən Azərbaycan gənclərinin forumları keçirilir. Forumlarda ölkənin qabaqcıl gəncləri bir araya gələrək mühüm məsələləri müzakirə edirlər.

Sonuncu - XI Forum cari il fevralın 2-də Gülüstan sarayında keçirildi. Tədbirdən öncə forum iştirakçıları Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etdilər. Sevindirici haldır ki, Azərbaycan Gənclərinin ilk forumunun 30 illik yubileyi çərçivəsində keçirilən tədbir fevralın 3-də Xankəndi Konqres Mərkəzində davam etdi. Bu, Prezident İlham Əliyevin Ümummilli Liderin vəsiyyətini yerinə yetirməsi sayəsində mümkün oldu.

Hər bir sahədə olduğu kimi, gənclər siyasəti sahəsində də Ulu Öndərin bütün arzuları indi həyata keçib. Bu arzuları reallaşdıran isə xalqımızın lideri Prezident İlham Əliyevdir. Prezident İlham Əliyev deyib: "İndiki gənclər üçün imkanlar təbii ki, daha genişdir və gənclər bu imkanlardan istifadə etməlidirlər. Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar".

Ulu Öndərin ideyalarının yaşadılmasında 2004-cü il mayın 10-da ölkəmizdə yaradılmış Heydər Əliyev Fondu əvəzsiz rol oynayır. Fondun əsas fəaliyyət istiqamətlərindən birini təhsil sisteminin qabaqcıl dünya standartları əsasında təkmilləşdirilməsi təşkil edir. Buna misal olaraq mənim təhsil aldığım məktəbi nümunə göstərmək olar.

Bakıda yaşayan yəhudi uşaqları üçün "Xabad-Or-Avner" Təhsil Mərkəzi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən inşa edilib. 2007-ci il mayın 31-də Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə mərkəzin təməlqoyma mərasimi keçirilmiş, tikintisi 2010-cu ildə başa çatmışdır. 2010-cu il oktyabrın 4-də Azərbaycan Przidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Anver" Beynəlxalq Fondunun prezidenti Lev Levayev təhsil mərkəzinin açılışında iştirak etmişlər.

Məktəbimiz Bakının Xətai rayonunda yerləşir. Üçmərtəbəli bina müasir tələblər səviyyəsində inşa olunub. Burada müasir avadanlıq və lazımi dərs vəsaitləri ilə təchiz edilən 30 sinif otağı, 700 kvadratmetr sahədə süni örtüklü açıq stadion var.

2021-ci ildən etibarən "Xabad-Or-Avner" məktəbi 152 nömrəli tam orta ümumtəhsil məktəbi kimi fəaliyyətini davam etdirir. Məktəbimizdə şagirdlərin azərbaycançılıq ideyaları, vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük diqqət göstərilir. Vaxtaşırı olaraq Heydər Əliyev Mərkəzinə təşkil edilən ekskursiyalarda Ümummilli Liderin həyat və fəaliyyətini əks etdirən materiallarla tanış olur, Fəxri xiyabanda məzarını ziyarət edirik. Bundan əlavə, məktəbimizdə Ulu Öndərə həsr olunmuş müxtəlif tədbirlər, inşa yazıları, rəsm müsabiqələri və idman yarışları keçirilir.



Ölkəmizdə gənclərin inkişafı üçün yaradılan şəraitdən bəhrələnərək özüm bir çox uğura imza atmışam. Azərbaycanda keçirilən Dünya Robot Olimpiadasında 3-cü yerə layiq görülmüşəm, "Sabahın Alimləri" XIV Respublika Müsabiqəsində Kompüter elmləri kateqoriyası üzrə 3-cü pilləyə qalxmışam, İqtisadi və Sosial İnkişaf Mərkəzi tərəfindən 2025-ci ildə təşkil olunan Top 10, Milli İqtisadiyyat Olimpiadasının iştirakçısıyam. Hetsiba Proqramı çərçivəsində "İsrail 75 yaşında", "İbri dili" olimpiadalarında finala çıxmışam və yəhudi məktəbliləri arasında 2-ci yeri qazanmışam. Çexiya Respublikasında nəşr olunan "İqlim dəyişikliyi dövründə yenilənə bilən enerjisaxlamanın səmərəliliyinin proqnozlaşdırılması və optimallaşdırılması" məqaləsinin müəlliflərindən biriyəm, rus bölməsi üçün nəşr olunan "Azərbaycan dili" dərs vəsaitindəki Azərbaycan sözlərini rus dilinə tərcümə etmişəm. Bunlardan əlavə, Astanada keçirilən "MDB üçün 100 ideya" beynəlxalq gənclər layihəsinin "İT-Sfera" kateqoriyası üzrə finalçısıyam.

***Ayan NƏZƏRƏLİYEVA,***
***Bakıdakı 152 saylı tam orta ümumtəhsil məktəbinin XI sinif şagirdi***

**Uğura imza atanlar**

## Ağ xalatın məsuliyyəti

**İnsanın arzuları uşaqlıq illərinin saf, təmiz dünyasında doğulur və o, böyüdükcə taleyinə çevrilir. Ağ xalat geyinmək, insanların sağlamlığının keşiyində dayanmaq, bir ürəyin yenidən döyünməsinə, bir gözün yenidən ümidlə açılmasına səbəb olmaq arzusu adi bir peşə seçimi deyil, ilahi bir missiyadır.**



İnsana ömrü Allah bəxş edir, lakin o ömrün sağlam, ağrısız davam etməsi üçün çalışan məhz həkimlərdir. Təsadüfi deyil ki, xəstə həkimin şəfqət dolu münasibətindən həyat eşqi, gülümsər baxışından təsəlli, qayğıkeş sözlərindən güc alır. Elə anlar olur ki, bir həkimin səmimi rəftarı, əlini xəstənin çiyninə qoyaraq dediyi "hər şey yaxşı olacaq" kəlməsi ən təsirli dərmandan da güclü olur. Bəzən saatlarla, bəzən də günlərlə ağır xəstənin başı üstündə dayanan, yorğunluğunu həyata qaytardığı xəstənin baxışlarında unudan həkim, əslində, təkcə müalicə etmir, mərhəmətli, qayğıkeş rəftarı ilə xəstənin ürəyində ümid çırağı yandırır. Xəstə düşdüyü mərəz ilə uzun mübarizədən sonra gözlərini açanda ilk gördüyü onu müalicə edən həkimin sevincdən parıldayan qayğılı gözləri olur. Və o an həkimin gülümsər, işıqsaçan baxışı xəstənin qəlbinə süzülərək ona sanki yenidən yaşamaq haqqı qazandırır.

Belə bir müqəddəs yolun yolçusu olan gənc həkimin hekayəsi isə təkcə bir insanın peşə seçimi deyil, uşaqlıq arzularının gerçəkləşməsidir. Həmin həkim Xanım Əliyevadır. O, Gəncədə dünyaya göz açıb. Orta təhsilini isə Bakı şəhərindəki 3 saylı tam orta məktəbdə alıb. Təhsil aldığı illərdə dərslərinə məsuliyyətlə yanaşan, xüsusilə biologiya və insan anatomiyasına böyük maraq göstərən Xanım Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsinə daxil olub. Universiteti başa vuran Xanım Əliyeva Şüa diaqnostikası üzrə internaturanı tamamlayandan sonra həkim kimi fəaliyyətə başlayıb.

Xanım həkimlə çalışdığı Hacıqabul Rayon Mərkəzi Xəstəxanasının Şüa diaqnostika şöbəsində görüşdük. Xəstəxananın dəhlizinə daxil olan kimi ilk diqqəti çəkən məqam otağının qarşısındakı uzun növbə oldu. Bu növbə bir həkimə olan etimadın və inamın sübutu idi. Növbə gözləyən insanların söhbətlərindən "Xanım həkim diqqətlidir, hər şeyi ətraflı izah edir, xəstəyə doğması kimi yanaşır" sözlərini eşitdik. Onlar həkimin bilik və bacarığından, dəqiq diaqnoz qoymaq qabiliyyətindən, ən əsası isə xəstəyə göstərdiyi qayğıkeş münasibətindən razılıqla danışırdılar. Bu məmnunluq səmimi idi, süni təşəkkür ifadəsi yox, insanın içindən gələn minnətdarlıq idi. Bu etimadı gənc bir həkimin qısa zamanda qazandığı ən böyük uğur kimi qəbul etmək olar.

Xanım Əliyeva 2023-cü ildən Hacıqabul Rayon Mərkəzi Xəstəxanasında Şüa diaqnostika şöbəsinin müdiri və həkim-radioloqudur. O, Azərbaycan və Avropa Radioloqları cəmiyyətlərinin, AFERG-in, ASVXM-in və Woman Health Centerin həqiqi üzvüdür. Deyir ki, bu cəmiyyətlərdə iştirakı ona beynəlxalq təcrübəni izləmək, yeni diaqnostik yanaşmaları öyrənmək və onları gündəlik tibbi praktikada tətbiq etmək imkanı verir.

Xanım Əliyeva öz üzərində çalışmağı, tibb elminin son yeniliklərini öyrənib tətbiq etməyi çox sevir. Elmi fəaliyyətə xüsusi önəm verən həkim iki elmi tezisin müəllifidir. Bu haqda danışarkən deyir: "I Milli Süd Vəzi Xəstəlikləri Konqresində Süd vəzi xərçəngi, Yarımçıq Doğulmuş Körpələr Gününə və Uşaqlıq boynu xərçəngi ayına həsr olunmuş maarifləndirici seminarlarda təlimçi-spiker kimi iştirak etmişəm, çünki bu mövzular cəmiyyət üçün həyati əhəmiyyət daşıyır".

Onun fəaliyyətində TƏBİB-in xətti ilə 10 rayonda aparılan 1500-dən çox səyyar mammoqrafiya müayinəsinin nəticələrinin raporlanması xüsusi yer tutur. Gənc həkim vurğulayır: "Bu, statistik rəqəm kimi görünsə də, əslində, minlərlə qadının taleyi, minlərlə ailənin gələcəyi deməkdir. Burada əsas məqsəd xəstəliklərin erkən mərhələdə aşkarlanmasına töhfə vermək və qadınların sağlam gələcəyinə dəstək olmaqdır".

Müasir dövrdə tibbin yalnız xəstəxana divarları ilə məhdudlaşmadığını deyən Xanım Əliyeva sosial şəbəkələrdən də fəal istifadə edir. Onun fikrincə, məlumatlı pasiyent - sağlam cəmiyyət deməkdir. O, erkən diaqnostikanın əhəmiyyətini xüsusilə qabardır və vurğulayır ki, vaxtında aparılan müayinə bir çox xəstəliyin tam sağalmasına imkan yaradır. Hamiləlik dövründə müayinələrin əhəmiyyətinə xüsusi diqqət çəkən radioloqun sözlərinə görə, bu mərhələdə aparılan diaqnostika təkcə dölün deyil, ananın da sağlamlığını tam şəkildə qiymətləndirməlidir. "Sağlam ana - sağlam övlad deməkdir", - deyə o bildirir.

Söhbətimizin sonunda isə onun həkimlik fəlsəfəsi aydın şəkildə formalaşır: "Mənim üçün həkimlik, sadəcə, bir peşə deyil, həm də həyatdakı missiyamdır. Yaxşı həkim olmağın sirri pasiyentlə empatiya qurmaq, hər zaman əlçatan olmaq və durmadan öz üzərində çalışmaqdır. Radiologiya tibbin görən gözüdür və düzgün diaqnoz müalicənin yarısıdır".

Xanım Əliyevanın sözlərində həm peşəkar əminlik, həm də daxili məsuliyyət hissi var. Hiss olunur ki, qarşıdakı illərdə də o, seçdiyi bu müqəddəs yolun yolçusu kimi xalqına faydalı olmağı özünə borc biləcək.

Bu gün Hacıqabul xəstəxanasının dəhlizində növbə gözləyən insanlar üçün Xanım həkim, sadəcə, bir radioloq deyil, həm də ümidin ünvanıdır. Xanım həkim üçün ağ xalat məsuliyyət, şəfqət və insan həyatı deməkdir. Həkimlik onun üçün peşə yox, vicdan məsələsidir. Və belə vicdanla çalışan həkimlərin olduğu cəmiyyətdə sağlam gələcəyə inam daha möhkəm olur. Xanım Əliyeva seçdiyi bu müqəddəs peşənin bir həqiqətini də hər gün fəaliyyəti ilə sübut edir: insan həyatına toxunan həkim əlləri, əslində, gələcəyə işıq yandırır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

**Gələcəyə dəstək**

## "Könüllülük Akademiyası" layihəsi çərçivəsində növbəti tədbirin ünvanı Neftçala olub



**Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi, Gənclər və İdman Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə Neftçala Olimpiya İdman Kompleksində "Könüllülük Akademiyası" layihəsi çərçivəsində düşərgə təşkil olunub. Düşərgədə ölkənin müxtəlif regionlarında fəaliyyət göstərən 15 "Gənclər evi" sosial xidmət müəssisəsinin könüllülərindən ibarət 50 nəfərlik heyət iştirak edib.**

Bu günlər iştirakçılar rayon rəhbərliyi ilə görüşmüşlər. RİH-in başçısı M.Seyidov çıxış edərək gənclərin cəmiyyətin inkişafında aparıcı qüvvə olduğunu vurğulayıb. Bildirib ki, gənclərə göstərilən dövlət dəstəyi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət və gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin göstəricisidir: "Dövlət başçısının rəhbərliyi ilə ölkədə gənclərin təhsili, sosial müdafiəsi, məşğulluğu, ictimai fəallığının artırılması, həmçinin könüllülük hərəkatının genişləndirilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir". RİH-in başçısı qeyd edib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərin hərtərəfli inkişafına, onların intellektual, mənəvi potensialının artırılmasına göstərdiyi diqqət və qayğı xüsusi əhəmiyyət daşıyır. M.Seyidov bildirib ki, könüllülük fəaliyyəti gənclərdə məsuliyyət, vətənpərvərlik, liderlik, sosial həmrəylik, ünsiyyət və komanda ilə işləmək bacarıqlarının formalaşmasında mühüm rol oynayır. O, müasir dövrdə gənclərin sosial aktivliyinin artırılmasının, kommunikasiya bacarıqlarının inkişaf etdirilməsinin və onların vaxtdan səmərəli istifadə etmələrinin xüsusi əhəmiyyəti olduğunu diqqətə çatdırıb, gənclərin süni intellekt və rəqəmsal texnologiyalardan düzgün, məqsədyönlü istifadə bacarıqlarının formalaşdırılmasının, onların rəqəmsal savadlılığının artırılmasının önəmindən bəhs edib, həmçinin peşə təhsilinin inkişafının gələcək əmək bazarına uyğun kadr hazırlığında mühüm rol oynadığını vurğulayıb. Gənclərin xaricdə təhsil dövlət proqramları çərçivəsində bilik və bacarıqlarını artırmalarının ölkənin insan kapitalının gücləndirilməsinə xidmət etdiyini deyən natiq dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində gənclərin fəal iştirakının vacibliyini qeyd edib, onların cəmiyyəti düşündürən sosial, iqtisadi və ictimai məsələlərə həssas yanaşmalarını yüksək qiymətləndirib. Neftçalada da gənclərin təşəbbüslərinin daim dəstəkləndiyini diqqətə çatdıran M.Seyidov bu kimi düşərgə və layihələrin gənclərin bilik, bacarıq və dünyagörüşünün inkişafına mühüm töhfə verdiyini bildirib.

RİH-in başçısı "Könüllülük Akademiyası" layihəsinin Neftçalada təşkil olunduğu üçün Gənclər və İdman Nazirliyinə, eləcə də göstərdikləri fəallığa görə gənclərə təşəkkür edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Gənclər və İdman Nazirliyinin sektor müdiri Kənan Əliyev çıxış edərək "Könüllülük Akademiyası" düşərgəsinin məqsəd və vəzifələri, könüllülərin inkişafına yönəlmiş təlim proqramları və gələcək perspektivlər barədə məlumat verib.

Görüşdə könüllüləri maraqlandıran suallar cavablandırılıb, fikir və təkliflər səsləndirilib, qarşılıqlı müzakirələr aparılıb, sonda isə xatirə fotosu çəkilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Gənc rəssamlar Gəncədə bir araya gəliblər

**Gəncə Şəhər İcra Hakimiyyətinin, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin dəstəyi və Azərbaycan Rəssamlar İttifaqının Gəncə regional bölməsinin təşkilatçılığı ilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Urban Mərkəzində gənc rəssamların əl işlərindən ibarət sərgi açılıb.**



Sərgidə çıxış edənlər Gəncə rəssamlıq məktəbinin zəngin ənənələrindən, gənc istedadların yaradıcılıq potensialından və bu kimi tədbirlərin onların inkişafına verdiyi töhfədən danışıblar. Qeyd olunub ki, gənclərin incəsənətə marağının artırılması, yaradıcılıq fəaliyyətinin stimullaşdırılması və yeni istedadların üzə çıxarılması baxımından belə sərgilər mühüm əhəmiyyət daşıyır.

Çıxışlardan sonra bir qrup rəssama Azərbaycan Rəssamlar İttifaqının üzvlük vəsiqələri təqdim olunub.

Daha sonra qonaqlar sərgi ilə tanış olaraq nümayiş etdirilən əsərlərə baxış keçiriblər.

## Azərbaycanın ilk qadın alpinisti növbəti zirvəni fəth edib

Alpinist Vəfa Musayeva fevralın 7-də Afrikanın ən hündür nöqtəsi olan Kilimancaro dağının Uhuru zirvəsində (5895 m) Azərbaycan bayrağını dalğalandırıb.




AZƏRTAC xəbər verir ki, Everest və Lhotse zirvələrini eyni ekspedisiya çərçivəsində fəth edən ilk azərbaycanlı qadın alpinist bununla dağçılıq yolçuluğunu uğurla davam etdirib. Bu zirvə onun 7 Zirvə layihəsi istiqamətində atdığı növbəti mühüm addım kimi qiymətləndirilir.

Qeyd edək ki, Vəfa Musayeva Kilimancaro yürüşündə Azərbaycanı təmsil edən yeganə qadın idmançı olub. Onun çıxışı sürətli yürüş hesab olunur. Alpinist Marangu marşrutu ilə dayanmadan hərəkət edərək zirvəyə qalxıb və eyni tempdə eniş edib. 5895 metr hündürlükdə, oksigenin azaldığı və temperaturun kəskin dəyişdiyi şəraitdə həyata keçirilən bu çıxış ciddi fiziki və psixoloji dözümlülük tələb edir.

Enişdən sonra dağçılıq təşkilatı tərəfindən onun çıxışı rəsmi şəkildə təsdiqlənib və buna uyğun sertifikat təqdim olunub.

Hazırda alpinist enişi tamamlayaraq istirahət mərhələsindədir və müxtəlif ölkələrdən olan dağçılarla görüşərək növbəti planlarını müzakirə edir. Onun qarşıdakı hədəfləri sırasında 7 Zirvə layihəsi çərçivəsində yeni ekspedisiyalar yer alır.

Beləliklə, Vəfa Musayeva dağçılıq yolunda növbəti zirvəni də fəth edərək Azərbaycanın idman tarixinə öz imzasını atmağa davam edir.

# Qədim Ordubad şəhəri ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilib



Fevralın 9-13-də Özbəkistanın paytaxtı Daşkənddə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) İslam Dünyası İrs Komitəsinin 13-cü sessiyası keçirilir.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, sessiya çərçivəsində fevralın 11-də "Ordubad Tarix-Memarlıq Qoruğu"nun ICESCO-nun İslam Dünyası İrsinin İlkin Siyahısına daxil edilməsi barədə qərar qəbul olunub.

Qeyd edək ki, 1977-ci ildən tarix-memarlıq qoruğu elan edilmiş Ordubad şəhəri 24 oktyabr 2001-ci ildə UNESCO-nun Ümumdünya İrsinin İlkin siyahısına daxil edilmişdir.

Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2024-cü il fevralın 21-də "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb.

Ordubad şəhəri qədim tarixə malikdir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın incisi adlandırdığı Ordubadın adına ilk dəfə V əsrin yazılı mənbələrində rast gəlinir. XVII əsrin əvvəllərində Ordubadda Cümə məscidi, mədrəsə, buzxana, qeysəriyyə, hamam və karvansaralar tikilmiş, Anbaras, Kürdatal, Üçtürləngi, Mingis və Sərşəhər məhəllələri, Ərasət meydanı ansamblı, üç meydan ətrafında örtülü bazar kompleksi salınmışdır. Ordubadın əsas su təchizatı olan kəhriz sistemi də bu dövrdə yaradılmışdır. Şəhərin küçə şəbəkəsi Cümə məscidinin yerləşdiyi mərkəzi meydandan şüa şəklində şaxələnərək müxtəlif məhəllələrin əsasını təşkil edir. XVII-XVIII əsrlərdə inşa edilmiş Cümə, Anbaras, Sərşəhər, Dilbər və Təkeşiyi məscidləri öz tarixi və mədəni əhəmiyyətini bu gün də saxlayır.

Ordubadın ICESCO-nun İlkin Siyahısına daxil edilməsi, həmçinin 2026-cı ildə ölkəmizdə elan edilmiş "Şəhərsalma və Memarlıq İli"nə mühüm töhfədir.

Növbəti mərhələdə Mədəniyyət Nazirliyi tərəfindən nominasiyanın ICESCO-nun Əsas Siyahısına daxil edilməsi istiqamətində işlər aparılacaq.

# Qəbələyə ən çox hansı ölkədən turist gəlir?

Bu ilin yanvarında Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 7533 nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 4393 nəfəri və ya 58,3 faizi Azərbaycan, 3140 nəfəri və ya 41,7 faizi xarici ölkə vətəndaşı olub. Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib.



Bildirilib ki, yanvarda Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı 2025-ci ilin eyni dövrü ilə müqayisədə 586 nəfər və ya 8,4 faiz artıb. Cari ilin yanvarında yerli turistlərin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 473 nəfər və ya 12,1 faiz, əcnəbi turistlərin sayında isə 113 nəfər və ya 3,7 faiz artım qeydə alınıb.

İdarədən verilən məlumata görə, bu ilin yanvarında Qəbələyə gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil edib. Belə ki, ilin birinci ayında bu ölkənin 1249 vətəndaşı Qəbələdə olub. Ümumiyyətlə, cari ilin yanvarında Qəbələyə Birləşmiş Ərəb Əmirliklərindən 458, Səudiyyə Ərəbistanından 370, Pakistandan 260, Küveytdən 171, Rusiya Federasiyasından 88, Qətərdən 63, Türkiyədən 52, Omandan 50, Gürcüstandan 44, İsraildən 24, Bəhreyndən 18, ABŞ-dən 14 turist səfər edib. Gələnlərin 166 nəfəri isə digər ölkələrin vətəndaşları olub.

Yanvarda Qəbələ rayonu ərazisində yerləşən 22 mehmanxana və mehmanxana tipli müəssisədən 15-i fəaliyyət göstərib. Bir gün qonaqlamaq üçün orta qiymət 121,8 manat təşkil edib. Turistlərin qonaqlama müddəti 1-2 gün olub.

## İdman

### Azərbaycanəsilli gimnastlar ABŞ-də uğurla çıxış ediblər

Azərbaycanəsilli gənc gimnastlar, ABŞ Gimnastika Federasiyasının (USA Gymnastics) və MIG Ritmik Gimnastika Klubunun üzvləri Yasmin Yusifli və Eva Əhmədova Kaliforniya ştatının paytaxtı Sakramentoda keçirilən ritmik gimnastika üzrə yarışda çıxış ediblər.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, turnirdə 33 idmançı mübarizə aparıb. 9 yaşlı Yasmin Yusifli və 8 yaşlı Eva Əhmədova Azərbaycan milli musiqisinin sədaları altında öz bacarıqlarını nümayiş etdiriblər. Azərbaycanlı gimnastların zərif milli geyimləri, texniki baxımdan yüksəksəviyyəli, ifadəli və emosional çıxışları böyük maraq və alqışlarla qarşılanıb.

Yarışın nəticələrinə əsasən, Yasmin Yusifli top proqramı üzrə 3-cü yerə layiq görülüb. Bu nəticə onun idman karyerasında növbəti uğur kimi dəyərləndirilib. Soydaşımız bundan əvvəl ardıcıl üç yarışda 1-ci yerin sahibi olub.

Yasmin Yusifli Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Cəmiyyətinin (ACSNC) üzvü, Eva Əhmədova isə Kaliforniyada fəaliyyət göstərən Azərbaycan rəqs dərnəklərinin fəal iştirakçısıdır. Onların qazandıqları nailiyyətlərdə məşqçi Antonina İvanyukanın peşəkar yanaşması və davamlı dəstəyi xüsusi rol oynayır.

### Azərbaycan Ordusunda cüdo, yunan-Roma və sərbəst güləş üzrə birincilik keçirilir



Bu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda cüdo, yunan-Roma və sərbəst güləş üzrə birinciliyin açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən xəbərə görə, Heydər Əliyev adına Hərbi İnstitutda təşkil edilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Dövlət himni səsləndirilib.

İştirakçı komandaların tərkibi yoxlanıldıqdan sonra idmançılara yarışın məqsədi və təhlükəsizlik qaydaları çatdırılıb. Həmçinin hər üç yarışı idarə edəcək baş hakimlər təqdim olunublar.

Yarışın ilk günündə yunan-Roma güləşi üzrə mübarizə aparacaq idmançıların çəki dərəcələri müəyyən edildikdən sonra fərdi və komanda qarşılaşmalarına start verilib.

Qeyd edək ki, yarışlarda hər idman növü üzrə 10 çəki dərəcəsində 11 komandadan ümumilikdə 297 idmançı iştirak edir.

### Şahmat üzrə Azərbaycan çempionatında 1/8 finalın ilk partiyaları keçirilib

Şahmat üzrə Azərbaycan çempionatında 1/8 final mərhələsinin ilk partiyaları keçirilib.



Şahmat Federasiyasından AZƏRTAC-a bildirilib ki, turnirin reytinq favoriti Şəhriyar Məmmədyarov Murad İbrahimli ilə, ötənilki çempion Rauf Məmmədov isə Şiroğlan Talıbovla heç-heçə oynayıb. Eltac Səfərli Kamal Ağasiyevi, Aydın Süleymanlı Rəhim Qasımovu, Məhəmməd Muradlı Rəvan Əliyevi, Read Səmədov Paşam Əlizadəni, Əhməd Əhmədzadə isə Vüqar Rəsulovu məğlub edib. Nicat Abasov ilk partiyada Xaqan Əhmədə uduzub.

Qadın şahmatçıların yarışında bütün oyunlar məhsuldar alınıb. Ötən ilin çempionu Günay Məmmədzadə Nərmin Kazımovanı, Avropa çempionu Ülviyyə Fətəliyeva isə Zəhra Allahverdini məğlub edib. Digər görüşlərdə Gövhər Beydullayeva, Xanım Balacayeva, Gülnar Məmmədova, Türkan Məmmədyarova, Ayan Allahverdiyeva və Səbinə İbrahimova qələbə qazanıblar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Şimali Atlantika Alyansının yeni Arktika strategiyası

## NATO Uzaq Şimalda təhlükəsizliyi gücləndirmək üçün "Arktika keşikçisi" missiyasına başlayır

NATO-nun yüksəkvəzifəli hərbi rəsmisi bildirib ki, alyans "Arktika keşikçisi" missiyası vasitəsilə bölgədəki təhdidlərin qarşısını almağa çalışır. Keçən ay Davosda ABŞ Prezidenti Donald Trampla NATO-nun Baş katibi Mark Rutte arasında keçirilən görüşdə razılaşdırılmış yeni çoxşaxəli səy regiondakı 32 müttəfiqin fəaliyyətini ortaq əməliyyat strategiyası çərçivəsində birləşdirməklə NATO-nun Arktika və Uzaq Şimaldakı mövqeyini gücləndirməyi hədəfləyir.




Bəyanatda deyilir ki, bunlara Danimarkanın "Arktika dözümlüyü" - müttəfiqlərin regionda fəaliyyət göstərmək qabiliyyətini artırmaq üçün hazırlanmış bir sıra çoxşaxəli təlimlər və Norveçin qarşıdan gələn "Soyuq cavab" təlimi daxil olacaq. Artıq əraziyə alyansın hər yerindən qoşunlar gəlməyə başlayıb.

M.Rutte jurnalistlərə bildirib ki, Rusiyanın hərbi fəaliyyətinin artması və Çinin Uzaq Şimala artan marağı qarşısında daha çox iş görməyimiz vacib idi: "İlk dəfə olaraq Arktikada etdiklərimizi vahid komandanlıq altında birləşdirəcəyik. Bu bizə nəinki gördüyümüz işlərdən daha səmərəli istifadə etməyə və daha böyük təsir göstərməyə, həm də doldurmalı olduğumuz boşluqları qiymətləndirməyə imkan verəcək və əlbəttə ki, onları dolduracağıq". NATO-nun yüksəkvəzifəli hərbi rəsmisi Şimali Atlantika Alyansının Arktikadakı mövcudluğunun zamanla inkişaf edəcəyini etiraf edib və bunun alyansın şərq cinahındakı səylərini əks etdirdiyini bildirib: "Bunun bir hissəsi geniş və sərt bir bölgə haqqında məlumatlılığımızı artırmaqla bağlıdır. Bu bölgədə fəaliyyət göstərmək müəyyən bacarıqlar tələb edir - bir ittifaq olaraq zamanla inkişaf etdirməli olduğumuz bacarıqlar. Baltikyanı ölkələrdə çox uğurla etdiyimiz kimi, milli fəaliyyətləri NATO fəaliyyətləri ilə birləşdirmək baş verənləri izləmək qabiliyyətimizi artırır. Bu, irəlilədikcə daha yaxşı planlaşdırma və icra etməyə imkan verir".

NATO rəsmisi iddia edir ki, "Arktika keşikçisi" alyansın təhdidlərini necə "qabaqlamağa" çalışdığının nümayişidir: "Biz kabel kəsilməsi hadisəsini və ya məsələn, pilotsuz təyyarənin müdaxiləsini gözləmirik. Biz bunu qabaqlamağa çalışırıq". Uğurun nə demək olduğu ilə bağlı suala cavab olaraq o bildirib ki, müttəfiqlər Rusiya və Çinin Arktikadakı artan fəaliyyətinə necə reaksiya verəcəyini izləyəcək və lazım olduqda düzəlişlər edəcəklər.

Məlum olduğu kimi, D.Tramp ABŞ-nin Qrenlandiyaya milli təhlükəsizlik səbəbləri üzündən ehtiyacı olduğunu iddia edərək ərazidə Rusiya və Çinin artan fəaliyyətinə istinad edir və dəfələrlə Avropa müttəfiqlərini onun təhlükəsizliyini təmin etmək üçün kifayət qədər iş görmədiklərinə görə tənqid atəşinə tutub.

Atlantik okeanının iki tərəfi arasındakı mübahisə D.Tramp və M.Rutte "Qrenlandiya ilə bağlı gələcək razılaşma üçün çərçivə" barədə razılığa gəldikdən sonra həll edilib, lakin detalları açıqlanmayıb. ABŞ, Qrenlandiya və Danimarka hazırda üçtərəfli danışıqlar aparır. Rutte bildirib ki, alyans Rusiya və Çinin Arktikadakı fəaliyyətini real təhlükə hesab edir. O əlavə edib ki, "keçmişdə gördüklərimizi - dəniz yollarının açılmasını nəzərə alaraq bilirik ki, bunlar daha da güclənəcək və ona görə də NATO ərazisinin bu vacib hissəsini qorumağımızı təmin etməliyik".

Müttəfiqlərin yaxın aylarda bölgəyə fərdi olaraq qüvvələr və aktivlər yerləşdirməsi gözlənilir. Artıq pəsmi London Norveçdə yerləşən britaniyalı hərbi qulluqçularının sayını üç il ərzində ikiqat artıracağını - 1000 nəfərdən 2000 nəfərə çatdıracağını və Britaniya qoşunlarının NATO-nun "Arktika keşikçisi" missiyasında mühüm rol oynayacağını açıqlayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək, bəzi yerlərdə arabir duman olacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 13-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.

Havanın temperaturu gecə 2-5, gündüz 10-15 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacağı gözlənilir. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.




**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası daxili işlər nazirinin birinci müavini polis general-leytenantı Seyfulla Əzimova anası

**SƏMƏRQƏND ƏZİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3204
Sifariş 205

Qiyməti 60 qəpik